# 26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 111 (31080) 26 iyun 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Azərbaycan Silahlı Qüvvələri müstəqilliyimizin və yurdumuzun keşiyində ayıq-sayıq dayanıb



**44 günlük Vətən müharibəsi şanlı tariximizdir və Azərbaycan xalqı bundan sonra əbədi bu Zəfərlə fəxr edəcək. 44 gün ərzində biz hər gün irəli gedirdik. 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi düşmənin belini qırdı.**

**Ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir. Həm yerli istehsal olan silah və texnikadan istifadə edərək, eyni zamanda, xaricdən aldığımız silah və texnikanı Ordumuzun potensialına əlavə edərək hərbi gücümüzü böyük dərəcədə artıra bildik.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Milli ordumuzun qürur və Zəfər dastanı

Səhifə ⇨ 13

## Azərbaycan və islamofobiya ilə mübarizə gündəliyi



Səhifə ⇨ 9

## Hörmüz boğazı sabitliyə yol açır



Səhifə ⇨ 18

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

**İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı mədəniyyət, elm, təhsil və idman kimi sahələrdə ənənəvi olaraq məhsuldar əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Həmçinin ikitərəfli münasibətlərin prioritet istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

## Sloveniya Respublikasının Prezidenti Zati-aliləri xanım Nataşa Pirts Musara

**Hörmətli xanım Prezident!**

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edən Azərbaycan ilə Sloveniya arasında dostluq münasibətlərinin inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Sloveniya xalqına daim rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyun 2026-cı il**

## Prezident İlham Əliyevin sosial media hesablarında Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında 26 İyun – Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edilib.

Paylaşımı təqdim edirik.




## Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesablarında 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib.**

Paylaşımda deyilir: “Xalqımıza Zəfər sevincini bəxş etmiş Ordumuzla qürur duyuruq! Allah Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizə rəhmət eləsin! Uca Tanrı xalqımızı və doğma Azərbaycanımızı qorusun!”.

# Dövlət adından yaradılan bir sıra publik hüquqi şəxslərin fəaliyyətinin yenidən təşkili ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət adından yaradılan bir sıra publik hüquqi şəxslərin fəaliyyətinin yenidən təşkili məqsədilə **qərara alıram:**

**1** "Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi (bundan sonra – Agentlik) yaradılsın.

**2** Aşağıdakı büdcə təşkilatları yaradılsın:

2.1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində Kino Agentliyi;

2.2. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Balıqçılıq və Akvakultura Mərkəzi;

2.3. "Azərbaycan Elm Fondu" publik hüquqi şəxsin əsasında Azərbaycan Elm Fondu;

2.4. "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi;

2.5. "Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC)" publik hüquqi şəxsin əsasında Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC);

2.6. "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin əsasında Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi;

2.7. "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin tabeliyində "Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxsin əsasında Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin tabeliyində Hüquq və İnsan Haqları İnstitutu.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi aşağıdakı publik hüquqi şəxslərin məhdud məsuliyyətli cəmiyyətlərə çevrilmə yolu ilə yenidən təşkilini iki ay müddətində təmin etsin:

3.1. "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs;

3.2. "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs;

3.3. "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs;

3.4. "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs;

3.5. "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs.

**4** Bu Fərmanın 3-cü hissəsi ilə yaradılması nəzərdə tutulan məhdud məsuliyyətli cəmiyyətlərin (bundan sonra – Cəmiyyətlər) ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1.Cəmiyyətlərin Müşahidə Şurasının yaradılması;

4.1.2. Cəmiyyətlərin Müşahidə Şurasının sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

4.2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Cəmiyyətlərin yenidən təşkili və ləğvi;

4.3. Müşahidə Şurasına:

4.3.1. bu Fərmanın 4.1-ci və 4.2-ci bəndləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları və Cəmiyyətlərin nizamnaməsi ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**5** Müəyyən edilsin ki:

5.1. Agentlik dövlət ehtiyatlarının yaradılması və idarə olunması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən, habelə ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığını təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində tədbirlər görən mərkəzi icra hakimiyyəti orqanıdır;

5.2. Cəmiyyətlərin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

5.3. Cəmiyyətlərin nizamnamə kapitalı aidiyyəti üzrə bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin əmlakı hesabına formalaşır;

5.4. Cəmiyyətlərin strukturu, ştat vahidləri və əməkhaqqı sistemləri, bu Fərmanın 6.3-cü və 9.2-ci bəndləri nəzərə alınmaqla, Cəmiyyətlərin Müşahidə Şurası tərəfindən müəyyən edilir;

5.5. bu Fərmanın 1 – 3-cü hissələrində, habelə 6.1.2-ci yarımbəndində nəzərdə tutulan qurumların hüquq və öhdəlikləri, habelə əmlakı onların əsasında yaradılan yeni qurumlara keçir;

5.6. bu Fərmanın 1-ci və 2-ci hissələrinə, habelə 6.1.2-ci yarımbəndinə əsasən yaradılan yeni qurumların əsasnamələri (nizamnamələri), strukturu və əməyin ödənilməsi sistemi müəyyən edilənədək həmin hissələrdə və yarımbənddə nəzərdə tutulan qurumlar fəaliyyətini davam etdirirlər;

5.7. Cəmiyyətlər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslər fəaliyyətini davam etdirirlər.

**6** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. üç ay müddətində:

6.1.1. aşağıdakılarla bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

6.1.1.1. bu Fərmanın 1 – 3-cü hissələri, habelə 6.1.2-ci yarımbəndi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi;

6.1.1.2. bu Fərmanın 9.2-ci bəndi nəzərə alınmaqla, Agentliyin əsasnaməsinin layihəsi, habelə strukturu və işçilərinin say həddi;

6.1.2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi" publik hüquqi şəxsin strukturuna daxil olan "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin və Marionet Teatrının əsasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində büdcə təşkilatı qismində Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin və Marionet Teatrının yaradılmasını təmin etsin;

6.1.3. bu Fərmanın 1-ci və 2-ci hissələrində, habelə 6.1.2-ci yarımbəndində nəzərdə tutulan qurumların balansında olan əmlakın həmin qurumların əsasında yaradılan yeni qurumların balansına verilməsi və onların maddi-texniki təminatı ilə bağlı tədbirlər görülməsini təmin etsin;

6.1.4. bu Fərmanın 9.2-ci bəndi nəzərə alınmaqla, bu Fərmanın 2-ci hissəsinə və 6.1.2-ci yarımbəndinə əsasən yaradılan yeni qurumların əsasnamələrinin (nizamnamələrinin) təsdiq edilməsi, strukturunun, işçilərinin say həddinin, əməkhaqlarının (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) məbləğlərinin və əməyin ödənilməsi sisteminin müəyyən edilməsi ilə bağlı tədbirlər görsün;

6.2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Agentliyin işçilərinin bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin işçiləri hesabına komplektləşdirilməsinin təmin edilməsi ilə əlaqədar tədbirlər görsün;

6.3. işğaldan azad edilmiş ərazilərdə bərpa, tikinti və idarəetmə xidmətlərini həyata keçirən müəssisələrin nümunəvi strukturunu və ştat vahidlərini (xidmət olunan inzibati ərazi vahidlərinin sayı əsasında komplektləşdirməklə) bir ay müddətində təsdiq etsin;

6.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**7** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

7.1. Cəmiyyətlərin dövlət qeydiyyatına alınması üçün onların nizamnaməsi təsdiq edildikdən sonra üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

7.2. Cəmiyyətlər dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin əmlakının aidiyyəti üzrə Cəmiyyətlərin balansına verilməsi üçün müvafiq tədbirlər görsün;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**8** "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs:

8.1. iki ay müddətində tabeliyində məhdud məsuliyyətli cəmiyyətin yaradılmasını və Şuşa şəhəri, eləcə də Şuşa rayonu ərazisində tikilmiş çoxmənzilli binaların və fərdi yaşayış evlərinin idarə edilməsi, habelə həmin ərazidə abadlaşdırma, yaşıllaşdırma, işıqlandırma və mənzil-kommunal təsərrüfatı sahələrində funksiyalarının həmin cəmiyyət vasitəsilə həyata keçirilməsini təmin etsin;

8.2. bu Fərmanın 9.2-ci bəndi nəzərə alınmaqla, mövcud strukturunun optimallaşdırılması, habelə bu Fərmanın 8.1-ci bəndində nəzərdə tutulan cəmiyyətin strukturunun, ştat vahidlərinin və əməkhaqqı sisteminin müəyyən edilməsi ilə bağlı nizamnaməsinə uyğun olaraq tədbirlər görsün;

8.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**9** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

9.1. bu Fərmana əsasən yaradılan yeni qurumların fəaliyyətinin maliyyələşdirilməsini cari ilin dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində təmin etsin;

9.2. "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, bu Fərmana əsasən yaradılan yeni qurumların strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2026-cı il**

# "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında", "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə qərara alıram:

**1** "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609 (Cild I); 2024, № 7, maddə 790; 2025, № 6, maddə 542, № 8, maddə 746, № 11, maddə 1035; 2026, № 1, maddə 24) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.5-ci bənddə ", 150.1-ci (ikinci cümlədə) və 748-5-ci (daşınmaz əmlaka münasibətdə)" sözləri "və 150.1-ci (ikinci cümlədə)" sözləri ilə əvəz edilsin;

1.2. 3.13-cü bənd ləğv edilsin.

**2** Bu Fərman "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 412-VIIQ nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2026-cı il**

# Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 590 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 590 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 1, maddə 38) ilə təsdiq edilmiş "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə"nin 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1** 4.2.9-cu yarımbənd ləğv edilsin.

**2** 4.2.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.2.10. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (maliyyə bazarlarını tənzimləyən qanunlarla Mərkəzi Bankın nəzarət etdiyi subyektlər kimi müəyyən edilən hüquqi şəxslər istisna olmaqla), dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların bank hesablarına dair məlumatlar;".

**3** Aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

"4.2-1. Sahibin normativ hüquqi aktlarla müəyyən edilən hüquqlarının həyata keçirilməsi, vəzifələrinin icrası, habelə dövlət xidmətləri göstərməsi zamanı dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin emissiya etdiyi qiymətli kağızlar barədə reyestr məlumatları tələb olunduqda, bu məlumat bilavasitə həmin hüquqi şəxslərin özündən əldə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2026-cı il**

# "Yaşadıqları dövlətdən kənarda olarkən işçilərlə istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqatı qaydası haqqında" 1994-cü il 9 dekabr tarixli Sazişə dəyişikliklərin edilməsi haqqında Protokol"un təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il iyunun 5-də Düşənbə şəhərində Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının iclasında imzalanmış "Yaşadıqları dövlətdən kənarda olarkən işçilərlə istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqatı qaydası haqqında" 1994-cü il 9 dekabr tarixli Sazişə dəyişikliklərin edilməsi haqqında Protokol" təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2026-cı il**

# "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsinin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur)*.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2026-cı il**

# "İntellektual gömrük" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "İntellektual gömrük" informasiya sistemi (bundan sonra – İGİS) yaradılsın.

**2** "İntellektual gömrük" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

**3** Müəyyən edilsin ki, İGİS-in sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir.

**4** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi:

4.1. İGİS-in formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

4.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, İGİS-in "Hökumət buludu"nda yerləşdirilməsini, aparılmasını və təkmilləşdirilməsini təmin etsin.

**5** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**6** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 4-cü hissəsində qeyd olunan məlumatların ilkin mənbəyini formalaşdıran dövlət orqanları (qurumları) ilə birlikdə həmin məlumatların altı ay müddətində Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə zəruri tədbirlər görsün.

**7** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2026-cı il**

# “Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744 (Cild I); 2024, № 5 (I kitab), maddə 519, № 12 (II kitab), maddə 1354) 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.8-ci bənddə “Tibbi-Sosial Ekspertiza və Reabilitasiya” sözləri “Tibbi Sığorta və Ekspertiza” sözləri ilə əvəz edilsin;

1.2. 7.10-cu bənddə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözləri ilə əvəz edilsin.

2. “Özəl tibb fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 296 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 163 (Cild I) 2.4-cü bəndində “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözləri ilə əvəz edilsin.

3. “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, № 11, maddə 1023, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 35, № 2, maddələr 123, 125) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.12-1-ci bənddən “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın;

3.2. 1.36-cı bənddə “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözləri ilə əvəz edilsin.

4. “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 264 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.6-cı bənddən “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın;

4.2. 2.10-cu bənddə hər iki halda “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1110 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 2, maddə 136) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının tərkibi”nin “Şuranın üzvləri:” hissəsinin on birinci abzasına “müavini” sözündən sonra nöqtə işarəsi əlavə olunsun və on ikinci abzası ləğv edilsin.

6. “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 fevral tarixli 373 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 90 (Cild I) 2.5-ci bəndində “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1383; 2025, № 8, maddə 749; 2026, № 2, maddə 123) ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”nin 11-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 11.4-cü bəndə “məlumatlar” sözündən sonra “, habelə icbari tibbi sığorta üzrə sığortaolunanların fərdi uçotunun aparılması məqsədilə Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyət vəsiqələri, Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qaçqın vəsiqəsi və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarının Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən himayəyə götürülmüş şəxslər üzrə məlumatlar” sözləri əlavə olunsun və həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

7.2. 11.15-ci bənd ləğv edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90 (Cild I); 2024, № 3, maddə 254, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 12 (II kitab), maddə 1369; 2025, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 24, № 2, maddə 32, № 3, maddə 234) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.1-ci bəndə üçüncü halda “sığorta,” sözündən sonra “icbari tibbi sığorta,” sözləri əlavə edilsin;

8.2. 2.1.1-ci yarımbəndə üçüncü halda “sığorta” sözündən sonra “, icbari tibbi sığorta” sözləri əlavə edilsin;

8.3. III hissə üzrə:

8.3.1. 3.1.1-ci yarımbəndə üçüncü halda “sığorta,” sözündən sonra “icbari tibbi sığorta,” sözləri əlavə edilsin;

8.3.2. 3.1.25-2-ci yarımbəndə üçüncü halda “sığortanın” sözündən sonra “, icbari tibbi sığortanın” sözləri əlavə edilsin;

8.3.3. 3.1.28-1-ci yarımbənddə “Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun və işsizlikdən” sözləri “dövlət sosial müdafiə fondunun, işsizlikdən sığorta fondunun və icbari tibbi” sözləri ilə əvəz edilsin;

8.3.4. 3.1.28-2-ci yarımbəndə üçüncü halda “sığorta” sözündən sonra “, icbari tibbi sığorta” sözləri əlavə edilsin;

8.3.5. aşağıdakı məzmunda 3.1.28-8 – 3.1.28-11-ci yarımbəndlər əlavə edilsin:

“3.1.28-8. icbari tibbi sığorta üzrə sığortaolunanların fərdi uçotunun həyata keçirilməsini təmin etmək;

3.1.28-9. xidmətlər zərfinə daxil olan həcmdə göstərilən tibbi xidmətlərə və buraxılmış dərman vasitələrinə görə sığorta ödənişlərinin maliyyələşdirilməsini təmin etmək;

3.1.28-10. icbari tibbi sığortanın maliyyə sabitliyinin təmin edilməsi məqsədilə icbari tibbi sığorta ehtiyatlarının yaradılmasını təmin etmək;

3.1.28-11. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, icbari tibbi sığorta haqqının məbləğinin, habelə xidmətlər zərfinin müəyyən olunmasına dair təkliflər hazırlamaq;”;

8.3.6. 3.1.36-cı yarımbəndə üçüncü halda “sığorta,” sözündən sonra “icbari tibbi sığorta,” sözləri əlavə edilsin;

8.3.7. 3.1.37-1-ci yarımbənddə “Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin icrası haqqında və işsizlikdən sığorta fondunun büdcəsi” sözləri “dövlət sosial müdafiə fondunun, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta fondunun büdcələrinin icrası” sözləri ilə əvəz edilsin;

8.4. IV hissə üzrə:

8.4.1. 4.1.3-cü yarımbəndə dördüncü halda “sığorta,” sözündən sonra “icbari tibbi sığorta,” sözləri əlavə edilsin;

8.4.2. aşağıdakı məzmunda 4.1.12-3-cü yarımbənd əlavə edilsin:

“4.1.12-3. icbari tibbi sığorta çərçivəsində sığortaolunanlara göstərilən tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə, habelə sığortaolunanlara buraxılan dərman vasitələrinin həcminə və buraxılma şərtlərinə nəzarət etmək məqsədilə tibbi-iqtisadi ekspertizanın və tibbi xidmətin keyfiyyətinin ekspertizasının həyata keçirilməsini təmin etmək;”.

9. “İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 414 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 283 (Cild I); 2025, № 11, maddə 1035, № 12 (I kitab), maddə 1153; 2026, № 1, maddə 24) 1.4-cü bəndində “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözləri ilə əvəz edilsin.

10. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə”nin təsdiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddə 549, № 8, maddə 773, № 12 (I kitab), maddə 1153; 2026, № 2, maddə 123) 5.13-cü bəndində “Tibbi-Sosial Ekspertiza və Reabilitasiya” sözləri “Tibbi Sığorta və Ekspertiza” sözləri ilə əvəz edilsin.

11. “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1639 (Cild I); 2024, № 12 (II kitab), maddələr 1352, 1361) 1–3-cü hissələri ləğv edilsin.

12. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1499 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

12.1. 2.4-1-ci bənddə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi” sözləri “Sosial Xidmətlər Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözləri ilə əvəz edilsin;

12.2. 2.13-cü bənddə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi” sözləri “Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1685 (Cild I); 2024, № 5 (I kitab), maddə 506) ilə təsdiq edilmiş “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

13.1. 4.1.5-ci yarımbəndə hər iki halda “sığorta fondunun” sözlərindən sonra “, icbari tibbi sığorta fondunun” sözləri əlavə edilsin;

13.2. 4.1.6-cı yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

13.3. 4.1.7-ci yarımbənd ləğv edilsin.

14. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 9, maddə 1000, № 12 (II kitab), maddə 1383; 2025, № 3, maddə 226, № 11, maddə 1022, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddələr 24, 32) ilə təsdiq edilmiş “DOST” mərkəzlərində göstərilən xidmətlərin siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. 2.5-ci bənd ləğv edilsin;

14.2. aşağıdakı məzmunda 9-2-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 9-2. | İcbari tibbi sığorta sahəsində göstərilən xidmətlər |
| 9-2.1. | icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərin göstərilməsi haqqında müqavilə bağlanılması ilə əlaqədar müraciətlərin qəbul edilməsi |
| 9-2.2. | icbari tibbi sığorta çərçivəsində ambulator şəraitdə dərman vasitələrinin buraxılması haqqında müqavilə bağlanılması ilə əlaqədar müraciətlərin qəbul edilməsi |
| 9-2.3. | icbari tibbi sığorta üzrə arayışlar verilməsi |

14.3. 10.13-cü bənddə “5–29” rəqəmləri “5–35” rəqəmləri ilə əvəz edilsin.

15. “Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 912 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1955 (Cild I) aşağıdakılar dəyişikliklər edilsin:

15.1. 2-ci hissə üzrə:

15.1.1. birinci abzasda “1-ci hissəsi” sözləri “1.1-ci, 1.2-ci və 1.4-cü bəndləri” sözləri ilə əvəz edilsin;

15.1.2. 2.3.1-ci yarımbənddən “(bu Fərmanın 3.4-cü bəndi nəzərə alınmaqla)” sözləri çıxarılsın;

15.2. 3-cü hissə üzrə:

15.2.1. 3.1-ci bənddə “1-ci hissəsində” sözləri “1.1-ci, 1.2-ci və 1.4-cü bəndlərində” sözləri ilə əvəz edilsin;

15.2.2. 3.3-cü bənddən “Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin və” sözləri çıxarılsın;

15.2.3. 3.4-cü bənd ləğv edilsin.

16. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 fevral tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 98 (Cild I); 2025, № 6, maddə 541) ilə təsdiq edilmiş “Qeyri-formal məşğulluğa nəzarət” vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”nın 14-cü hissəsi ləğv edilsin.

17. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 104 (Cild I); 2025, № 4 (I kitab), maddə 341; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş “Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası”nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

17.1. 2.1.8-ci yarımbənd ləğv edilsin;

17.2. 2.2-ci bənddə “2.1.1–2.1.8-ci” sözləri “2.1.1–2.1.7-ci, 2.1.8-1-ci və 2.1.8-2-ci” sözləri ilə əvəz edilsin.

18. “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718 (Cild I); 2024, № 6 (I kitab), maddə 660, № 12 (II kitab), maddə 1383; 2025, № 4 (I kitab), maddə 345, № 11, maddə 1022, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 24) aşağıdakı dəyişikliklər edilsin:

18.1. 3-cü hissə ləğv edilsin;

18.2. 5-ci hissə üzrə:

18.2.1. 5.1-ci bənddən “bu Fərmanın 1–3-cü hissələrində nəzərdə tutulan” sözləri çıxarılsın;

18.2.2. 5.5-ci bənddə “1–4-cü” sözləri “1-ci, 2-ci və 4-cü” sözləri ilə əvəz edilsin;

18.3. həmin Fərmanla təsdiq edilmiş “Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

18.3.1. 1-ci hissə üzrə:

18.3.1.1. 1.1-ci bəndə “yaxşılaşdırılması,” sözündən sonra “əlilliyi olan şəxslərin reabilitasiyasının təşkili,” sözləri əlavə edilsin;

18.3.1.2. 1.3-cü bəndə “Konstitusiyasını,” sözündən sonra “Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri,” sözləri əlavə edilsin;

18.3.2. aşağıdakı məzmunda 2.1.4-1-ci və 2.1.4-2-ci yarımbəndlər əlavə edilsin:

“2.1.4-1. əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqlarının inkişafı məqsədilə Fərdi Reabilitasiya Proqramı tərtib etmək və onun icrasına nəzarət etmək;

2.1.4-2. infrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması məqsədilə tədbirlər görmək;”;

18.3.3. 3-cü hissə üzrə:

18.3.3.1. 3.1.1-ci yarımbənddə “qanunvericilik aktlarının” sözləri “normativ hüquqi aktların” sözləri ilə əvəz edilsin;

18.3.3.2. 3.1.11-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.1.11. əlilliyi olan şəxslərin, habelə sosial yadırğama (dezadaptasiya), sosial məhrumiyyət (deprivasiya) şəraitində olan şəxslərin sosial reabilitasiyası ilə bağlı tədbirlər görmək;”;

18.3.3.3. 3.1.14-cü yarımbənddə “5–29” rəqəmləri “5–35” rəqəmləri ilə əvəz edilsin;

18.3.3.4. aşağıdakı məzmunda 3.1.14-1–3.1.14-11-ci və 3.1.15-1-ci yarımbəndlər əlavə edilsin:

“3.1.14-1. əlilliyi olan şəxslərin reabilitasiyasının həyata keçirilməsini təşkil etmək;

3.1.14-2. “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, sağlamlıq imkanları məhdud şəxslərin psixoloji-pedaqoji reabilitasiyasının təşkili üçün tədbirlər görmək;

3.1.14-3. əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyasını və sosial bacarıqlarını inkişaf etdirmək;

3.1.14-4. əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqlarının inkişafı məqsədilə Fərdi Reabilitasiya Proqramının tərtib edilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə çoxsahəli komissiyalar yaratmaq;

3.1.14-5. çoxsahəli komissiyalar vasitəsilə əlilliyi olan şəxslərin reabilitasiyası ilə bağlı Fərdi Reabilitasiya Proqramını tərtib etmək və onun icrasına nəzarət etmək;

3.1.14-6. əlilliyi olan şəxslərin müayinə və müalicə məqsədilə tibb və ya reabilitasiya müəssisəsinə göndərilməsi barədə qərar qəbul etmək;

3.1.14-7. əlilliyi olan şəxslərə “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji yardım göstərmək;

3.1.14-8. tabeliyindəki qurumlar vasitəsilə əlilliyi olan şəxsləri reabilitasiya vasitələri ilə onların yaşayış yeri üzrə təmin etmək;

3.1.14-9. reabilitasiya vasitələrinin texniki normativ hüquqi aktlara uyğunluğuna nəzarət etmək, onların tibbi-texniki sınaqlarının keçirilməsini təşkil etmək və yaxud bu məqsədlə mütəxəssisləri cəlb etmək;

3.1.14-10. tabeliyindəki qurumlar tərəfindən protez-ortopedik məmulatların ayrı-ayrı növlərinin, o cümlədən protez ayaqqabılarının və digər reabilitasiya vasitələrinin istehsal olunmasını, protez-ortopedik məhsullar istehsalında müasir texnologiyaların tətbiqini təmin etmək;

3.1.14-11. infrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması məqsədilə tədbirlər görmək;”;

“3.1.15-1. “Şəhid ailəsi üzvü” vəsiqəsinin verilməsini təmin etmək;”;

18.3.3.5. 3.1.21-ci yarımbəndə “tabeliyində” sözündən əvvəl “struktur bölmələrinin,” sözləri əlavə edilsin və həmin bənddə “və onların ailələrinə sosial xidmət göstərən digər müəssisələrin” sözləri “sosial xidmət göstərən digər müəssisələrin, həmin müəssisələrin struktur bölmələrinin” sözləri ilə əvəz edilsin;

18.3.3.6. aşağıdakı məzmunda 3.1.21-1-ci yarımbənd əlavə edilsin:

“3.1.21-1. əlilliyi olan şəxslərin reabilitasiyasına dair Nazirliyə təkliflər vermək;”;

18.3.3.7. 3.1.24-4-cü yarımbəndə “uşaqlar” sözündən sonra “, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək valideyn himayəsindən məhrum olmuş uşaqlar” sözləri əlavə edilsin;

18.3.3.8. 3.1.38-ci yarımbənd ləğv edilsin;

18.3.3.9. aşağıdakı məzmunda 3.2.11-1-ci yarımbənd əlavə edilsin:

“3.2.11-1. sosial xidmət sahəsində fəaliyyətə könüllülərin cəlb edilməsi ilə bağlı tədbirlər görmək;”;

18.3.4. 4-cü hissə üzrə:

18.3.4.1. 4.4-cü bənddə “4 (dörd)” sözləri “5 (beş)” sözləri ilə, “3 (üç)” sözləri “4 (dörd)” sözləri ilə əvəz edilsin;

18.3.4.2. 4.5.16-cı yarımbənddə “3.1.28-ci” sözləri “3.1.29-cu” sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; 2025, № 1, maddə 29, № 3, maddə 224, № 7, maddə 662, № 11, maddə 1018) ilə təsdiq edilmiş “Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı”nın 31-ci hissəsində “Tibbi-Sosial Ekspertiza və Reabilitasiya” sözləri “Tibbi Sığorta və Ekspertiza” sözləri ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1468 (Cild I); 2024, № 6 (I kitab), maddə 654; 2025, № 4 (I kitab), maddə 341) ilə təsdiq edilmiş “Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə” altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”nın doqquzuncu hissəsi ləğv edilsin.

21. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair 2004-cü il mayın 6-da Bakıda imzalanmış Prosedur Müqaviləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əlavə Prosedur Müqavilə”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 iyul tarixli 1740 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 729 (Cild I) 2-ci hissəsindən “, Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın.

22. “Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 sentyabr tarixli 2317 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1287 (Cild I) 2.1-ci bəndində “Tibbi-Sosial Ekspertiza və Reabilitasiya” sözləri “Tibbi Sığorta və Ekspertiza” sözləri ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli 2336 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1384 (Cild I); 2025, № 2, maddə 125; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş “Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları”nın 1.6-cı bəndindən “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,” sözləri çıxarılsın.

24. “İcbari tibbi sığorta fondunun 2026-cı il büdcəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 568 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12 (I kitab), maddə 1159) aşağıdakı dəyişikliklər edilsin:

24.1. 3.3.2.8.1-ci abzasdan “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsin məlumat mərkəzlərində” sözləri çıxarılsın;

24.2. aşağıdakı məzmunda 4.5-ci bənd əlavə edilsin:

“4.5. Bu Fərmanın 3.1-ci və 4.2 – 4.4-cü bəndlərinin icrası “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi tərəfindən həyata keçirilir.”.

25. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1217 (Cild I); 2025, № 7, maddə 632) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

25.1. 2.7-ci, 2.8-ci və 2.15-ci bəndlərin ikinci abzaslarından “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,” sözləri çıxarılsın;

25.2. 4.18-ci bəndin ikinci abzasında “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddələr 647, 654, № 12 (II kitab), maddə 1359; 2025, № 8, maddə 749, № 11, maddə 1018; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın “7. Tədbirlər planı” hissəsində aşağıdakı dəyişikliklər edilsin:

26.1. 3.3.1-ci yarımbəndin 3-cü və 4-cü abzaslarının, 3.3.2-ci yarımbəndin 3-cü abzasının, 3.3.3-cü yarımbəndin 1-ci abzasının, 3.3.5-ci yarımbəndin 3-cü abzasının, 3.3.7-ci yarımbəndin 1-ci, 3-cü və 4-cü abzaslarının “Digər icraçılar” sütunlarında “İTSDA” akronimi “ƏƏSMN” akronimi ilə əvəz edilsin;

26.2. 3.3.6-cı yarımbəndin 1-ci abzasının “Əsas icraçı orqan (qurum)” sütununda “İTSDA” akronimi “ƏƏSMN” akronimi ilə əvəz edilsin;

26.3. “AKRONİMLƏR VƏ İXTİSARLAR” hissəsindən “İTSDA Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,” sözləri çıxarılsın.

27. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297 (Cild I); 2024, № 4, maddə 400, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1360; 2025, № 4 (I kitab), maddə 330; 2026, № 2, maddə 128) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın “10. Dövlət Proqramına dair Tədbirlər Planı” hissəsində aşağıdakı dəyişikliklər edilsin:

27.1. 2.5.1-ci və 2.5.3–2.5.13-cü yarımbəndlərin “Digər icraçılar” sütunlarında “İTSDA” akronimi “ƏƏSMN” akronimi ilə əvəz edilsin;

27.2. 2.5.2-ci yarımbəndin “Əsas icraçı qurum” sütununda “İTSDA” akronimi “ƏƏSMN” akronimi ilə əvəz edilsin;

27.3. 2.5.15-ci yarımbəndin “Digər icraçılar” sütunundan “İTSDA,” akronimi çıxarılsın.

28. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I); 2025, № 4 (I kitab), maddə 379, № 7, maddə 692) ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın “8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı” hissəsində aşağıdakı dəyişikliklər edilsin:

28.1. 8.10.5-ci yarımbəndin “Digər icraçılar” sütununda “İTSDA” akronimi “ƏƏSMN” akronimi ilə əvəz edilsin;

28.2. “AKRONİMLƏR VƏ İXTİSARLAR” hissəsindən “İTSDA - Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın.

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qdansk şəhərində Ukrayna Bərpa Konfransı çərçivəsində Polşa Baş nazirinin müavini, xarici işlər naziri Radoslav Şikorski ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə Polşa arasında mövcud münasibətlərinin inkişaf dinamikası yüksək qiymətləndirilib, siyasi dialoqun intensiv xarakter daşımasının ikitərəfli əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verdiyi vurğulanıb.

Nazirlər iki ölkə arasında hazırlanmaqda olan bir sıra sazişlər üzrə aparılan işləri nəzərdən keçiriblər. İqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib, ticarət dövriyyəsinin artırılması, investisiya imkanlarının təşviqinin vacibliyi vurğulanıb.

Söhbət zamanı regionda postmünaqişə dövründə formalaşan vəziyyət və sülh quruculuğu prosesləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Avropa təhlükəsizliyi, enerji dayanıqlılığı, regional bağlantılar, eləcə də qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*

**Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri, habelə regional gündəlikdə duran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tərəflər mövcud siyasi dialoqun, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və intensiv təmasların Azərbaycan-Aİ münasibətlərinin inkişafına mühüm töhfə verdiyini vurğulayıblar. Bu çərçivədə, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın cari ildə Azərbaycana həyata keçirdiyi səfərin qarşılıqlı anlaşmanın dərinləşdirilməsi və



əməkdaşlıq gündəliyinin irəli aparılması baxımından əhəmiyyəti qeyd olunub.

Azərbaycan və Aİ arasında siyasi, iqtisadi, enerji, nəqliyyat-kommunikasiya və digər sahələr üzrə əməkdaşlığın cari vəziyyəti, habelə əldə edilmiş razılıqlar nəzərdən keçirilib.

Söhbət zamanı, həmçinin regional və beynəlxalq gündəlikdə yer alan digər aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*

**Haaqada Azərbaycan Xarici İşlər Nazirliyi ilə Niderland Krallığının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr keçirilib. Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Niderland nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Marsel de Vink rəhbərlik edib.**

Məsləhətləşmələr zamanı Azərbaycan-Niderland münasibətlərinin mövcud vəziyyəti və inkişafı perspektivləri, bu çərçivədə həyata keçiriləcək tədbirlər barədə fikir mübadiləsi aparılıb, habelə regional və beynəlxalq məsələlər nəzərdən keçirilib.

Tərəflər siyasi dialoqun dərinləşdirilməsi məqsədilə qarşılıqlı rəsmi səfərlərin həyata keçirilməsinin, müntəzəm təmasların davam etdirilməsinin və beynəlxalq tədbirlər çərçivəsində görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

İqtisadi əməkdaşlığın genişləndirilməsi üçün prioritet istiqamətlərlə bağlı fikir mübadiləsi aparılıb. Həmçinin xalqlararası əlaqələrin möhkəmləndirilməsi məqsədilə mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Məsləhətləşmələrdə, habelə qarşılıqlı maraq kəsb edən digər regional və beynəlxalq mövzular ətrafında da fikir mübadiləsi aparılıb.

*XQ*

# XİN Venesuelaya başsağlığı verdi

**Azərbaycan Xarici İşlər Nazirliyi Venesuelada baş verən güclü zəlzələlərlə bağlı başsağlığı verib.**

Bu barədə XİN-in "X" hesabında paylaşım edilib: "Venesuellada baş verən, insan itkilərinə və genişmiqyaslı dağıntılara səbəb olan zəlzələ xəbəri bizi dərindən kədərləndirdi. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, bu çətin günlərdə Venesuela xalqı və hökuməti ilə həmrəy olduğumuzu bildiririk.

Zərərçəkənlərin hər birinin tezliklə sağalmasını arzulayırıq".

Xatırladaq ki, Venesuelada baş verən iki güclü zəlzələ nəticəsində 32 nəfər həlak olub, 700-dən çox şəxs isə yaralanıb.

# Azərbaycan və islamofobiya ilə mübarizə gündəliyi

## *Prezident İlham Əliyevin üzərində dayandığı 6 məqam*

**“Müqəddəs kitabımız “Qurani-Kərim”in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi heç bir halda ifadə azadlığı ilə əsaslandırıla bilməz və tamamilə qəbuledilməzdir. İslamofobiya yalnız müsəlmanlara qarşı dözümsüzlük halı deyil, qarşılıqlı anlaşmaya və dinc birgəyaşayışa təhdid yaradan təhlükəli tendensiyadır”. Bu fikirlər Prezident İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına müraciətindəndir.**



Tam əminliklə demək olar ki, dövlətimizin başçısının sözügedən müraciətin ruhu özündə dünyanın İslam dininə qarşı mənfi köklənişinə düzgün adekvat reaksiya məntiqini daşıyır. Müraciətdə, həmçinin ölkəmiz bu reaksiyanı müqavimət kimi formalaşdıran məmləkət qismində vurğulanır. İlham Əliyev islamofobiya ilə mübarizəyə diqqətin daha da artırılması məqsədilə Azərbaycanda mövzuya həsr olunmuş beynəlxalq konfransların təşkil edildiyini məhz buna görə xatırladır: “İslamofobiyanın narahatedici şəkildə getdikcə yayıldığı bir dövrdə Azərbaycanın bu konfranslara ev sahibliyi etməsi dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi və dinimizlə bağlı stereotiplərin aradan qaldırılması baxımından böyük əhəmiyyət kəsb edir”.

***

Bəli, Azərbaycanda indiyədək islamofobiya ilə mübarizəyə həsr olunmuş çoxsaylı toplantılar təşkil olunub. Bu baxımdan ötən il mayın 26-27-də Bakıda keçirilən “İslamofobiya: Qərəzlərin ifşası və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq elmi konfransı da vurğulamağa dəyər. Qeyd edək ki, dövlətimizin başçısı 40-a yaxın ölkədən, təxminən, 200 iştirakçının – alimlərin, beynəlxalq ekspertlərin, din xadimlərinin və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin qatıldıqları həmin tədbirin iştirakçılarına da müraciət ünvanlamışdı. O müraciət ki, sonradan BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayıldı. Bu isə Prezident İlham Əliyevin islamofobiyaya qarşı mübarizə ilə bağlı beynəlxalq çağırışlarının, tolerantlıq və multikulturalizm dəyərlərinə verdiyi əhəmiyyətin dünya miqyasında yüksək qiymətləndirildiyini bir daha göstərdi.

İslamofobiya qlobal təhlükəlidir. Elə bir təhlükə ki, obyektivliyi görməyə imkan tanımır, obrazlı desək, həqiqətlər pəncərəsini bağlamaqla, onları darısqal otaqlarda nəfəs almağa məcbur edir. Prezident İlham Əliyev diqqəti məhz belə xoşagəlməz tendensiyaya yönəldir. Bu mənada, dövlətimizin başçısının ifadə etdiyi fikirlər özündə, bir növ, ədalətsizliyə qarşı təbil zəngi effekti yaradır: “Məyusedici haldır ki, Qərbdə bəzi siyasi dairələr, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi beynəlxalq təsisatlar anti-İslam əhvali-ruhiyyəsini təlqin edərək, İslamı ekstremizm və terrorizm ilə eyniləşdirməyə, dinimizə qarşı qərəzli təsəvvür yaratmağa və onu təhlükə mənbəyi kimi qələmə verməyə cəhdlər göstərirlər”.

***

Tam qətiyyətlə deyə bilərik ki, islamofobiya klassik imperializmə söykənmiş siyasi düşüncə məhsuludur. Bu düşüncə tarixi hadisələr fonunda meydana çıxıb. Məsələn, Ərəb xilafətinin, Osmanlının yüksəlişi Qərb imperializminin buna qarşı dirəniş formalaşdırması reallığını doğurdu, nəticədə dinlərarası nifaq ritorikası gücləndirildi. Nəinki gücləndirildi, habelə fəlsəfi traktat məzmunu qazandı.

XX əsrin hadisə və prosesləri, o cümlədən imperiyaların süqutu və yeni dünya düzəninin formalaşması nəticəsində düşünmək olardı ki, bir çox köhnə stereotiplərlə yanaşı, İslam dinindən qorxu da kənara atılacaq. Əslində, müasir dövrün “Avropa evi” ideyası, həmçinin, bu ideyanı meydana çıxaran Avropa İttifaqının açıqladığı prinsiplər belə qənaətə gəlməyə əsas verirdi. Lakin zamanla həmin başəri prinsiplərin yalnız imitasiya mahiyyəti üzə çıxdı. Digər tərəfdən, məlum oldu ki, Aİ ilə yanaşı, bir sıra dünya təsisatlarının söykəndiyi sistemin kökündə saxtakarlıq dayanır. Məsələn, Avropa düşüncə mərkəzləri müsəlman axınının “köhnə qitə”nin iqtisadi düzənini pozduğunu gördülər. İdeyalarının çürüklüyünü etiraf edə bilmədilər və belə bir şəraitdə onların dadına uydurduqları islamofobiya “yetişdi”. Müvafiq olaraq, orta əsrlərin müsəlman dövlətlərindən qorxu tendensiyası ideoloji məzmun qazanmağa başladı.

İmperializm İslamı özünün qlobal məqsədlərinə nail olmaq vasitəsinə çevirməyə cəhd göstərdi, əksər hallarda buna nail oldu. Çünki çox vaxt müsəlmanlar özləri də prosesdə alət rolunda oldular. Bu durum vəziyyəti ağırlaşdırdı, nəticə isə insalığın uçurumundan xəbər verir. Məhz buna görə Prezident İlham Əliyev Qərb siyasi dairələrinin, eləcə də Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi qurumların İslamı ekstremizm və terrorizmlə eyniləşdirməyə yönəlmiş qərəzli yanaşmalarını tənqid edir. Çünki bəşəri idealları əsas tutduqlarını bildirən, reallıqda isə neoimperializmin ideoloji rıçaqına çevrilmiş həmin qurumların yolverilməz yanaşmaları, bütövlükdə, dünyada gərginliyi artırır, qlobal təhlükəsizliyə zərbə vurur.

***

Bəli, Prezident İlham Əliyev müxtəlif çıxışlarında islamofobiyanın getdikcə artan təzahürlərinə diqqət çəkərək vurğulayır ki, bu mənfi tendensiya beynəlxalq sülh və təhlükəsizlik üçün təhdid yaradır. Dövlətimizin başçısının şəxsində Azərbaycan dövlətinin mövqeyi budur ki, dini dözümsüzlük, ayrı-seçkilik və nifrət çağırışları ilə mübarizə yalnız birgə beynəlxalq səylər nəticəsində mümkünləşə bilər.

Ancaq ölkəmiz qlobal bəla ilə mübarizədə, ilk növbədə, müsəlman dövlətlərinin həmrəyliyi prinsipini önə çəkir. Buna görə də İlham Əliyev onları qlobal bəlaya qarşı mübarizədə vahid cəbhə yaratmağa çağırır. Bu çağırış dövlətimizin başçısının barəsində söz açdığımız “İslamofobiya: Qərəzlərin ifşası və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq elmi konfransın iştirakçılarına müraciətində də əksini tapmışdı: “Hazırkı qlobal çağırışlar və böhranlar, İslam dünyasının üzləşdiyi yeni sınaqlar və çətinliklər, habelə islamofobiya meyillərinin artması, dinimizi gözdən salmaq cəhdləri müsəlman ölkələri arasında həmrəyliyin və birliyin möhkəmləndirilməsini, qarşılıqlı dəstəyin göstərilməsini labüd edir”.

***

Sonda ümumiləşdirmə apararaq deyək ki, Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin islamofobiya xüsusundakı neqativ meyillərlə və onların aradan qaldırılması ilə bağlı mövqeyi bir neçə vacib nüansı özündə birləşdirməkdədir.

Birincisi, islamofobiyanın beynəlxalq təhlükəsizliyə təhdid mahiyyətinin açıqlanması üzərində dayanmalıyıq. Dövlətimizin başçısı əbəs yerə vurğulamır ki, müsəlmanlara qarşı nifrət, İslam dininə qarşı düşmənçilik və dözümsüzlük son illərdə daha sistemli xarakter almağa başlayıb. İkinci meyil İslamın terrorizmlə eyniləşdirilməsidir ki, Prezident İlham Əliyev belə bir tendensiyanın yolverilməzliyini diqqətə çatdırarkən, dinimizin sülhün, tolerantlığın, ədalət və qarşılıqlı hörmətin rəhni olduğunu bəyan edir, islamofobiyaya qarşı mübarizə ilə yanaşı, ali dəyərlərin təbliğinin vacibliyini bildirir. Azərbaycan liderinin üzərində dayandığı üçüncü məqam bəzi ölkələrdə müsəlmanların hüquqlarının məhdudlaşdırılmasıdır. Bu kimi hallar islamofobiyanın artıq dövlət siyasəti səviyyəsinə yüksəldiyindən xəbər verir. Növbəti – dördüncü məqam kimi ölkəmizin liderinin söz azadlığı adı altında İslama qarşı təhqirlərin qəbuledilməzliyi ritorikasına əsaslanır. Prezident Əliyevin vurğuladığı budur: Dini nifrəti təşviq edən əməllər, heç bir halda, ifadə azadlığı kimi təqdim oluna bilməz. Beşinci məqam Azərbaycanın özünün də islamafobiyadan zərər görən ölkə olması ilə bağlıdır. Məlumdur ki, bəzi Qərb dairələri keçmiş Qarabağ münaqişəsinə münasibətdə dini qərəz nümayiş etdirib, ölkəmizin işğal altında qalmış ərazilərində məscidlərin və digər İslam irsi nümunələrinin dağıdılmasına göz yumublar. Yeri gəlmişkən, bu fikir həm Prezident İlham Əliyev, həm də dövlətimizin rəsmiləri tərəfindən müxtəlif beynəlxalq platformalarda dəfələrlə vurğulanıb. Onu da demək lazımdır ki, Ermənistanın bu vəhşiliyinə hələ də lazımi hüquqi qiymət verilməyib.

Altıncı məqam kimi islamofobiya ilə mübarizədə bir daha İslam həmrəyliyi amili üzərinə qayıtmaq istərdik. İslamofobiya özündə dini dözümsüzlüyü, ayrı-seçkiliyi və nifrət ideologiyasını daşıyan təmayülə malikdirsə, təkcə Azərbaycan deyil, bütövlükdə, müsəlman dünyası İslamın belə mənfi təqdimatlarına münasibətdə sipər yaratmalıdır. Sipər isə yalnız sözlə olmur. Mövcud istiqamətdə beynəlxalq təşkilatlarla, ayrı-ayrı dövlətlərlə iş aparılmalı, müsəlman dövlətlərinin vətəndaş cəmiyyəti strukturları prosesdə ciddi fəallıq nümayiş etdirməlidirlər.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Azərbaycanın İslam həmrəyliyinin güclənməsinə siyasi töhfələri

## *Bakıda növbəti beynəlxalq əməkdaşlıq sənədi qəbul edildi*

**İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Parlament İttifaqının Bakıda keçirilən 20-ci konfransı və qəbul edilən Bakı Bəyannaməsi qlobal arenada yeni güc balansının formalaşmasını nümayiş etdirir. Konfransda 40-dan çox ölkənin nümayəndə heyətinin, müxtəlif dövlət rəhbərlərinin və spikerlərin iştirakı platformanın yüksək siyasi çəkisini göstərir. Qəbul olunmuş sənəd İslam dünyasının qlobal çağırışlara qarşı ortaq siyasi mövqeyini bəyan edir.**




Bəyannamədə təsbit olunan prinsiplər beynəlxalq hüququn aliliyini əsas meyar kimi qəbul edir. Sənəddə İslam Əməkdaşlıq Təşkilatının nizamnaməsinə, həmçinin Parlament İttifaqının məqsədlərinə sadiqlik ifadə olunur. Eyni zamanda, BMT Nizamnaməsinin prinsiplərinə hörmət edilməsi və beynəlxalq hüququn normalarına əməl olunması öhdəliyi təsdiqlənir. Hüququn ümumi prinsiplərinin qorunması qlobal nizamın saxlanması baxımından əhəmiyyət daşıyır.

Müasir dövrdə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət edilməsi beynəlxalq sülhün təməli sayılır. Lakin bəzi böyük dövlətlərin hüquq normalarını selektiv şəkildə tətbiq etməsi qlobal sistemdə ciddi boşluqlar yaradır. Qərarların kağız üzərində qalması beynəlxalq təşkilatların etibarını sarsıdır və kiçik dövlətlərin təhlükəsizlik qayğılarını artırır. İslam dünyası hüququn vahid normalarına əsaslanan ədalətli nizamın qurulması üçün müştərək fəaliyyət göstərməlidir.

Azərbaycanın qlobal diplomatik məkanda artan nüfuzu və vasitəçilik potensialı Bakı konfransının gedişatında bir daha qeyd olundu. Cənubi Qafqazın lider dövləti kimi Azərbaycan uzun illərdir ki, fərqli sivilizasiyalar və siyasi qütblər arasında etibarlı diplomatik körpü rolunu oynayır. Qoşulmama Hərəkatına uğurlu sədrlik təcrübəsi ölkənin diplomatik resurslarının zənginliyini sübut etdi. Ölkəmizin beynəlxalq hüquqa söykənən prinsipial və müstəqil mövqeyi İslam dünyasının digər dövlətləri üçün də həmrəylik modelinə çevrildi.

Qlobal təhlükəsizlik mühitində kibertəhlükələr və rəqəmsal hücumlar dövlətlərin suverenliyinə təhdid yaradır. İnformasiya texnologiyalarının inkişafı münaqişələrin xarakterini dəyişdi və hibrid müharibə alətlərini ön plana çıxardı. İndi dövlətlər arasındakı qarşıdurmalar təkcə fiziki sərhədlərdə getmir, həm də virtual məkanda davam edir. Kritik infrastrukturun rəqəmsal hücumlara məruz qalması milli təhlükəsizlik sistemlərini ciddi sınağa çəkir. Bakı Bəyannaməsində kiberhücumların dövlət təhlükəsizliyinə mənfi təsirləri xüsusi vurğulandı və anılan təhdidlərlə mübarizədə kollektiv təhlükəsizlik yanaşmasının əhəmiyyəti önə çəkildi.

Rəqəmsal suverenliyin qorunması milli müstəqilliyin təmin edilməsi ilə birbaşa əlaqədardır. İslam ölkələrinin rəqəmsal sahədə asılılığını azaltmaq və milli kibermüdafiə sistemlərini gücləndirmək üçün texnoloji əməkdaşlıq fəallaşdırılmalıdır. Müştərək kibertəhlükəsizlik mərkəzlərinin yaradılması və informasiya mübadiləsinin genişləndirilməsi rəqəmsal təhdidlərə qarşı dayanıqlığı artıracaq.

İslam dünyasının qarşılaşdığı digər geosiyasi təhdid qlobal miqyasda artmaqda olan islamofobiya təzahürləridir. Qərb cəmiyyətlərində və digər regionlarda dini dözümsüzlük, nifrət nitqi və müsəlman icmalarına qarşı ayrı-seçkilik halları ciddi narahatlıq doğurur. İslamofobiya, sadəcə, sosial dözümsüzlüklə məhdudlaşmır, müəyyən siyasi dairələr tərəfindən idarə olunan geopolitik təzyiq vasitəsinə çevrilir.

Bakı Bəyannaməsi nifrət çağırışlarını, dinlərin təhqir edilməsini və etnik-dini mənsubiyyətə görə insanların damğalanmasını qətiyyətlə pisləyir. Din və ya etiqad zəmnində törədilən zorakılıq aktları beynəlxalq sülhə və dinc yanaşı yaşama prinsiplərinə ağır zərbə vurur. Sənəd beynəlxalq ictimaiyyəti nifrət nitqi və dini ayrı-seçkiliklə mübarizə aparmaq üçün təsirli hüquqi proseslər qurmağa çağırır. Dinlərin təhqir olunması ifadə azadlığı çərçivəsində qiymətləndirilə bilməz, çünki belə hərəkətlər mədəniyyətlərarası qarşıdurmanı alovlandırmaq məqsədi daşıyır.

Terrorizm qlobal təhlükəsizliyi təhdid edən ən ciddi problemlərdən sayılır. Bakı Bəyannaməsində terrorizmlə mübarizədə ikili standartların yolverilməzliyi xüsusi qeyd olunur. Sənəd bütün terror qruplaşmalarına qarşı fərq qoyulmadan mübarizə aparılmasının vacibliyini təsdiqləyir. Terror aktlarının dini və ya milli kimliklə əlaqələndirilməsi cəhdləri qəti şəkildə rədd edilir. İslam ölkələri terrorizmlə mübarizədə səylərini əlaqələndirməli, kəşfiyyat məlumatlarının mübadiləsini genişləndirməli və sosial-mədəni mübarizəni gücləndirməlidirlər.

Fələstin məsələsi İslam dünyasının əsas və mərkəzi mövzusu olaraq qalmaqdadır. Bakı konfransında iştirak edən nümayəndə heyətləri Fələstin xalqının qanuni hüquqlarına tam dəstək ifadə etdilər. Münaqişənin beynəlxalq hüquq çərçivəsində, iki dövlət prinsipi əsasında ədalətli həlli regionda davamlı sülhün yeganə şərtidir. Paytaxtı Şərqi Qüds olan müstəqil Fələstin dövlətinin qurulması ədalətin bərpası üçün zəruridir. Fələstin xalqının üzləşdiyi humanitar fəlakətin aradan qaldırılması məqsədilə beynəlxalq ictimaiyyətin təcili tədbirlər görməsi tələb olunur.

Kipr məsələsində ədalətli mövqeyin müdafiə edilməsi İslam həmrəyliyinin əsas sınaqlarından sayılır. Şimali Kipr Türk Cümhuriyyətində yaşayan müsəlmanların beynəlxalq aləmdən təcrid edilməsi, onların humanitar və siyasi hüquqlarının məhdudlaşdırılması qəbuledilməzdir. Bakı sessiyasında Kipr türk icmasının hüquqlarının qorunması ilə bağlı qəbul edilən qərarlar ədalətin təntənəsinə xidmət edir. Danışıqlar yolu ilə, qarşılıqlı hörmət əsasında əldə olunacaq ədalətli və uzunmüddətli həll yolu regional sabitliyə böyük töhfə verəcək.

Geopolitik mənzərənin digər mühüm detalı İran İslam Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında imzalanmış Anlaşma Memorandumunun dəstəklənməsidir. Bakı Bəyannaməsində qeyd olunan sənəd regional və beynəlxalq təhlükəsizlik baxımından yüksək qiymətləndirilir. Tərəflər arasındakı gərginliyin diplomatik yollarla azaldılması bütövlükdə Yaxın Şərq və qonşu regionlarda sabitliyin möhkəmlənməsinə şərait yaradacaq. Memorandumun müddəalarının tam şəkildə icrası hərbi münaqişə risklərini azaldır və dialoqun əhəmiyyətini artırır.

Bakı konfransı fərqli xarici siyasi mövqelərə malik dövlətlərin ortaq platformada görüşərək sülh naminə razılığa gəlmək potensialını nümayiş etdirdi. Həmin tədbir göstərdi ki, İslam ölkələri böhranlı vəziyyətlərdə vahid mövqedən çıxış etmək gücünə malikdirlər. Yalnız koordinasiya edilmiş siyasət qlobal güc mərkəzləri qarşısında İslam dünyasının maraqlarının qorunmasına imkan yaradacaq.

Bakı Bəyannaməsinin qəbul edilməsi İslam dünyasının qlobal arenada vahid mövqedən çıxış etmək əzmini nümayiş etdirən tarixi sənəddir. Qəbul olunmuş qərarlar və müəyyən edilən hədəflər regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın inkişafına əhəmiyyətli təsir göstərəcək. Parlament diplomatiyasının gücləndirilməsi İslam ölkələri arasındakı strateji dialoqu yeni səviyyəyə qaldırır. Dövlətlərin müstəqil siyasət yürütmək hüququnun qorunması həmin əməkdaşlığın əsas qayəsidir.

***Yusif ŞƏRİFZADƏ***
**XQ**

# Dekolonizasiya coğrafiya tanımır

*Sent-Martinli Çarlz Vudlinin Vaşinqtonda azərbaycanlı jurnalistə açıqlaması nədən xəbər verir?*

**Karib dənizindəki ada-dövlətin təmsilçisinin müstəmləkəçilik, ikili standartlar, öz müqəddəratını təyinetmə hüququnun məhdudlaşdırılması və beynəlxalq hüququn selektiv tətbiqi barədə dedikləri Azərbaycan tarixinin müxtəlif mərhələlərində yaşanmış proseslərlə diqqətçəkən oxşarlıqlar təşkil edir. Tarix göstərir ki, müstəmləkəçilik yalnız Afrika, Asiya və ya Karib adaları ilə məhdudlaşan hadisə olmayıb. Müasir beynəlxalq münasibətlərdə artıq qəbul olunur ki, imperiyalar fərqli formalarda fəaliyyət göstərsələr də, onların tətbiq etdikləri siyasi idarəetmə mexanizmləri və yerli xalqlara münasibətləri çox vaxt oxşar xarakter daşıyıb.**



Sent-Martin adasının bugünkü siyasi-coğrafi statusu Avropa müstəmləkəçiliyinin ən uzunömürlü miraslarından biri hesab olunur. 1648-ci ildə Fransa və Niderland arasında imzalanmış Konkordiya müqaviləsi ilə ada iki hissəyə bölündü və bu bölgü üç əsrdən artıq müddətdə dəyişmədən qaldı. Diqqətçəkən məqam ondan ibarətdir ki, adanın gələcək aqibətini müəyyənləşdirən bu qərar yerli əhalinin iradəsi nəzərə alınmadan qəbul edilmişdi. Başqa sözlə, Sent-Martin sakinləri öz torpaqlarının obyekti olmuşdular. Müstəmləkəçilik tarixinin ən xarakterik cəhəti də məhz bundan ibarət idi: xalqların taleyi uzaq paytaxtlarda, onların iştirakı olmadan həll edilirdi.

Bu tarixi təcrübə Azərbaycan üçün də yad deyil. XIX əsrin əvvəllərində Cənubi Qafqaz uğrunda geosiyasi rəqabət aparan Rusiya və Qacar imperiyaları regionun gələcəyini yerli xalqların iradəsindən kənarda müəyyən etdilər. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri nəticəsində Azərbaycanın tarixi torpaqları iki imperiya arasında bölündü. Əslində, bu sənədlər iki dövlət arasında sülh müqaviləsi olmaqla yanaşı, bütöv bir xalqın taleyinin yenidən yazılması demək idi. Araz çayı siyasi sərhədə çevrildi, əsrlər boyu vahid mədəni, iqtisadi və etnik məkanın tərkib hissəsi olan Azərbaycan torpaqları süni şəkildə parçalandı.

Bu gün də həmin müqavilələrin nəticələri öz təsirini saxlayır. Dünyanın müxtəlif bölgələrində sərhədlər dəyişsə də, Arazın hər iki sahilində yaşayan milyonlarla azərbaycanlının tarixi yaddaşında XIX əsrdə baş vermiş bu bölünmə mühüm yer tutur. Məhz bu baxımdan Gülüstan və Türkmənçay müqavilələri imperiya siyasətinin xalqların taleyinə necə müdaxilə etdiyini göstərən tarixi nümunələrdir. Müasir beynəlxalq hüququn prizmasından yanaşdıqda belə bölgülərin legitimliyi ciddi suallar doğurur. Çünki bu gün BMT Nizamnaməsinin əsas prinsiplərindən biri hesab olunan xalqların öz müqəddəratını təyinetmə hüququ həmin dövrdə ümumiyyətlə nəzərə alınmırdı. XIX əsrin beynəlxalq sistemi gücün üstünlüyünə əsaslanırdı. Böyük dövlətlər sərhədləri xəritə üzərində çəkir, xalqlar isə həmin qərarların nəticələri ilə yaşamağa məcbur qalırdılar. Sent-Martin adasının və Azərbaycanın tarixindəki paralellər məhz bu reallığı əks etdirir: fərqli coğrafiyalar, fərqli dövrlər, lakin eyni imperiya məntiqi.

* * *

Müstəmləkəçilikdən bəhs edilərkən, adətən, Afrika, Asiya və ya Karib hövzəsindəki Avropa koloniyaları yada düşür. Lakin müasir postkolonial araşdırmalar göstərir ki, imperiya siyasətinin coğrafiyası bundan qat-qat geniş olub. Son illər beynəlxalq akademik dairələrdə Rusiyanın Cənubi Qafqaz, Mərkəzi Asiya və Şimali Qafqazda həyata keçirdiyi siyasət kolonial idarəetmə modeli kimi qiymətləndirilir.

Azərbaycanın XIX əsrdən sonrakı tarixi bu kontekstdə xüsusi diqqət çəkir. Çar Rusiyası regionu işğal etdikdən sonra əsas məqsəd yerli idarəetmə institutlarının sıradan çıxarılması, siyasi qərarvermə mexanizmlərinin imperiya mərkəzinə bağlanması və cəmiyyətin sosial strukturunun yenidən formalaşdırılması prosesi başladı. Xanlıqlar sistemi ləğv edildi, yerli siyasi elitaların təsir imkanları məhdudlaşdırıldı və region imperiyanın inzibati sisteminə inteqrasiya olundu.

Sovet hakimiyyəti qurulduqdan sonra da asılılıq münasibətlərinin mahiyyəti tam aradan qalxmadı. SSRİ özünü formal olaraq bərabərhüquqlu respublikalar birliyi kimi təqdim etsə də, siyasi qərarların qəbul edildiyi mərkəz Moskva idi. Xarici siyasət, təhlükəsizlik, hərbi strategiya, iqtisadi planlaşdırma və hətta bir çox hallarda milli inkişaf prioritetləri mərkəzi hakimiyyətin müəyyən etdiyi çərçivədə formalaşırdı.

* * *

Çarlz Vudlinin çıxışında diqqətçəkən məqamlardan biri BMT sənədlərində təsbit olunmuş hüquqlarla real siyasi praktika arasındakı fərq idi. BMT Nizamnaməsi və 1960-cı ildə qəbul edilmiş "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında Bəyannamə" xalqların öz müqəddəratını təyinetmə hüququnu beynəlxalq hüququn təməl prinsipi kimi tanıyır. Lakin praktika göstərir ki, bu prinsip müxtəlif regionlarda fərqli şəkildə tətbiq olunur. Azərbaycan da bu selektiv yanaşmanın nəticələrini uzun illər yaşayıb. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğal siyasəti dövründə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə icra olunmadı. Beynəlxalq hüququn açıq şəkildə pozulmasına baxmayaraq, effektiv mexanizmlər işə düşmədi.

2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi regionda yeni geosiyasi reallıq formalaşdırdı. Azərbaycan beynəlxalq hüququn tanıdığı sərhədlər daxilində öz ərazi bütövlüyünün böyük hissəsini bərpa etdi. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə ölkənin bütün ərazisində konstitusiya quruluşu və dövlət suverenliyi tam təmin olundu. Bununla Azərbaycan faktiki olaraq BMT qətnamələrinin onilliklər ərzində icra olunmayan müddəalarını özü reallaşdırmış oldu. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, Azərbaycan beynəlxalq hüququn selektiv tətbiqindən əziyyət çəkən ölkələrdən biri olub və məhz buna görə beynəlxalq münasibətlər sistemində ədalət prinsipinin gücləndirilməsinin tərəfdarıdır. Dövlət başçısının fikrincə, beynəlxalq hüquq bütün dövlətlərə eyni şəkildə tətbiq edilmədikdə onun legitimliyi və təsir gücü zəifləyir. Eyni narazılıq bu gün Karib hövzəsindəki bəzi ərazilərdə də müşahidə olunur. Onlar hesab edirlər ki, beynəlxalq hüququn prinsipləri kağız üzərində hamı üçün eyni olsa da, siyasi reallıqda onların tətbiqi böyük güclərin maraqlarından asılı olaraq dəyişir.

* * *

Son illər Azərbaycanın dekolonizasiya məsələlərində daha fəal mövqe tutmasının arxasında tarixi təcrübə və kollektiv yaddaş amili dayanır. Azərbaycan XX əsrdə iki dəfə dövlət müstəqilliyini itirib və iki dəfə onu bərpa edib. 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı və bolşevik işğalı nəticəsində süqut etdi. 1991-ci ildə isə SSRİ-nin dağılması ilə müstəqillik yenidən bərpa olundu. Bu səbəbdən suverenlik, özünüidarə və milli iradə anlayışları Azərbaycan siyasi düşüncəsində xüsusi yer tutur.

Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə də məhz bu kontekstdə baxmaq lazımdır. Azərbaycan özünü kolonial keçmiş yaşa-



mış xalqların hüquqlarının müdafiəsində söz sahibi olan aktor kimi təqdim etməyə çalışır. Karib dənizindəki kiçik bir ada ilə Cənubi Qafqazın ən böyük dövləti arasında görünəndən daha çox oxşarlıq mövcuddur. Coğrafiyalar fərqlidir, tarixlər fərqlidir, lakin xalqların siyasi taleyində imperiya sərhədləri, xarici idarəçilik, bölünmə və azadlıq uğrunda mübarizə kimi ortaq mövzular hələ də yaşayır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

**Avropa Komissiyasının (AK) Prezidenti Ursula fon der Lyayenin iyulun 1-də Ermənistana səfər etməsi planlaşdırılır. Bu barədə "Politico" nəşri üç mənbəyə istinadən xəbər yayıb. Nəşr bildirir ki, səfərin məqsədi iyunun 7-də keçirilmiş parlament seçkilərində avropayönlü partiyası qalib gələn Ermənistanın Baş naziri Nikol Paşinyana dəstək nümayiş etdirməkdir.**

# Lyayenin Paşinyana dəstək səfəri

"Səfər Paşinyanın bir çox müşahidəçinin ölkənin geosiyasi gələcəyi ilə bağlı referendum kimi qiymətləndirdiyi parlament seçkilərindən sonra Ermənistanın Moskvadan uzaqlaşması yolunu möhkəmləndirməyə və Avropa İttifaqı ilə əlaqələrini daha da gücləndirməyə çalışdığı bir dövrə təsadüf edir", – "Politico" yazır.

Səfərin hazırlıqlarında iştirak edən Aİ rəsmisi bildirib ki, Ermənistan Rusiyanın intensiv və ardıcıl təzyiqləri ilə üzləşib: "Biz Ermənistanın Rusiyanın güclü və davamlı təzyiqlərinə məruz qaldığının şahidi olduq. Bu səfər güclü bir dəstək siqnalı olacaq". Onun sözlərinə görə, səfər Ermənistan üçün aydın mesaj daşıyacaq: "Avropa sizin yanınızdadır".

Qeyd edək ki, Ursula fon der Lyayen mayın əvvəlində ilk Ermənistan–Avropa İttifaqı sammitində və Avropa Siyasi Birliyinin VIII sammitində iştirak etmək üçün İrəvana səfər etmişdi. Lyayen həmin vaxt İrəvanın xarici siyasi kursu ilə bağlı diqqətçəkən mesajlar vermişdi. AK rəhbəri çıxışlarında Ermənistanın son illərdə həyata keçirdiyi siyasi və institusional islahatları yüksək qiymətləndirmiş, Aİ-nin bu proseslərə dəstəyini davam etdirəcəyini bildirmişdi. Onun ən çox diqqətçəkən bəyanatlarından biri Ermənistanın Avropa ilə yaxınlaşmaq istiqamətində atdığı addımlara verilən siyasi dəstək idi. Lyayen açıq şəkildə vurğulamışdı ki, Aİ Ermənistanı öz tərəfdaşı hesab edir və ölkənin demokratik inkişaf yolunu dəstəkləyir.

İrəvandakı sammit çərçivəsində AK Ermənistana yeni maliyyə və iqtisadi dəstək paketlərinin ayrılacağını da açıqlamışdı. Bu, təkcə iqtisadi əməkdaşlıq məsələsi deyildi. Brüsselin mesajı ondan ibarət idi ki, Ermənistan Avropa ilə inteqrasiyanı dərinləşdirmək istədiyi təqdirdə siyasi və iqtisadi baxımdan tək qalmayacaq. Məhz buna görə də Lyayenin çıxışlarında "dayanıqlılıq", "demokratik institutlar", "islahatlar" və "tərəfdaşlıq" anlayışları xüsusi yer tuturdu.

"Avropa Siyasi Birliyi"nin sammitində də Ermənistan mövzusu diqqətdən kənarda qalmadı. Lyayen burada da Ermənistanın regionda sabitlik və əməkdaşlıq təşəbbüslərində iştirakının vacibliyini vurğuladı. O, Avropanın Cənubi Qafqazda uzunmüddətli sülh və kommunikasiyaların açılması istiqamətində atılan addımları dəstəklədiyini bildirdi. Ermənistanın Avropa strukturları ilə əlaqələrinin genişlənməsi də bu kontekstdə təqdim olunurdu. Xüsusilə diqqətçəkən məqam ondan ibarət idi ki, Lyayen Ermənistanın Avropa ilə yaxınlaşmasını yalnız iqtisadi və ya texniki əməkdaşlıq kimi deyil, həm də strateji seçim kimi təqdim edirdi. Sonradan Paşinyana ünvanladığı məktubda işlədilən "2018-ci il məxməri inqilabının ruhu yaşayır" ifadəsi də həmin yanaşmanın davamı hesab olunur. Bu bəyanat Brüsselin Ermənistanın son illərdə formalaşdırdığı siyasi kursa verdiyi dəstəyin açıq nümayişi kimi qiymətləndirildi.

Ermənistan–Avropa İttifaqı sammitindən və ASB-nin Zirvə toplantısından sonra İrəvan–Moskva münasibətlərində



gərginliyin daha da artdığı müşahidə olundu. Xüsusilə parlament seçkiləri ərəfəsində Rusiyadan səsləndirilən bəyanatlar, media kampaniyaları və siyasi mesajlar Ermənistan hakimiyyətinin diqqətlə izlədiyi əsas amillərdən birinə çevrildi. Təzyiqlər yalnız siyasi bəyanatlarla məhdudlaşmadı. Rusiya mediasında Paşinyan hakimiyyətini və onun xarici siyasət kursunu tənqid edən materialların sayı artdı. Eyni zamanda, Ermənistanın Avropa seçiminin ölkə iqtisadiyyatı və təhlükəsizliyi üçün risklər yarada biləcəyi barədə fikirlər fəal şəkildə tirajlanırdı. Rusiya seçkilərdən az sonra – iyunun 12-dən etibarən mənşəyi və göndərilmə yeri Ermənistan olan bütün karantin nəzarətindəki məhsulların ölkəyə idxalını, eləcə də onların Rusiya ərazisindən keçməklə Avrasiya İqtisadi İttifaqına üzv dövlətlərə tranzitini məhdudlaşdırdı. "Rosselxoznadzor"un tətbiq etdiyi məhdudiyyətlər xüsusilə "Cermuk" mineral suyu, alkoqollu içkilər, tərəvəz, meyvə, göyərti və digər məhsulları əhatə edir.

Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan buna cavab olaraq ölkənin Aİ və Yaxın Şərq ölkələrinə ixracının dəstəklənməsi üzrə proqramların hazırlandığını açıqlayıb. Onun sözlərinə görə, nəzərdə tutulan tədbirlər sırasında nəqliyyat xərclərinin, gömrük rüsumlarının, bəzi hallarda isə əqli mülkiyyətlə bağlı xərclərin kompensasiyası da yer alır. Papoyan bildirib ki, Ermənistanın Aİ-yə ixracı artıq 2 dəfə artıb. Bununla belə, hökumət bu istiqamətin daha fəal inkişaf etdirilməsini planlaşdırır və ilin sonunadək Aİ-yə ixracın 4-5 dəfə artırılmasını hədəfləyir.

AK isə Rusiyanın tətbiq etdiyi ticarət məhdudiyyətlərinin Ermənistanın özəl sektoruna təsirlərini yumşaltmaq məqsədilə bir neçə gün öncə ölkəyə 34 milyon avro ayırıb. Aİ-nin Ermənistandakı nümayəndəliyinin saytında yerləşdirilən məlumatda maliyyə yardımının Ursula fon der Lyayenin daha əvvəl elan etdiyi geniş dəstək paketinin ilk tranşı olduğu bildirilib. Paket həmçinin ticarətin təşviqi və Ermənistan iqtisadiyyatının dayanıqlılığının gücləndirilməsi istiqamətində tədbirləri nəzərdə tutur. Aİ bildirib ki, əlavə dəstək Rusiyanın ticarət məhdudiyyətlərindən zərər çəkmiş sahələrə, o cümlədən aqrar-ərzaq sektoru, gülçülük və ixracyönümlü digər sahələrə yönəldiləcək. Aİ-nin genişlənmə məsələləri üzrə komissarı Marta Kos qeyd edib ki, bu dəstək Ermənistanın mövcud iqtisadi çətinliklərin öhdəsindən gəlməsinə kömək edəcək və erməni biznesi üçün regional və Avropa bazarlarında yeni imkanlar açacaq. O da bildirilib ki, M.Kos iyulun 5-də Ermənistana səfər edərək dəstək paketinin icrası və Ermənistan–Aİ əməkdaşlığının daha da gücləndirilməsi istiqamətində növbəti addımları müzakirə edəcək.

Yeri gəlmişkən, Rusiya xarici işlər naziri Sergey Lavrovun iyunun 23-də Lyayenin Nikol Paşinyana ünvanladığı məktubu şərh etməsi də diqqəti cəlb edir. TASS-ın məlumatına görə, Ukrayna ətrafında yaranmış vəziyyətlə bağlı səfirlərin dəyirmi masasındakı çıxışı zamanı Lavrov deyib: "Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenin Baş nazir Paşinyana göndərdiyi müraciətə diqqət çəkmək istərdim. Sitat gətirirəm: "Sizin rəhbərlik etdiyiniz 2018-ci il məxməri inqilabının ruhu yaşayır və güclüdür. İrəvan Avropaya arxalana bilər". Başqa sözlə, avropalılar artıq hakimiyyət dəyişikliyinə yalnız gizli üsullarla nail olmağa çalışmırlar, həm də rəngli, məxməri və digər inqilablar həyata keçirdikləri ilə fəxr edirlər".

Bütün bunları ümumiləşdirdikdə belə qənaətə gəlmək olar ki, Lyayenin İrəvana planlaşdırılan növbəti səfəri sadəcə diplomatik protokol çərçivəsində həyata keçirilən adi bir ziyarət deyil. Bu səfər son aylarda Ermənistan–Aİ münasibətlərində müşahidə olunan sürətli yaxınlaşmanın və Brüsselin Paşinyan hakimiyyətinə verdiyi siyasi dəstəyin növbəti nümayişidir. Diqqətçəkən məqam ondan ibarətdir ki, səfər həm parlament seçkilərindən sonraya, həm də Ermənistanın Rusiya ilə münasibətlərində gərginliyin artdığı bir vaxta təsadüf edir.

Səfərin iqtisadi tərəfi də az əhəmiyyət daşımır. Rusiyanın Ermənistan məhsullarına tətbiq etdiyi məhdudiyyətlərdən sonra Aİ-nin 34 milyon avroluq yardım ayırması, eləcə də yeni dəstək mexanizmlərinin hazırlanması Brüsselin İrəvanın iqtisadi asılılıqlarını azaltmaq niyyətindən xəbər verir. Başqa sözlə, Aİ Ermənistanın yalnız siyasi tərəfdaşı deyil, həm də iqtisadi dayaqlarından birinə çevrilmək istəyir.

Lyayenin səfəri eyni zamanda geosiyasi məna daşıyır. Son illər Cənubi Qafqaz uğrunda nüfuz rəqabəti daha açıq xarakter alıb. Aİ Ermənistanla əməkdaşlığı dərinləşdirməklə bölgədə mövqelərini gücləndirməyə çalışır. Məhz buna görə də "Avropa sizin yanınızdadır" mesajı təkcə Ermənistana deyil, həm də Rusiyaya ünvanlanmış siyasi siqnal kimi qəbul edilir.



***Səxavət HƏMİD***
***XQ***

# İnsan Hüquqları üzrə Avropa Məhkəməsi İŞİD-ə də istinad edərdimi?

*Qurumun Azərbaycanla bağlı ədalətsiz qərarına növbəti sözardı*

**Ermənistanda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin “V.T. və digərləri Azərbaycana qarşı” işi üzrə 18 iyun 2026-cı il tarixli ədalətsiz qərarı ətrafında müzakirələr getməkdədir. Əlbəttə, mövzunu qabardan, əsasən, ölkənin müxalif kəsimidir. O kəsim ki, Ermənistanda keçirilmiş 7 iyun seçkiləri nəticəsində parlamentdə əhəmiyyətli mandat yeri qazandı. O kəsim ki, revanşist və şovinist əhvali-ruhiyyədədir və Qarabağ avantürasına sadiqliyini göstərməkdədir.**




Əlbəttə, bu yazı heç də Ermənistanın sərsəm düşərgəsinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı fonunda qaldırdığı ajiotaja cavab mahiyyəti daşımır və daşıya da bilməz. Necə deyərlər, it hürər, karvan keçər. Sözügedən məhkəmə qərarı üzərinə yenidən gəlməyimizi zəruriləşdirən bir sıra məqamlar var. Yazımız məhz həmin məqamlar barədədir.

Məlum olduğu kimi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi məlum qərarını verərkən, artıq canını tapşırmış separatçı “Dağlıq Qarabağ respublikası”nın oyuncaq qurumlarına istinad edib. Bir anlıq qurumun terrorçu İŞİD-ə istinadən hansısa qərar çıxardığına dair durumu təsəvvürə gətirək. Belə bir hal mümkündürmü? Qətiyyən yox. Elə isə nəyə görə Azərbaycanla bağlı qərarda onun tərkibindəki keçmiş muxtar vilayətin ərazisində məskunlaşmış separatçı və terrorçuların yaratdıqları oyuncaq strukturların məlumatları əsas götürülür?

Burada “insan hüquqları ən ali dəyərdir” kimi əsaslandırmalar tam mənasızdır. Çünki tarixin zibilliyindəki “DQR”, mahiyyətcə, Azərbaycan torpaqlarının işğalı üzərində qurulmuş rejim idi. İşğal isə həm də insan hüquq və azadlıqlarının ən böyük pozuntu aktıdır. İnsan hüquq və azadlıqlarının pozulması xüsusundakı digər təmayüllər işğal faktının yanında heç nədir. Çünki insan öz torpağında, yaşadığı yurd yerində təcavüzlə üzləşibsə, onun elementar hüquqlarından söz açmağa dəyməz.

İŞİD-dən danışırdıq axı, onunla “DQR” arasında hansısa fərq yoxdur. Heç kəs bizi bunun əksinə inandıra bilməz. İŞİD də insanları hüquq və azadlıqlardan məhrum edirdi, Qarabağdakı keçmiş separatçı rejim də. Özü də söhbət təkcə dinc azərbaycanlıların öz torpaqlarından qovulmalarından getmir. Qarabağın erməni əhalisinə verilən zülmlərdən, onların aclıq və səfalət içərisində yaşamalarından danışırıq. Belə bir xunta rejiminə istinad varsa, deməli, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi son dərəcə mənfi presedent yaradır.

Heç şübhəsiz, məhkəmənin qərarı siyasi mahiyyət daşıyır. Yəni ali hesab edilən hüquq instansiyasının qərarında “DQR”ə istinad varsa, həmin istinadın nə üçün baş verməsindən asılı olmayaraq, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətsiz yanaşılır. Mənfi presendenti yaradan məhz bu hörmətsizlikdir. Hörmətsizlik isə öz növbəsində ərazi bütövlüyünü və suverenliyini şübhələndirmək üçün əsasdır. Ermənistandakı revanşist kəsim də məsələyə məhz bu prizmadan yanaşır, bir növ, tutacaq yer tapıbmış kimi davranır. Təxminən belə: “DQR”ə istinad varsa, deməli, onun mövcudluğu da qəbul edilir.

Sonda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin “V.T. və digərləri Azərbaycana qarşı” işi üzrə 18 iyun 2026-cı il tarixli qərarının ədalətsizliyini vurğulayan bir məqamın üzərində də dayanaq. Məlum olduğu kimi, məhkəmə sözügedən qərarı ilə 2016-cı ilin “Aprel müharibəsi” zamanı həyatını itirmiş Ermənistan ordusunun mayoru Hayk Toroyanın ölümü ilə bağlı valideynlərinin və bacısının iddiasını təmin edib. Deməli, bir erməni Azərbaycan ərazisindədir, bu əraziyə qeyri-qanuni daxil olub, üstəlik, onun üzərində silah var və bu şəxs öldürülür. AİHK isə qərar çıxarır ki, günahkar onu öldürənlərdir. Yəni məhkəmə indiki halda, məsuliyyətli tərəf kimi Azərbaycan dövlətini müəyyənləşdirir. Ən böyük ədalətsizlik də bundadır.

Bəli, insan kimi H.Toroyanın valideynlərinin və bacısının emosiyasını başa düşmək mümkündür. Onların əzizlərinin öldürülməsi ilə bağlı iddia qaldırmaq hüquqlarını da həmçinin. Üstəlik, bu şəxslərin nə isə tələb etmək haqlarının mövcudluğu anlaşılandır. Anlaşılmayan Azərbaycan dövlətinin məsuliyyət daşıyan tərəfə çevrilməsidir. Əgər İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ədalətli davransaydı, bu iş üzrə məsuliyyət daşımalı olan tərəf qismində yalnız Ermənistan Respublikası müəyyənləşməli idi. Çünki mayor rütbəsi daşıyan H.Toroyanı başqa dövlətin beynəlxalq hüquqla tanınmış ərazilərinə göndərən Ermənistan, daha dəqiq desək, ölkənin hərbi rəhbərliyi olub. Hər halda, erməni zabiti 2016-cı ildəki qoşunların təmas xəttinə qədər özbaşına gedib çıxmamış, müvafiq əmri yerinə yetirmişdi.

Ən sonda yenidən Ermənistandakı revanşist və şovinistlərin üzərinə qayıdaq. Məlum olduğu kimi, ölkə iqtidarı hazırda onlara qarşı mübarizə aparmaqdadır. Mübarizə həm də ona görə aparılır ki, bu kəsim erməni cəmiyyətini özünün miskin avantürist baxışları ilə zəhərləməkdə davam etməsin. Mövcud istiqamətdə, ümumən, hay ictimaiyyətinin ona illərlə danışılan nağıllardan, miflərdən və əsatirlərdən qurtulmasına yönələn nəzərəçarpacaq irəliləyişlər də var. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin çıxardığı qərar isə keçmişin separatizm səhifəsini, işğal gündəliyini yenidən açır və bu, bütövlükdə erməni toplumunun barəsində söz açdığımız zəhərlənmədən qurtulmasına, əsl reallığı dərk etməsinə maneçilik törədir, yekun durum Cənubi Qafqazda sülhə və barışa xələl gətirir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

*Köşə*

# Möhkəm təməl üzərində əməkdaşlıq

*Türkmənistan Prezidentinin Azərbaycana dövlət səfəri ölkələrimizin strateji tərəfdaşlığına töhfədir*



***Yeganə HACIYEVA,***
***Mətbuat Şurası***
***İdarə Heyətinin üzvü***

Əvvəlcə onu qeyd edək ki, Azərbaycan və Türkmənistan münasibətlərinin inkişafı yalnız ikitərəfli və regional çərçivə ilə məhdudlaşmır. Eyni zamanda, daha geniş geosiyasi və geoiqtisadi məkanlara təsir göstərən geniş və strateji bir strategiya kimi çıxış edir. İki qardaş və dost xalqlar arasındakı bu yaxınlaşma Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, qitənin enerji təchizatı mənbələrinin və marşrutlarının şaxələndirilməsi baxımından yeni imkanlar yaradır. Belə geniş və strateji vacib münasibətlərin əsas sütunlarını, əlbəttə ki, etnik, dini və tarixi yaxınlıqdan doğan ortaq mədəniyyət, enerji əməkdaşlığı, loqistika layihələri, təhlükəsizlik maraqları və Türk dünyasının inteqrasiyası təşkil edir.

Mövcud geosiyasi şəraitdə Azərbaycan və Türkmənistan münasibətlərinin güclənməsi yalnız iki dövlətin deyil, bütövlükdə Xəzər regionunun, Türk dünyasının və Avrasiya məkanının gələcək siyasi-iqtisadi inkişafına təsir göstərə biləcək strateji prosesdir. Çünki bu əməkdaşlıq XXI əsrdə Xəzərdən başlayan və Avropaya, Yaxın Şərqə, Cənubi Qafqaza və Mərkəzi Asiyaya uzanan yeni geoiqtisadi körpünün formalaşmasına xidmət edir.

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfərinin regional əhəmiyyətindən danışırıqsa onu deməliyik ki, bu çoxşaxəli əhəmiyyət daşıyan və Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə xidmət edən səfərdir. Səfər ilk növbədə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə siyasi, iqtisadi və nəqliyyat əlaqələrinin daha da dərinləşməsinə təkan verir, regionlararası inteqrasiyanı sürətləndirir. Bununla yanaşı, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Orta Dəhliz çərçivəsində əməkdaşlığın genişlənməsi Çinlə Avropa arasında yükdaşımaların səmərəliliyini artıraraq bu marşrutun rəqabət qabiliyyətini gücləndirir. Eyni zamanda, Azərbaycan və Türkmənistan arasında strateji yaxınlaşma türk dövlətləri arasında siyasi koordinasiyanın və iqtisadi əməkdaşlığın möhkəmlənməsinə töhfə verərək Türk dünyasının geosiyasi çəkisini artırır.

Bütün bunlarla yanaşı, tərəflər arasında nəqliyyat, logistika, enerji və ticarət sahələrində əməkdaşlığın genişlənməsi Xəzər hövzəsinin Avrasiyanın əsas iqtisadi və logistika mərkəzlərindən birinə çevrilməsi potensialını gücləndirir və regionun beynəlxalq əhəmiyyətini daha da artırır.

Xüsusi qeyd etmək istərdik ki, Cənub və Şimal dəhlizlərinin geosiyasi və geoiqtisadi cazibədarlığını itirdiyi təlatümlü zamanlarda Xəzər dənizi üzərindən keçən Transxəzər və Orta Dəhliz marşrutlarının inkişafı Asiya ilə Avropa arasında yükdaşımaların həcmini artıraraq alternativ nəqliyyat-kommunikasiya xətlərinin əhəmiyyətini yüksəldir. Azərbaycan və Türkmənistan arasında strateji əməkdaşlığın güclənməsi Avrasiyada iqtisadi inteqrasiya proseslərinə əlavə dinamika qazandıraraq, Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropa arasında qarşılıqlı əlaqələri dərinləşdirir.

İki ölkə arasında münasibətlərin inkşaf tempi Türk dünyasının beynəlxalq münasibətlər sistemindəki rolunun və təsir imkanlarını artmasına xidmət edir. Azərbaycan və Türkmənistan münasibətləri və qarşılıqlı əməkdaşlığının güclənməsi həm də qlobal enerji, nəqliyyat və ticarət xəritəsində Xəzər hövzəsinin strateji əhəmiyyətini daha da artıraraq regionu Avrasiyanın əsas geoiqtisadi qovşaqlarından birinə çevirmək potensialına malikdir.

Azərbaycan və Türkmənistan arasında münasibətlərin mühüm istiqamətlərindən biri də ölkələrimiz arasında humanitar və mədəni əməkdaşlıqdır. İki xalqı bir-birinə yaxınlaşdıran amillər yalnız siyasi və iqtisadi maraqlarla məhdudlaşmır. Ortaq türk kökləri, dil, ədəbiyyat, mədəniyyət və tarixi yaddaş əlaqələrin möhkəm mənəvi təməlini formalaşdırıb. Türkmənistan Prezidentinin Azərbaycana dövlət səfəri çərçivəsində elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, tələbə və akademik mübadilə proqramlarının artırılması, ortaq mədəni tədbirlərin və mədəniyyət günlərinin təşkili, ümumtürk tarixi-mədəni irsinin birgə təbliği, eləcə də media və informasiya məkanında əməkdaşlığın gücləndirilməsi kimi istiqamətlər xüsusi əhəmiyyət kəsb edir.

Bu proseslər xalqlar arasında qarşılıqlı etimadı və mənəvi yaxınlığı daha da möhkəmləndirməklə yanaşı, Türk dünyasında inteqrasiyanın sosial-humanitar əsaslarının güclənməsinə və ortaq kimlik şüurunun dərinləşməsinə mühüm töhfə verəcək.

# Rusiyada Ermənistana etimad böhranı

*Moskva İrəvanı strateji seçim qarşısında qoymağa çalışır*

**Rusiya–Ermənistan münasibətlərində siyasi ritorika sərtləşib. Bu, regionda güc balansının dəyişdiyini və geosiyasi rəqabətin artdığını göstərir. Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedevin Ermənistanı NATO və Qərblə əməkdaşlıqda ittiham etməsi bu gərginliyin nəticəsidir. Onun çıxışında Ermənistanın Gürcüstan, Ukrayna və Moldova ilə eyni kontekstdə göstərilməsi və Qərbin postsovet məkanında təsir vasitəsi kimi təqdim olunması Moskvanın regiona daha sərt yanaşdığını ortaya qoyur.**



Medvedevin iddiasına görə, NATO Ermənistan hakimiyyətini Rusiyaya qarşı geosiyasi təzyiq aləti kimi istifadə edir. O, bu prosesi təkcə Ermənistanla məhdudlaşdırmır, onu postsovet məkanında daha geniş strategiyanın bir hissəsi kimi təqdim edir. Onun fikrincə, NATO formal olaraq əməkdaşlıq və təhlükəsizlik kimi prinsiplərdən danışsa da, əsas məqsəd Rusiyanın sərhədlərinə yaxınlaşmaq və onun bölgədə təsirini azaltmaqdır. Bu strategiya çərçivəsində NATO ayrı-ayrı ölkələrdə “müstəqil siyasi qərar verirmiş kimi görünən, amma əslində Qərbin maraqlarına uyğun hərəkət edən” hökumətlərlə əməkdaşlıq edir. Medvedev bu ölkələri “marionet rejimlər” adlandırır.

Bu yanaşma Moskvanın postsovet məkanında baş verən dəyişikliklərə, əsasən, təhlükəsizlik prizmasından baxdığını göstərir. Rusiya siyasi elitasının fikrincə, Qərbin regiondakı fəaliyyəti təkcə diplomatik və iqtisadi əməkdaşlıq deyil, həm də Moskvanın təsir zonasını azaltmağa yönəlmiş siyasətdir. Bu baxış, eyni zamanda, Ermənistan kimi ölkələrin daxili siyasi qərarlarını xarici təsirlərlə izah edir və onların suveren seçimlərini böyük güclər arasında geosiyasi qarşıdurmanın bir hissəsi sayır. Kreml üçün Ermənistanın xarici siyasət kursu artıq yalnız ikitərəfli münasibətlər çərçivəsində qiymətləndirilmir. İrəvanın hər bir addımı daha geniş regional və qlobal geosiyasi balansın tərkib hissəsi kimi qəbul olunur. Onun Ukrayna yolu ilə getdiyini bildirir.

Şübhəsiz, son illər Rusiya üçün postsovet məkanı, xüsusilə Cənubi Qafqaz klassik təsir zonası modelindən çıxaraq rəqabətli və çoxqütblü geosiyasi məkana çevrilib. Bu çərçivədə Ermənistanın Avropa İttifaqı ilə əməkdaşlığı genişləndirməsi, Qərb institutları ilə yaxınlaşması və alternativ təhlükəsizlik və iqtisadi tərəfdaşlıqlar axtarması Moskva tərəfindən diplomatik diversifikasiya deyil, strateji istiqamət dəyişikliyi kimi qəbul edilir. Əslində, Ermənistanın daxili siyasi qərarları və xarici siyasət seçimi Rusiya tərəfindən daha geniş təhlükəsizlik müstəvisinə daşınır. İrəvanın inteqrasiya cəhdləri regional güc balansına təsir edən amil kimi qəbul olunur və bu, Moskvanın reaksiyasını sərtləşdirir. Yəni Rusiya–Ermənistan münasibətləri tədricən klassik müttəfiqlik modelindən uzaqlaşaraq daha mürəkkəb və ziddiyyətli mərhələyə daxil olur. Bu mərhələdə ənənəvi strateji tərəfdaşlıq elementləri qalmaqla yanaşı, geosiyasi rəqabət, etimad böhranı və İrəvanı seçim qarşısında qoymaq cəhdləri müşahidə olunur. Bir tərəfdən Ermənistan hələ də təhlükəsizlik, enerji və iqtisadi sahələrdə Rusiyadan ciddi asılılığını qoruyur. Digər tərəfdən isə Aİ ilə əməkdaşlığın genişləndirilməsi və institusional islahatlar vasitəsilə Qərbə yaxınlaşma cəhdləri Moskva tərəfindən təsir zonasından uzaqlaşma siqnalı kimi qəbul edilir. Bu vəziyyət münasibətləri sadə “müttəfiqlik” və ya “qarşıdurma” çərçivəsinə salmağa imkan vermir. Əksinə, tərəflər bir-birindən qarşılıqlı asılılıq şəraitində qalmaqla yanaşı, strateji baxımdan fərqli istiqamətlərə yönəlmiş siyasət yürüdürlər. Formalaşan model həm əməkdaşlıq, həm də təzyiq elementlərini özündə birləşdirən hibrid və dinamik geosiyasi münasibətlər sistemi kimi çıxış edir.

* * *

Kremlin strateji məqsədlərindən biri Ermənistanın Qərbə, xüsusilə Aİ-yə inteqrasiya prosesini məhdudlaşdırmaq və nəzarət altında saxlamaqdır. Bu yanaşmaya görə, Qərbə inteqrasiya Avrasiya İqtisadi İttifaqı (Aİİ) daxilində mövcud iqtisadi-siyasi balansı zəiflədə bilər. Bu səbəbdən Moskva İrəvana dolayı və ya açıq şəkildə “strateji seçim et” mesajı verir və paralel inteqrasiya modelini qəbulolunmaz sayır. Bu yanaşmanın mühüm dayaqlarından biri iqtisadi asılılıq faktorudur. Rusiya rəsmiləri Ermənistanın Aİİ-dən çıxacağı və ya bu platformadakı iştirakını zəiflədəcəyi halda ciddi iqtisadi itkilərlə üzləşəcəyini vurğulayır. Eyni zamanda, Moskva Ermənistanı təhlükəsizlik baxımından da öz orbitində saxlamağa çalışır. Cənubi Qafqazda NATO və Qərbin artan təsiri Rusiyanın regional təhlükəsizlik arxitekturası üçün risk kimi qiymətləndirilir. Bu səbəbdən Ermənistanın xarici siyasətdə hər bir addımı daha həssas dəyərləndirilir və Qərblə yaxınlaşma cəhdləri strateji təhdid kimi qəbul olunur. Bu durum Ermənistan üçün olduqca mürəkkəb və çoxqatlıdır. Ölkə bir tərəfdən Aİİ üzvü kimi Rusiya ilə dərin iqtisadi və institusional bağlılıqlara malikdir, digər tərəfdən isə Avropa İttifaqı ilə əməkdaşlığı genişləndirməyə və demokratik institutları gücləndirməyə çalışır. Bu ikili reallıq İrəvanı balans siyasətinə məcbur edir.

Mövcud şəraitdə Ermənistan üçün bir neçə əsas strateji seçim formalaşır. Birinci variant balans siyasətinin davam etdirilməsidir. Aİİ üzvlüyünü qorumaqla yanaşı, Aİ ilə islahat və əməkdaşlığı paralel inkişaf etdirmək. Bu model qısa müddətdə sabitlik yaratsa da, uzunmüddətli perspektivdə Şimaldan təzyiqlərin artması riskini saxlayır. İkinci variant Aİ ilə daha dərin və sürətli inteqrasiyadır. Bu seçim Ermənistanın Qərb institutlarına yaxınlaşmasını sürətləndirə bilər, lakin eyni zamanda Rusiya ilə münasibətlərdə ciddi gərginliklər və iqtisadi-təhlükəsizlik riskləri yaradar. Üçüncü variant isə Aİİ daxilində qalmaqla yanaşı, bu platformada şərtlərin yenidən danışıqlarla dəyişdirilməsi və daha çevik iqtisadi manevr imkanlarının əldə edilməsidir. Bu yanaşma kompromisyönümlü model kimi Moskva ilə açıq qarşıdurmadan yayınmağa imkan verir.

Daha radikal ssenari kimi referendum ideyası da gündəmdədir. Bu model qərarın birbaşa ictimai səsvermə ilə müəyyən olunmasını nəzərdə tutur və legitimlik baxımından güclü görünsə də, daxili siyasi qütbləşməni dərinləşdirə və xarici müdaxilə risklərini artıraraq geosiyasi gərginliyi kəskinləşdirə bilər.

Ümumiyyətlə, Rusiya Ermənistanı öz geosiyasi təsir zonasından tam çıxmayan, Qərblə də dərin inteqrasiyaya getməyən “idarə olunan status”da saxlamağa çalışır. Ermənistan isə təhlükəsizlik zəmanətləri, iqtisadi asılılıq və siyasi suverenlik arasında getdikcə daralan manevr sahəsində seçim etməyə məcburdur.

Ermənistandan fərqli olaraq, Azərbaycanın Qərblə münasibətləri daha çox praqmatik maraqlara əsaslanan və bloklaşmadan uzaq balanslaşdırılmış model üzərində qurulub. Avropa İttifaqı ilə əməkdaşlıq əsasən enerji, ticarət və nəqliyyat layihələri çərçivəsində inkişaf edir. Cənub Qaz Dəhlizi Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu gücləndirərək onu etibarlı tərəfdaş kimi möhkəmləndirib. NATO ilə münasibətlər isə məhdud, lakin stabil təhlükəsizlik və sülhməramlı əməkdaşlıq formatında davam edir. Azərbaycan alyansla əməkdaşlığı hərbi-siyasi bloklaşmaya çevirmədən, suveren xarici siyasət xətti çərçivəsində saxlayır.

Beləliklə, Azərbaycanın Qərblə münasibətlərində əsas fərqləndirici cəhət şəffaflıq, balans və qarşılıqlı fayda prinsipinə əsaslanan çevik diplomatiyadır. Bu model ölkəyə regional və beynəlxalq siyasətdə daha sabit manevr imkanları yaradır, qonşuları ilə gərginliyin azalmasına, faydalı əməkdaşlığa xidmət edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Leyla Əliyevanın Vatikan təmsilçisi ilə görüşü



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkəmizdə səfərdə olan Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüş zamanı Heydər Əliyev Fondu ilə Vatikan arasında mövcud əməkdaşlıq sahələri, o cümlədən gələcək fəaliyyət istiqamətləri müzakirə olunub.

Qeyd edək ki, Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında əməkdaşlıq 2012-ci ildən etibarən həyata keçirilir.



Görüşdə Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında mövcud əməkdaşlığın inkişaf perspektivləri, gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan layihələr və təşəbbüslər, həmçinin Vatikan arxivindəki fondların rəqəmsal mühafizəsi sahəsində birgə layihələrin həyata keçirilməsi müzakirə olunub.

Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ötən il Müqəddəs Taxt-Taca səfəri çərçivəsində Vatikan Apostol Kitabxanası və Apostol Arxivini ziyarət etdiyini xatırladaraq, ötən illər ərzində Azərbaycan və Vatikan arasında, eləcə də Heydər Əliyev Fondu ilə geniş əməkdaşlığın qurulduğunu bildirib.

Qonaq Azərbaycana səfəri zamanı bir sıra qurumlarda görüşlər keçirildiyini, müzakirələr zamanı Vatikan kolleksiyalarında Azərbaycanla bağlı qorunan nadir əlyazmaların müəyyənləşdirilməsi, təhlili, tərcüməsi və rəqəmsallaşdırılması məsələlərinin diqqət mərkəzində olduğunu deyib.

Bildirilib ki, Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi ilə əməkdaşlıq çərçivəsində əlyazmaların bərpa edilməsi və onların rəqəmsallaşdırılmasına dair mövcud müqavilə üzrə Azərbaycanın tarixi və mədəni irsi, eləcə də türkdilli xalqların irsi ilə bağlı əhəmiyyətli əlyazmaların bərpası və rəqəmsallaşdırılması həyata keçirilib.

Ötən il Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası və Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında imzalanan anlaşma memorandumuna uyğun olaraq 2026-cı ildə azərbaycanlı alimlərdən ibarət nümayəndə heyətinin Vatikanda tədqiqatlar aparması nəzərdə tutulur. Tədqiqatlar Cənubi Qafqaz və Azərbaycan tarixi, eləcə də Ağqoyunlu və Səfəvi hökmdarlarının Roma papaları ilə diplomatik əlaqələrinə dair materialları əhatə edəcək.

Eyni zamanda, gələcəkdə azərbaycanlı tələbələrin Vatikanda kitabxanaçılıq və arxiv sahələri üzrə təhsil alma imkanları da müzakirə olunub.

Görüş zamanı Vatikan nümayəndə heyətinə Azərbaycan xalçası hədiyyə olunub. Qonaqlar isə Vatikan arxivində XX əsrin əvvəlində Azərbaycan tarixinə aid saxlanılan sənədin surətini hədiyyə ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzi, həmçinin Heydər Əliyev Mərkəzindəki sərgilərlə tanış olublar. Klassik avtomobillər sərgisinə ziyarət zamanı Heydər Əliyev Mərkəzinin direktoru, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov müxtəlif dövrlərə aid avtomobillər barədə qonağa ətraflı məlumat verib. Daha sonra qonaqlar su ehtiyatlarının qorunmasına çağırış edən “Mənim dənizlərim, mənim okeanlarım” sərgisi ilə tanış olublar. Qeyd edək ki, Heydər Əliyev Fondu və IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşəbbüsü ilə təşkil edilən ekspozisiyada müasir rəssamların çirklənmə və həddindən artıq balıq ovundan tutmuş, bioloji müxtəlifliyin itirilməsinə qədər bir sıra qlobal problemləri əks etdirən əsərləri təqdim edilir. Əsərlərdə su həyatın, yenilənmənin və təsəvvürün mənbəyi kimi təsvir olunur.

*XQ*

# “Qızların təhsilinə dəstək” layihəsində II məzun günü

**İyunun 24-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə “Qızların təhsilinə dəstək” layihəsinin II Məzun Günü keçirilib. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.**








Elm və təhsil naziri Emin Əmrullayev çıxışında qızların təhsilinin cəmiyyətin inkişafında mühüm rol oynadığını vurğulayaraq bildirib ki, layihə artıq davamlı təşəbbüsə çevrilib və bu il proqram üzrə 66 qız məzun adını qazanıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, son beş ildə layihənin müxtəlif proqramlarından 593 nəfər yararlanıb. Təhsilin İnkişafı Fondu İdarə Heyətinin sədri Nicat Məmmədli isə bildirib ki, fondun həyata keçirdiyi müxtəlif təqaüd və inkişaf proqramları üzrə ümumilikdə 489 iştirakçı dəstək alıb.

Tədbirdə layihənin builki məzunları təbrik edilib, onlara gül dəstələri təqdim olunub. Daha sonra bədii proqram nümayiş olunub.

Qeyd edək ki, “Qızların təhsilinə dəstək” layihəsi qızların ali təhsilə çıxışının genişləndirilməsi və onların gələcək inkişafının dəstəklənməsi məqsədilə həyata keçirilir.

*XQ*

# Hərbi ali təhsildə buraxılış mərasimi

**İyunun 25-də Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun və Hərbi tibb fakültəsinin məzunlarının növbəti buraxılış mərasimi olub.**



Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbir iştirakçılarını Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 108 illiyi münasibətilə təbrik edib, məzunlara Vətənimizin parlaq gələcəyi, ordumuzun qüdrətlənməsi naminə göstərəcəkləri şərəfli xidmətlərində uğurlar arzulayıb.

Müdafiə naziri ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə yeni yüksəliş mərhələsinə qədəm qoyduğunu bildirib. Nazirin sözlərinə görə, Azərbaycan Ordusu maddi-texniki təminatına, müasir silah və texnologiyalara, təchizatına, döyüş hazırlığına, şəxsi heyətin peşəkarlıq səviyyəsinə görə regionun ən güclü ordularından birinə çevrilib.

“Bu gün məzunların arasında dost Qırğız və Tacikistan Respublikasından gəlmiş kursantlar da var. Onlar burada sahib olduqları bilik və bacarıqları gələcəkdə öz ölkələrinin müdafiə və milli təhlükəsizlik sahəsində tətbiq etməklə yanaşı, dövlətlərimiz arasında dostluq və hərbi əməkdaşlıq körpülərini daha da möhkəmləndirəcəklər.

Cənab zabitlər, Azərbaycan Respublikasının qanunlarına, hərbi nizamnamələrin tələblərinə sadiq qalmalı, xalqımıza və dövlətimizə vicdanla, ləyaqətlə və nümunəvi şəkildə xidmət etməlisiniz. Əminəm ki, etimadı doğruldacaq, bu istiqamətdə bütün var qüvvənizi səfərbər edəcəksiniz”, - deyə Z.Həsənov bildirib.

Sonra fərqlənmə ilə bitirən məzunlara Fəxri fərman və qiymətli hədiyyələr, digər məzunlara isə döş nişanları təqdim edilib.

Tədrisdə və intizamda fərqlənən kursantlar tərəfindən rəmzi yaş kötüyünə məzun simvolu vurulub.

Daha sonra Hərbi İnstitutun Döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Çıxış edən Qırğız Respublikasından olan məzun Emir Esenaliyev deyib: “Bu möhtəşəm Hərbi İnstitutda təhsil almaq və bu gün leytenant rütbəsi ilə məzun olmaqdan böyük qürur hissi keçirirəm. Komandirlərimizə və müəllimlərimizə göstərdikləri yüksək etimada və əvəzsiz zəhmətlərinə görə təşəkkür edirəm. Onların aşıladıqları bilik və dəyərlər gələcək xidmət yolumuzda həmişə bizimlə olacaq. Mən and içirəm ki, qazandığım bilik və təcrübəni öz vətənimin, Qırğız Respublikasının müdafiəsi və inkişafı üçün şərəflə və sədaqətlə istifadə edəcəyəm”.

Tacikistandan olan məzun Anvarcan Qafurov Hərbi İnstitutda keçirdiyi illərin onun üçün yalnız hərbi təhsil dövrü deyil, eyni zamanda, bir həyat məktəbi olduğunu bildirib: “Buradan gedərkən ürəyimdəki bayraq dalğalanacaq: Azərbaycan-Tacikistan bayraqları. Müəllimlərimizə və komandirlərimizə dərin minnətdarlığımı bildirirəm. Yaşasın Azərbaycan-Tacikistan dostluğu”.

Sonda hərbi orkestrin müşayiəti ilə kursantlar Hərbi İnstitutun marşını ifa edib, şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib.

*XQ*

# Əsgər anası

**Sən oğlunu ilk dəfə qucağına alanda, yəqin ki, onun bir gün Vətənin taleyinə yazılacağını düşünmürdün.**

Sənin üçün o, sadəcə, oğlun idi… Güləndə dünyanı işıqlandıran, xəstələnəndə gecəni səhərə qədər səni yatmağa qoymayan, məktəbə gedəndə arxasınca baxıb kövrəldiyin balaca oğlun… İllər keçdi. Boyu uzandı, səsi dəyişdi, çiyinləri genişləndi, kişiləşdi… Amma sən onu həmişə həmin uşaq kimi gördün. Hətta hərbi forma geyinəndə də. Çünki ana ürəyi oğlunu böyüməyə qoymur…

Sonra bir gün Vətən çağırdı. Sən isə ürəyinin yarısını o forma ilə birlikdə yola saldın. Heç kim bilmədi. Heç kim görmədi. Amma o gün evə qayıdanda boş qalan otağa baxıb sakitcə ağlayan sən oldun. Telefon zənginin səsini eşidəndə ürəyi yerindən qopan sən oldun. Gecələr hamı yatandan sonra dua edən də sən oldun.

Çox şey danışıldı. Silahlardan danışıldı. Döyüşlərdən danışıldı. Qələbələrdən danışıldı. Amma o günlərdə milyonlarla dua arasında ən güclüsü sənin duan idi, Əsgər anası. Çünki sən Allahdan özün üçün heç nə istəmirdin. Nə var-dövlət, nə rahat həyat, nə də xoş günlər. Sən yalnız bir səs gözləyirdin: “Ana, mən yaxşıyam…”

Və sonra müharibə bitdi. Qələbə gəldi. Azərbaycanın üçrəngli bayrağı illər boyu həsrətində olduğumuz torpaqlarda dalğalandı. Şuşada azan səsi eşidildi. Xankəndidə də Azərbaycan bayrağı ucaldı. Laçın yolunda, Kəlbəcərin dağlarında, Ağdamın viran qalmış küçələrinə yenidən həyat gəldi.

Hamımız sevindik. Hamımız qürurlandıq. Amma o qələbənin içində elə analar vardı ki, göz yaşlarını sevincdən yox, həsrətdən silirdilər. Çünki hər qələbənin bir əvəzi olur. Biz o dəyəri oğullarımızla ödədik.



Bu torpağın altında indi elə igidlər yatır ki, onların hər biri bir ananın ürəyindən qopmuş parçadır. Onlar şəhid oldular. Amma sən yaxşı bilirsən ki, əsgər anası, şəhid olan təkcə oğul olmur. Onunla birlikdə bir ananın ömrünün bir hissəsi də torpağa tapşırılır. O gündən sonra heç nə əvvəlki kimi olmur. Süfrədə bir boş yer qalır. Bayramlarda bir nəfər çatışmır. Qapı açılanda gözlərin yenə ora dikilir. Ağıl hər şeyi qəbul edir, amma ürək yox…

Bu gün Ordumuzun günüdür. Hamı əsgərlərdən danışacaq. Mən isə bir anlıq onların arxasında dayanan anaları xatırlamaq istədim. Çünki bu ölkənin qələbəsində sənin də payın var, Əsgər anası!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Həmlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Əməkdar jurnalist***

*26 İyun Azərbaycan Silahlı Qüvvələri Günüdür*

**Qədim və mürəkkəb, keşməkeşli tarixə malik Azərbaycan xalqı əsrlər boyu öz azadlığı və dövlətçiliyi uğrunda mübarizə aparıb. Zəngin təbii sərvətlərə, əlverişli və strateji coğrafi-siyasi mövqeyinə görə vətənimiz daima güclü dövlətlərin təzyiqlərinə, hərbi təcavüzünə məruz qalıb. Bununla belə, xalqımız öz mövcudluğunu qoruyub saxlaya bilib, ən qüdrətli düşmən ordularına qarşı mübarizədə hünər, qəhrəmanlıq nümunələri göstərib.**

# Milli ordumuzun qürur və Zəfər dastanı



Cavanşir, Babək, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir Şah, Cavad xan, kimi sərkərdə və dövlət xadimləri Azərbaycanın qəhrəmanlıq tarixinin bütöv bir salnaməsini yaradıblar. Bu kimi mərd sərkərdə və dövlət başçılarının şanlı ömür və fəaliyyət yolu xalqın Vətən sevgisini, azadlıq və dövlətçilik hissini daha da gücləndirib, onu həyatımızın ən vacib, ən ümdə məqsədinə çevirib. Bu həm də Azərbaycan xalqının döyüş əzmini sübuta yetirən tarixi faktlardır. Məhz bu səbəbdən xalqımızı əsarət altında saxlamaq istəyən imperialist güclər ilk növbədə onu silahdan və ordudan uzaqlaşdırmaq niyyəti güdüb. Təsadüfi deyil ki, Şimali Azərbaycanın Çar imperiyası tərkibində olduğu 105 il (1813-1918) ərzində Rusiya çarlığı xalqımızı hərbi xidmətdən məhrum etmiş, müsəlman azərbaycanlılar orduda xidmət əvəzinə, müxtəlif cür vergilər ödəmişlər. Bu siyasət belə xalqın ruhundan gələn hərbi istedadı, sərkərdə yetişdirmə bacarığını məhv edə bilməmişdir. Xalqın yüksək zadəgan və ziyalı zümrəsi içərisindən ayrı-ayrı şəxslər öz övladlarını Rusiyanın hərbi məktəblərinə göndərə bilmişlər və bu hesabdan göstərilən dövrdə müəyyən miqdarda azərbaycanlı zabit heyəti yaranmışdır ki, onlar döyüş cəbhələrində yüksək sərkərdəlik nümunələri göstərmişlər. Zamanı çatanda müstəqil Azərbaycan dövlətinin ordusunu da məhz bu zabit heyəti formalaşdırdı.

## Azərbaycanın ilk müstəqil ordusu

1918-ci ildə Çar Rusiyasının süqutundan sonra Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Cəmi 23 ay ömür sürməsinə baxmayaraq, cümhuriyyət dövründə müstəqil dövlətin bütün atributları, o cümlədən milli ordumuz formalaşdırıldı. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı anda onu müdafiə edə biləcək ordusu yox idi. Belə bir ordunu yaratmaq üçün isə hərbi işi bilən milli kadrlar çatışmırdı. Buna görə də ordu təşkili çox çətin bir iş idi, lakin ordusuz da öz müstəqilliyini qoruyub saxlamaq mümkün deyildi. Yeni yaradılmış dövlətin qarşısında duran ən əsas vəzifə müstəqil ordunun yaradılması idi. Həm ermənilərin, həm də bolşeviklərin işğalçılıq siyasətinə qarşı mübarizə aparmalı olan ADR hökuməti 1918-ci il iyunun 19-da gərgin vəziyyəti nəzərə alaraq bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. İyunun 26-da diviziya statusunda hərbi korpusun yaradılması barədə qərar qəbul olundu və Azərbaycanda milli ordunun təməli qoyuldu. Bu çətin işin təşkilini görkəmli azərbaycanlı generallar Səmədbəy Mehmandarov və Əliağa Şıxlinski öz üzərlərinə götürdülər. 1918-1920-ci illərdə görkəmli generallarımız və digər peşəkar hərbçilərimizin rəhbərliyi ilə Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərbi hazırlığa və intizama malik milli ordu hissələri formalaşdırıldı. 1918-ci il avqustun 1-də isə AXC-nin Hərbi Nazirliyi təsis edildi. İstedadlı general Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski isə nazir müavini təyin edildilər. Qısa müddət ərzində Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Gəncədən Bakıya qədər gedən döyüşlərdə Azərbaycan əsgəri öz döyüş qabiliyyətini təsdiq etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlilik göstərdi, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. Qısa müddət ərzində Qarabağ daşnaklardan azad edildi və 1919-cu ilin iyul ayında da Xankəndi şəhərində Hərbi Parad keçirildi. Artıq 1919-cu ilin axırlarında 25 minlik Azərbaycan ordusu iki piyada və bir süvari diviziyadan ibarət idi. Hərbi nazirlik 1920-ci ildə ordunun şəxsi heyətini 40 min nəfərə çatdırmağı planlaşdırırdı. Ordunu müvafiq silahlarla təmin etmək üçün Azərbaycan hökuməti və Hərbi nazirlik əlindən gələni edirdi. Bir sözlə, Azərbaycan hökuməti az vaxtda milli ordu quruculuğu yönündə çox işlər gördü. Lakin soydaşlarımızın milli dövlətçiliyi nə olursa-olsun, qoruya bilmək yönündə köklənməməsi vəziyyətin daha da gərginləşməsinə səbəb oldu. Dünya bolşevik Rusiyasının qalmasını o dövrdə yaranmış yeni müstəqil dövlətlərin varlığından üstün tuturdu. Digər tərəfdən də Azərbaycanın üzərinə 100 min nəfərlik rus ordusu gəlirdi. Azərbaycan ordusu düşmən ordusuna qarşı müqavimət göstərsə də, az sonra qüvvələrin qeyri-bərabərliyi səbəbindən ölkəmiz Rusiya imperiyası tərəfindən yenidən zəbt olundu.

## Gələcək ordunun təməlləri

Bolşevik işğalından sonra Azərbaycanın müstəqilliyinə xidmət edən Cümhuriyyət Ordusu məqsədli şəkildə məhv edildi. İki il ərzində xalqının müstəqilliyinin müdafiəsində şərəfli bir tarix yaşamış bu ordu bolşevizmin gətirdiyi qanlı faciələrin qurbanı oldu. Cümhuriyyət Ordusunun şəxsi heyətinin yeni şəraitdə sovet işğalına qarşı çıxmasına yol verməmək üçün onun zabit və generalları kütləvi şəkildə öldürüldü. İşğalından dərhal sonra Azərbaycan Xalq Cümhuriyyəti ordusunun 12 generalı, 27 polkovnik və polkovnik-leytenantı, 46 kapitanı və ştab kapitanı, 148 nəfər kiçik zabit, 267 nəfər digər hərbi qulluqçu bolşevik hakimiyyəti tərəfindən qətlə yetirildi. Bütünlükdə isə milli düşüncəli azərbaycanlı zabitlərin sovet hakimiyyəti tərəfindən aradan götürülməsi 1940-cı illərə qədər davam etdi. Eyni zamanda Azərbaycan Respublikasının Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) tərkibində olduğu 1923-cü il yanvarın 1-dən sonrakı ilk 17 ildə - Hitler Almaniyasının SSRİ-yə hücumuna qədər azərbaycanlıları Sovet ordusu tərkibində ümumi əsgəri mükəlləfiyyətə cəlb edilməklə yanaşı, Azərbaycanda bir milli atıcı diviziya da var idi. Həmin dağ-atıcı diviziyası 1920-ci ilin 30 oktyabrında təşkil edilmiş və 1938-ci ilə qədər mövcud olmuşdu bu diviziyanın komandiri Cəmşid Naxçıvanski olmuşdur. Almaniyanın SSRİ-yə hücumu ilə hər cür hərbi rütbə və vəzifələrdən uzaq saxlanılan azərbaycanlıların döyüş şücaətinə ehtiyac yarandı. Azərbaycan xalqı öz zəngin hərbi-tarixi ənənələrinə sadiq qalaraq bu müharibədə də əsl şücaət göstərdi. Həmin dövrdə Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi. İkinci Dünya müharibəsi cəbhələrində general Həzi Aslanov, Mehdi Hüseynzadə, Müseyib Allahverdiyev, Məstan Əliyev, Ziya Bünyadov, İsrafil Məmmədov, Gəray Əsədov, Məlik Məhərrəmov, Yusif Sadıxov, Tahir İsayev, Mərdan Musayev və başqa qəhrəman övladları şücaət və mərdlik göstərmişdirlər. Onların qəhrəmanlığı sayəsində Azərbaycanın şanlı hərb tarixi ənənələri XX əsrdə də uğurla davam etdirilmiş oldu. Müharibədən sonrakı dövrdən 1969-cu ilədək Azərbaycanda hərbi kadr hazırlığına İttifaq rəhbərliyi yenə də qısqanc münasibət bəsləyirdi. Ümummilli lider Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrlərdə ordu quruculuğu, milli zabit kadrlarının hazırlığı məsələləri daim önə çəkildi. Uzaqgörən dövlət xadimi azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına da nail olmuşdu. Ulu öndər 1971-ci ildə böyük səylər nəticəsində Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin – görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan Hərbi Liseyin yaradılmasına nail oldu. O dövrdə Azərbaycan hər il təxminən 60 min gənci ordu sıralarına göndərirdi. Lakin onların böyük əksəriyyəti inşaat batalyonlarına düşürdü. Hərbi hissələrdə azərbaycanlı zabitləri barmaqla saymaq olardı. Odur ki, Bakıda belə bir hərbi məktəbin açılmasının böyük əhəmiyyəti var idi. Bir sözlə, Azərbaycanın müasir hərbi tarixi və Silahlı Qüvvələrinin formalaşması prosesi ümummilli lider Heydər Əliyevin adı və strateji fəaliyyəti ilə qırılmaz şəkildə bağlıdır. Ulu öndərin həm SSRİ dövründəki uzaqgörən addımları, həm də müstəqillik illərindəki qətiyyətli islahatları bugünkü qüdrətli və Zəfər qazanmış Azərbaycan Ordusunun fundamental bünövrəsini təşkil edir. Ümummilli liderin 1969–1982-ci illəri əhatə edən birinci rəhbərliyi dövründə Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri dövlətin hərbi kadr potensialını düşünməsi idi. Sovet İttifaqı rəhbərliyinin yerli xalqlardan hərbi kadrların yetişdirilməsinə loyal yanaşmadığı bir dövrdə ulu öndər Heydər Əliyev böyük diplomatik və siyasi iradə nümayiş etdirərək 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılmasına nail oldu. Bu məktəb azərbaycanlı gənclərin hərb sənətinə marağını kəskin artırdı. Birinci və İkinci Qarabağ müharibələrində ordumuza rəhbərlik edən milli zabitlərin, generalların böyük əksəriyyəti məhz bu məktəbin yetirmələridir.

## İkinci müstəqillik və ordu quruculuğu

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz hərbi sahədə ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas məsələ Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi və bu, çox çətinliklə həyata keçirilirdi. Azərbaycanda vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyə və dövlətçiliyə qarşı yarana biləcək hər hansı təhlükənin qarşısını almağa qadir ordunun yaradılması ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə təkrar hakimiyyətə qayıdışından sonra mümkün oldu. Başlanğıcını 1993-cü il noyabrın 2-də Ulu öndərin xalqa müraciətindən götürən və hərb tariximizə Heydər Əliyevin müasir ordu quruculuğu kimi düşən bu dönəmin ilkin çağlarında yeni yaradılan və vahid komandanlığa tabe olan hərbi birləşmələr, nəinki Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə aldı, hətta Horadiz əməliyyatı ilə çoxsaylı yaşayış məntəqələrini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri düşməndən azad etdi. Heydər Əliyevin 1998-ci il 22 may tarixli qərarına əsasən, 26 İyun – Silahlı Qüvvələr Günü elan edildi. Ulu öndər bu fərmanı imzalamaqla tarixi həqiqətin və milli ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox gərəkli bir addım atdı. Çox qısa müddətdə cəbhədə nizam-intizam bərpa olundu və 1993-cü ilin sonu, 1994-cü ilin əvvəlində uğurlu Horadiz əməliyyatı ilə onlarla yaşayış məntəqəsi işğaldan azad edildi. 1994-cü ildə Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu. Bu, azərbaycanlı zabitlərin beynəlxalq təlimlərdə iştirakına və müasir hərbi doktrinaları mənimsəməsinə şərait yaratdı.

Ulu öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalamışdır. Ulu öndərin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb olub. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki,



Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Ulu öndərin formalaşdırdığı nizam-intizamlı, vətənpərvər və güclü ordu sonrakı illərdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən ən müasir texnologiyalar və iqtisadi güclə birləşdirilərək 2020-ci ilin tarixi Zəfərini təmin edən qüdrətli Azərbaycan Silahlı Qüvvələrinə çevrildi. Məhz buna görə də, müasir Azərbaycan Ordusunun hər bir uğurunun kökündə Heydər Əliyevin hərbi dühası və strateji mirası dayanır.

## Qüdrətli Ordu – Müzəffər Ali Baş Komandan

Silahlı Qüvvələrimizin gücləndirilməsi və bütün qoşun növlərinin döyüş hazırlığının yüksəldilməsi Prezident İlham Əliyevin respublikamıza rəhbərliyinin ilk günündən xüsusi diqqət yetirdiyi məsələdir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən uğurlu siyasət qısa vaxtda Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü ordusuna çevirib. Dövlətimizin siyasi və iqtisadi baxımdan davamlı inkişafı ordumuzun gələcəkdə də öz inkişaf tempini saxlaması üçün əsaslı təminatdır. Dünyanın qabaqcıl hərbi sənaye komplekslərinin istehsalı olan silah və texnikalar ordumuzun arsenalına daxil edilib. Müasir artilleriya qurğuları, reaktiv yaylım atəş və hava hücumundan müdafiə sistemləri, taktiki-raket və zenit-raket kompleksləri, pilotsuz uçuş aparatları qoşunlarımızın silahlanmasında yer alıb. Ordu quruculuğu ilə paralel Ermənistanın işğalçı siyasətinin dünyada tanıdılması istiqamətində uğurlu diplomatik iş aparan Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Azərbaycan Prezidenti Qarabağ kimi çox çətin problemi həll edərək Ermənistanı, dünyadakı erməni diasporunu və onların havadarlarını diz üstə çökdürərək reallığı qəbul etməyə məcbur etdi - işğala son qoyuldu. Müzəffər Ali Baş Komandan bununla da tarixi ədaləti bərpa etdi. Ermənistan üzərində parlaq qələbə əldə edilməsi həm də İlham Əliyevin apardığı praqmatik, sistemli siyasi kursun və uzaqgörən xarici diplomatiyanın bəhrəsi idi. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan Ordusunun Qələbə salnaməsi daim xalqın yaddaşında yaşayacaqdır. Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd, həmçinin Kəlbəcər, Ağdam və Laçın azad edildi. Bütövlükdə 300-dən çox yaşayış məntəqəsi düşməndən təmizləndi. Düşmən ordumuzun gücü qarşısında geri çəkilərək kapitulyasiya aktını imzalamağa məcbur oldu. 44 gün ərzində müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan böyük təzyiqlərin, təhdidlərin olmasına rəğmən Azərbaycan zəfər çaldı. Xalqımız, bütün dünya azərbaycanlıları möhtəşəm qələbəni böyük qürur hissi ilə qeyd etdi.

Vətən müharibəsində nümayiş etdirilən yüksək döyüş hazırlığı, texnoloji üstünlük və taktiki çeviklik Azərbaycan Ordusunun regionun ən güclü silahlı qüvvələrindən biri olduğunu sübut etdi. 2020-ci ildə başlayan 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərlə ərazi bütövlüyümüz, 2023-cü ildə keçirilən antiterror əməliyyatı zamanı isə suverenliyimiz bərpa edildi. Müharibədən sonrakı illərdə Azərbaycan Ordusu daha da modernləşərək həm müdafiə, həm də hücum imkanlarını artırıb. Belə ki, hərbi qulluqçularımızın bilik və yüksək döyüş hazırlığı, vətənpərvərliyi həm ölkə daxilində, həm də beynəlxalq hərbi təlimlərdə özünü göstərir. Azərbaycan Ordusunun hərbi qulluqçuları NATO ilə tərəfdaşlıq çərçivəsində müxtəlif sülhməramlı tədbirlərdə üzərlərinə düşən missiyanı şərəflə yerinə yetirirlər. Bugünkü Azərbaycan Ordusunun əsas dayağı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. 2025-ci il noyabrın 8-də xalqımız tarixi Zəfər Gününün 5 illiyini təntənəli surətdə qeyd etdi. Həmin gün şəhidlərimizin ruhu böyük ehtiramla yad edildi. Onların Vətən müharibəsində göstərdiyi şücaət xalqımızın yaddaşından heç vaxt silinməyəcək.

Azərbaycan xalqı tarix boyu öz torpağı, kimliyi və müstəqilliyi uğrunda mübarizə aparıb. Bu mübarizə müxtəlif dövrlərdə müxtəlif adlar alıb: Cümhuriyyət, müstəqillik, Qarabağ savaşı və Zəfər! Bu gün biz həm xalqımızın qəhrəman oğulları ilə, həm də onların xalqımıza bəxş etdiyi tarixi Zəfərlə fəxr edirik. Xalqımızın qəhrəmanlıq tarixi bitməyən bir dastandır. Bu dastanı yazanlar isə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, xalqımızın milli birliyi və rəşadətli Azərbaycan Ordusudur.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı***

*26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür*

# Müstəqilliyin dayağı, sülhün keşikçisi

## *Silahlı Qüvvələrimiz 108 il əvvəl yaradılmış milli ordunun varisidir*

**Xalqımızın günü-gündən möhkəmlənən müstəqilliyinin və suverenliyinin sevincini yaşayan hər kəs yaxşı bilir ki, dövrümüzdə dövlətçiliyimizin ən etibarlı dayaqlarından biri onun milli ordusudur. Dünya hərb tarixində çoxlarının təvvürünə belə gəlməyən bir səhifə açan bu ordu hər bir yurddaşımızın onillikləri adlamış intizarının donmaqda olan qapılarını açdı, özünün Ali Baş Komandanının rəhbərliyi altında dünyaya səs salacaq bu uğuru Vətənə ərməğan etdi.**

108 il əvvəl əsası qoyulanda da Azərbaycanın milli ordusu bayraqlar arasında öz bayrağını qaldıran bir xalqın güvənc yeri və arxası idi. Çünki bu müstəqilliyə qənim kəsilən, Azərbaycan xalqının azad həyata qovuşmasını istəməyən neçə-neçə qüvvələr silah tutan əllərini onlara rahatlıq verməyən işğalçı planların həyata keçirilməsi üçün Azərbaycana doğru uzatdılar. Azərbaycana hansı qüvvələr qoşun çıxarmadılar? Bakını mövcudluğunun ilkin şərtlərindən biri sayan və Peterburqda qurulan bolşevik hakimiyyəti, Azərbaycanın yalnız çar Rusiyasının buxovları daxilində görmək istəyən Denikinçi qüvvələr, Bakıdan keçməklə Orta Asiyaya yol açmaq istəyən Böyük Britaniya, Azərbaycan neftindən pay uman Almaniya (Gürcüstanla sərhəd bölgəsinə) və nəhayət, böyük dövlətlərin siyasətinin oyuncağı olmaqla Azərbaycan hesabına xəyali Ermənistan qurmaq istəyən Ermənistan (Ararat) dövləti və Ermənistan hökumətinin nəzarətindən kənar olan daşnak terror-təcavüzkar dəstələri.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti mövcud real imkanları xeyli üstələyən bu təhlükələrin qarşısının alınması üçün milli ordunun yaranması kimi tarixi bir addım atdı, xalqı və müstəqilliyi bu təhlükələrdən qoruya biləcək bir ordunun təşkilinə başladı. Bu ağır və məsiliyyətli vəzifə çar Rusiyası ordusu sıralarında tam general rütbəsinə qədər yüksəlmiş Səməd bəy Mehmandarova və əfsanəvi general-leytenant Əliağa Şıxlinskiyə həvalə olundu. Onların ordunun rəhbərliyinə təyin edilmələri Cümhuriyyət ordusunun formalaşdırılması sahəsində Azərbaycan hökumətinin qəbul etdiyi tarixi qərar oldu. Çünki bu generalların zəngin təcrübəsi və təşkilatçılıq qabiliyyəti ordunun sürətlə təşkilatlanmasına müsbət təsir göstərdi.

Adları çəkilən generalların ordu quruculuğu sahəsində tarixi xidmətlərindən biri bu oldu ki, onlar ordu və dövlət münasibətlərinin mahiyyətini dəqiqliklə müəyyənləşdirdilər, ordunun bütün fəaliyyətinin dövlət siyasətinə, dövlət maraqlarının qorunmasına bağlılığını təmin etdilər, ordunu siyasi təsirlərdən və siyasi parçalanmalardan qorudular. Cümhuriyyət hökumətinin bir neçə kabinəsi dəyişsə də Hərbi Nazirliyin rəhbərliyi dəyişilməz qaldı. Yeni təşkil olunan kabinələrin hamısının rəhbərliyi Hərbi Nazirliyə rəhbərlikdə S.Mehmandarovla Ə.Şıxlinskiyə alternativ görmədilər.

Qısa müddət ərzində Azərbaycanın milli hərbi qüvvələrinin formalaşdırılması üçün Hərbi Nazirlik və respublika hökuməti son dərəcə mürəkkəb problemlərin həlli ilə üzləşməli oldu. Siyasi, iqtisadi, hərbi xarakterli bu problemlərdən biri də I Dünya müharibəsinin nəticələrinə görə bölgədə və respublika daxilində yaranan hərbi-siyasi şərait və o cümlədən müttəfiq dövlətlərin adından ingilis hərbi qüvvələrinin Azərbaycana yeridilməsi idi.

Bu çətinliklərin olmasına baxmayaraq, milli ordunun təşkilatlandırılması üçün ciddi addımların atılmasına başlandı. Azərbaycan hökuməti ordu quruculuğuna rəhbərlik edəcək strukturları yaratmaqla bərabər, bu strukturların öz fəaliyyətində rəhbər tutmalı olduğu siyasəti də işləyib hazırladı. Həmin siyasətə əsasən odru quruculuğu bir tərəfdən dövlət quruculuğunun tərkib hissəsi kimi qəbul edilir və bu prosesə ümumdövlət mənafelərindən yanaşılırdı. Müstəqil bir dövlətin müstəqil orduya malik olması bu dövlətin mövcudluğunun qorunmasının başlıca qarantı kimi dəyərləndirilirdi. Digər tərəfdən də Cümhuriyyət ordusu hər hansı bir təcavüzkar məqsəd üçün deyil, konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün etibarlı bir qüvvə kimi təsəvvür edilirdi.

Milli ordu quruculuğu üçün düzgün seçilmiş olan belə siyasi-strateji xətt ölkənin güclü ordusunun formalaşdırılması üçün real zəmin yaratdı. Qarşıda dayanan məsuliyyətli vəzifələrin isə qısa zaman ərzində və uğurla həll edilməsi üçün ordu quruculuğu məsələləri yeni cəmiyyət quruculuğunun bütün sahələri ilə sıx və səmərəli şəkildə tənzimləndi, ölkənin mövcud imkanları ordu quruculuğunun uğurla aparılmasına səfərbər edildi.

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təşkili Azərbaycanın hərb tarixində və bütünlükdə, Azərbaycan xalqının tarixində əhəmiyyətli bir hadisə idi. Çünki hər şeydən əvvəl bu ordunun yaradılması ilə Azərbaycanda müstəqil nizami ordu quruculuğunun əsası qoyuldu və Azərbaycanda ordu quruculuğu tarixində xarakter etibarilə tamamilə yeni bir səhifə açıldı. Təxminən bir əsrlik fasilədən sonra Azərbaycanda hərb işi yenidən canlandırıldı, bu sahə dövlət quruculuğunun tərkib hissəsinə çevrildi. Azərbaycan xalqının çoxəsrlik döyüş ənənələri üzərinə dünyanın son təcrübəsini özündə əks etdirən yeni bir ordu yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə dövlət quruculuğunun əldə etdiyi ən mühüm nailiyyətlərdən biri oldu.

Xəstə təxəyyülün məhsulu olan "böyük Ermənistan"ın coğrafiyasının cızılması üçün Azərbaycan ərazisinin böyük bir hissəsi azərbaycanlı əhalidən təmizlənməklə türkçülüyə münasibətdə ən adi insani meyarlarını əldən vermiş erməni toplumunun tapdağı altına çevrilməsinə cəhd göstəriləndə dövrün milli siyasətçilərinin ərklə "ağsaqqal generalımız" adlandırdığı hərbi nazir Səməd bəy Mehmandarov öz silahdaşlarını toplayıb cəbhəyə səfərbər oldu və onlarla birlikdə Vətənə sədaqətli xidmətin




nəsillərə meyar olacaq bir nümunəsini yaratdı. Bütün cəhdlərinə və böyük qüvvələr cəlb etməsinə baxmayaraq, erməni-daşnak qüvvələri Qarabağı Azərbaycandan qopara bilmədilər.

Cümhuriyyət ordusu böyük fədakarlıqlar nəticəsində bu diyarı yad nəfəsindən qorudu, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına imkan vermədi.

Lakin 1920-ci ilin aprelində Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal olunması ilə milli ordu quruculuğuna son qoyuldu, Azərbaycan Ordusu qırmızı bolşevik ordusu ilə əvəzləndi və Azərbaycanın milli zabit kadrları kütləvi şəkildə bolşevizm terroruna məruz qaldı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu, müstəqil dövlətçiliyə xidmət, milli maraqların müdafiəsinə sədaqət sahəsində yeni bir təfəkkür formalaşdırıldı, milli hərbi ənənələrə yeni bir məzmun verildi. Məhz bunun üçün idi ki, Cümhuriyyətin süqutundan sonra bolşevik quruluşunun daşıyıcıları Azərbaycan üzərində qırmızı işğalı möhkəmləndirmək üçün, ilk növbədə, milli hərbi kadrların kütləvi terroruna başladılar.

Doğrudur, istər Cümhuriyyət dövründə xidmət sıralarında olmuş, istər sovet hakimiyyəti illərində yeni rejimə xidmət yoluna cəlb olunmuş çoxlu sayda milli hərbi kadrlar qırmızı bolşevik terrorunun qurbanı oldu. Hətta 1938-ci ilə qədər milli diviziya adı altında mövcud olan Azərbaycan diviziyası da bu terrordan yaxa qurtara bilmədi və həmin ildə onun ləğvinə qərar verildi. Bununla belə, azərbaycanlılar arasında milli hərbi ruhu bütünlüklə məhv etmək sovet rejiminə qismət olmadı.

İkinci Dünya müharibəsi illərində faşizmə qarşı mübarizədə Azərbaycan xalqının göstərdiyi xidmətlər, Azərbaycan övladlarının misilsiz hünərləri buna bir sübutdur. Lakin sovet rejimi izlədiyi ideologiyaya və siyasi hədəflərə uyğun olaraq xalqın Cümhuriyyət dövründən yeni məzmun kəsb edən hərbi ənənələrinin canlandırılmasına, azərbaycanlıların hərb işinə daha geniş şəkildə genişlənməsinə imkan vermədi.

Bu sahədə xalqın maraqlarına cavab verən dönüşə bir də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə nail olmaq mümkün oldu. Azərbaycan müstəqil olmadığı zaman ölkənin qəhrəmanlıq ənənələrinin davam etdirilməsi, zəngin hərb tarixinin canlandırılması, gənclərin bu qəhrəmanlıq ənənələri üzərində tərbiyə edilməsi, sərkərdələrin və görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsi fikirləri Heydər Əliyevin hər zaman diqqət mərkəzində olmuşdu.

Bunun nəticəsi idi ki, sovet illərində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı, bu istiqamətdə əməli-təşkilati işlərə vüsət verildi. Sovet rejiminin böyük müqavimətinə baxmayaraq, Cəmşid Naxçıvanski adına xüsusi-internat məktəbin açılması, Bakı şəhərində yerləşən hərbi məktəblərdə azərbaycanlı kursantların sayının artırılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlıların sıralarının genişləndirilməsi Heydər Əliyevin milli hərbi ənənələrin canlandırılması sahəsindəki tarixi fəaliyyətinin əyani nümayişidir.

Bu gün hamılıqla sevincini yaşadığımız o böyük Zəfərin təminatçısı olan güclü dövlətin, güclü xalqın və güclü ordunun tarixi isə öz başlanğıcını, heç şübhəsiz ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından götürür. Məhz onun hakimiyyətə gəlişi ilə Azərbaycanın dövlətçilik tarixinə, xalqın təşkilatlanma tarixinə və ordu quruculuğu tarixinə yeni və parlaq bir səhifə yazıldı. Həm də Azərbaycanın gələcək tarixində xüsusi əhəmiyyət kəsb edəcək güclü dövlət, güclü xalq və güclü ordu təcrübəsi formalaşdı.

Respublikada yeni Konstitusiyadan irəli gələn vəzifələrin icrasına qadir bir ordunun yaradılması Heydər Əliyevin radio və televiziya ilə xalqa 2 noyabr 1993-cü il tarixli müraciətindən başlayır. Bu müraciət bir tərəfdən sağlam ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənəd idisə, bir tərəfdən də Heydər Əliyevin gücünə arxalandığı xalqa çağırışı idi.

Bu çağırış xalqın bütün təbəqələri tərəfindən qəbul edildi və öz potensialını Vətənin müdafiəsinə istiqamətləndirildi. Yəni Heydər Əliyev xalqın potensialını ordu quruculuğu kimi mühüm bir sahəyə də səfərbər edə bildi. Məhz xalqın mübarizə gücünün təşkilatlandırılması, səfərbər edilməsi və milli maraqlar müstəvisində istiqamətləndirilməsi nəticəsində Heydər Əliyev güclü ordunun yaradılmasına da nail oldu.

Ulu öndərin dövlət quruculuğunun tərkib hissəsi olan ordu quruculuğunun qarşısında dayanan vəzifələrin, bu vəzifələrin həyata keçirilməsi üçün zəruri dövlət siyasətinin, bu siyasəti həyata keçirəcək qüvvə və vasitələrin düzgün müəyyənləşdirilməsi, bu prosesi bütünlüklə qanuni çərçivəyə salması və dövlətin mərkəzləşdirilmiş rəhbərliyi altına gətirməsi Azərbaycan Ordusunun sağlam əsaslar üzərində formalaşmasına və möhkəmlənməsinə yol açdı.

Nəticədə, Azərbaycan Ordusu Heydər Əliyevun respublika prezidentliyi illərində bölgənin güclü ordularından birinə çevrildi. Yəni belə bir güc formalaşdırıldı.

İlham Əliyevin prezidentliyi dövründə isə bu proses yüksələn xətlə davam etdi. Heydər Əliyev siyasətinə sədaqət və bu siyasətə yaradıcı münasibət Azərbaycan Ordusunu daha da möhkəmləndirdi. Qısa müddət ərzində bu ordunun texniki təchizatında köklü dəyişikliklər baş verdi. Hərbi büdcənin ildən-ilə artırılması, habelə respublikanın daxilində hərbi-sənaye kompleksiniun yaradılması Azərbaycan Ordusunu dünyanın ən müasir silahlarla təmin edilmiş ordularından birinə çevrirdi.

Ordunun infrastrukturunun yenilənməsi, kadr hazırlığının dünya təcrübəsi səviyyəsinə qaldırılması, şəxsi heyətə qayğının daha da artırılması qoşunları döyüş hazırlığında yeni tələblərin irəli sürülməsi ordunun döyüş qüdrətini yüksəltdi. Bunu Azərbaycanın dostları da, düşmənləri də etiraf etmək məcburiyyətində qaldılar. Yenidən elmi-nəzəri əsaslar üzərində qurulmasına ulu öndər Heydər Əliyevin prezidentliyi illərində başlanan Azərbaycan Ordusu dünyanın 50 güclü ordusu sırasında yer tutdu.

Bu siyasət Ulu öndərin ən layiqli davamçısı İlham Əliyevin respublikaya prezidentliyi dövründə də uğurla davam etdirildi. Onun rəhbərliyi altında qoşunların maddi-texniki bazasının davamlı olaraq təkmilləşdirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə daha da yaxınlaşdırılması, Silahlı Qüvvələrdə mənəvi əhvali-ruhiyyənin sağlamlaşdırılması, ordunun milli kadr hazırlığının uğurla davam etdirilməsi, ordunun struktur islahatlarının onun qarşısında dayanan vəzifələrə uyğun aparılması, nizam-intizamın gücləndirilməsi, şəxsi heyətə sosial qayğının daim diqqət mərkəzində saxlanması Azərbaycan Ordusunun daha da güclənməsinə imkan yaratmışdır.

Bütün bunların nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandanın bütün əmrlərini vaxtında yerinə yetirməyə və Azərbaycan xalqının ümidlərini doğrultmağa qadir olan bir qüvvəyə çevrilmişdir. 44 günlük Vətən müharibəsinin başlanması ərəfəsində İlham Əliyev də Ali Baş Komandan kimi ordunun hazırlıq səviyyəsini belə qiymətləndirmişdi: "Bu gün biz güclü ordu yaratmışıq. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. Mənim dövrümdə bir dəfə də olmayıb ki, tapşırıq verilsin, yerinə yetirilməsin. Yerinə yetirilib".

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə günü-gündən inkişaf edən və möhkəmlənən Azərbaycan Ordusu nəyə qadir olduğunu hələ 2016-cı ilin aprelində Ermənistanən hərbi qüvvələrinin təxribatının qarşısının alındığı zaman və 2018-ci ilin mayında Naxçıvanın Günnüt kəndi ətrafındakı torpaqları erməni işğalından azad edərkən artıq əyani şəkildə nümayiş etdirmişdi. Ali Baş Komandanın yuxarıdakl fikirlərində də buna bir işarə vardır. Həmin uğurları İlham Əliyev Azərbaycanın hərb tarixinin şərəfli səhifəsi kimi qələmə verirdi.

2020-ci il iyul ayının 12–15-də Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu ərazisində baş verən hadisələr zamanı isə Azərbayvcan Ordusu bölmələri tamamilə yeni bir keyfiyyət ortaya qoydular. Ordunun komandir və zabit heyətinin yüksək peşəkarlığı, təşəbbüskarlığı və çevikliyi Ali Baş Komandan tərəfindən verilən tapşırıqların tam şəkildə yerinə yetirilməsinə yol açdı. Qısa müddət ərzində bölgədəki hərbi qüvvələr bu təcavüzün qarşısının alınmasına səfərbər olundular, Azərbaycan Ordusunun malik olduğu müasir hərbi texnika çox dəqiqliklə işə salındı. Xüsusilə pilotsuz uçan təyyarələr Ermənistanın istər sərhəd boyu, istərsə də Ermənistanın dərinliklərində olan hərbi obyektlərini darmadağın etdi, təcavüzkara ağır itki verildi. Erməni hərbi qüvvələrinin ələ keçirməyə çalışdığı ərazilər geri qaytarıldı və düşmənə bu bölgədə bir qarış da olsa torpaq verilmədi.

Daha böyük Zəfərini isə Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsinin gedişində əldə etdi. Cəmi ay yarım davam edən döyüşlər zamanı Ermənistana, faşist mahiyyətli dünya erməniliyinə və onların havadarlarına elə bir dərs verildi ki, bölgədə tamamilə yeni bir reallıq yarandı. 30 il ərzində davam edən işğala susqunluqla yanaşan çox böyük qüvvələr Azərbaycan xalqının iradəsi qarşısında diz çökməyə məcbur oldu və bu qüvvələrin heç yuxularında belə təsəvvür edə bilməyəcəkləri bir tarixi mənzərə ortaya çıxdı.

Azərbaycan xalqı və onun iradəsini ifadə edən Azərbaycan dövləti gücünü və qətiyyətini toplayaraq öz ərazilərini erməni işğalından azad etdi, fərqli bir dünya düzəni yaratmaqla yeni bir tarix yazdı. Azərbaycan xalqı sübut etdi ki, haqsızlığa dayaqlanan şər və təcavüzlə onun iradəsini qırmaq, Azərbaycan xalqı ilə zor və təzyiqlə danışmaq, Azərbaycan xalqının səbri və dözümü ilə siyasi alver etmək olmaz. Kimsənin torpağına göz dikməyən Azərbaycan dövləti torpaqlarının da yad tapdağı altında qalması ilə barışmadı və bu torpaqlarda əbədilik kök salacaqlarına şübhə etməyən erməniliyə layiq olduğu yerini göstərdi, müstəqil Azərbaycanın ərazi bütövlüyü bərpa edildi.

3.1.20. istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində işçinin peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsini, habelə istehsalatda bədbəxt hadisələr və peşə xəstəliyi ilə əlaqədar işçinin (sağlamlığı xəsarət yetirilmə nəticəsində və ya başqa şəkildə pozulmuş fiziki şəxsin) əlavə xərclərə (müalicəyə, əlavə qidalanmaya, dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitəsinin verilməsinə və başqa peşə öyrədilməsinə) ehtiyacı olub-olmadığını tibbi-sosial ekspert komissiyaları vasitəsilə müəyyən etmək;

3.1.21. işləyən əlilliyi olan şəxslərin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən rəy verilməsini təmin etmək;

3.1.22. əlilliyi müəyyən edilmiş çağırışçılar və hərbi vəzifəlilər haqqında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə elektron qaydada məlumat verilməsini təmin etmək;

3.1.23. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq, yekun tibbi müayinəni aparmaq və bu sahədə işin optimallaşdırılması barədə Nazirliyə təkliflər vermək;

3.1.24. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.25. Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən müasir informasiya texnologiyaları ilə təmin edilməsi barədə təkliflər vermək;

3.1.26. müvafiq sahədə elektron xidmətləri, “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında” Əsasnaməyə uyğun olaraq təşkil etmək;

3.1.27. fəaliyyət istiqamətləri üzrə statistik və maliyyə hesabatlarını Nazirliyə və aidiyyəti üzrə müvafiq dövlət orqanlarına (qurumlarına) təqdim etmək;

3.1.28. müvafiq sahə ilə bağlı dövlət orqanları, beynəlxalq təşkilatlar, hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilən məqsədli proqram və layihələri onlarla birlikdə həyata keçirmək;

3.1.29. müvafiq sahə ilə bağlı innovativ layihələrdən (o cümlədən startaplardan) istifadə imkanını araşdırmaq və Nazirliyə təkliflər vermək;

3.1.30. fəaliyyəti ilə bağlı malların (işlərin və xidmətlərin) satın alınmasını “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirmək;

3.1.31. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.32. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.33. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq, qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.34. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentlik əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.35. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.36. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.37. dövlət, kommersiya və həkim sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.38. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.39. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.40. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.41. müvafiq sahədə təlimlər təşkil etmək, peşəkar mütəxəssislərin hazırlanması, mövcud kadrların ixtisasının artırılması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək, onların həyata keçirilməsində iştirak etmək;

3.1.42. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi barədə Nazirliyə təkliflər vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn tədbirlər görmək;

3.2.4. Nazirliklə razılaşdırmaqla, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlər göstərilməsi üçün tibb müəssisələrini seçmək;

3.2.5. xidmətlər zərfi çərçivəsində tibbi xidmətlər üçün tariflərin müəyyən olunmasına dair Nazirliyə təkliflər vermək;

3.2.6. icbari tibbi sığorta çərçivəsində sığortaolunanlara göstərilən tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə, habelə sığortaolunanlara buraxılan dərman vasitələrinin həcminə və buraxılma şərtlərinə nəzarət etmək məqsədilə seçmə üsulu ilə tibbi-iqtisadi ekspertiza və tibbi xidmətin keyfiyyətinin ekspertizasını həyata keçirmək;

3.2.7. tibb müəssisələri, həmçinin aptek təşkilatları müqavilə şərtlərini pozduqları hallarda tibbi xidmətlərə, habelə buraxılmış dərman vasitələrinə çəkilən xərcləri qismən ödəmək və ya ödəməkdən imtina etmək;

3.2.8. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, subroqasiya hüququndan istifadə etmək;

3.2.9. icbari tibbi sığortanın maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsaitin həcminin artırılması və icbari tibbi sığortanın maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə sərbəst maliyyə vəsaitini yerli bazarda investisiyaya yönəltmək;

3.2.10. icbari tibbi sığortanın inkişafı məqsədilə investisiyalar cəlb etmək;

3.2.11. tibb müəssisəsinin və (və ya) tibb işçisinin təqsiri üzündən sığortaolunana vurulmuş zərərin ödənilməsi üçün məhkəməyə müraciət etmək;

3.2.12. tibbi-sosial ekspert komissiyalarının qərarlarından narazı olan vətəndaşların müraciəti əsasında, habelə əlilliyin qiymətləndirilməsi barədə tibbi-sosial ekspert komissiyasının qərarının düzgünlüyünü şübhə altına alan əsaslı sübutlar olduqda, əlilliyi müəyyən edilmiş şəxsləri əyani müayinəyə cəlb etmək;

3.2.13. tibbi-sosial ekspert komissiyasının qərarının qüvvədə saxlanılması, dəyişdirilməsi və ya ləğvi barədə qərar qəbul etmək;

3.2.14. tibbi-sosial ekspert komissiyalarının qərar qəbul etməkdə çətinlik çəkdiyi mürəkkəb ekspertiza hallarında tibbi-sosial ekspert komissiyalarına məsləhət vermək;

3.2.15. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.16. müvafiq sahədə beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xaricdə fəaliyyət göstərən müvafiq qurumlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.17. könüllüləri öz fəaliyyətinə cəlb etmək;

3.2.18. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.19. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.20. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.21. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.22. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.23. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.24. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.25. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Agentliyin idarə olunması

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı İdarə Heyətidir.

4.3. İdarə Heyəti Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. İdarə Heyətinin tərkibi 5 (beş) üzvdən – Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və onun 4 (dörd) müavinindən ibarətdir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin illik maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. Agentliyin strateji məqsəd və planlarını müəyyən etmək, inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

4.5.3. Agentliyin fəaliyyətini təşkil etmək və ona nəzarət etmək;

4.5.4. Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.5. Agentliyin sığorta ehtiyat fondlarının formalaşdırılması və bu ehtiyatlardan istifadə qaydasını müəyyən etmək;

4.5.6. dərman vasitələrinin pozitiv siyahısını və şərti kompensasiya məbləğini müəyyən etmək;

4.5.7. icbari tibbi sığorta haqlarının məbləğinin və bu haqların ödənilmə qaydasının müəyyən edilməsinə dair təkliflər vermək;

4.5.8. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, habelə işçilərin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi üçün Nazirliyə təkliflər vermək;

4.5.9. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.10. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.11. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.12. Nazirliyin razılığı ilə Agentliyin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.13. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.14. Agentliyin daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə bu Nizamnamənin 4.11.10-cu yarımbəndi nəzərə alınmaqla, onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.15. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.16. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.17. bu Nizamnamənin 3.1.36-cı yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.18. Agentliyin strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.19. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.20. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.21. təsisçinin və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini İdarə Heyəti sədrinin müavinləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.7. İdarə Heyətinin sədri İdarə Heyətinin iclaslarını ayda azı 1 (bir) dəfə çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həllediciidir.

4.8. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə, yazılı məlumat verilir.

4.9. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.10. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.11. İdarə Heyətinin sədri:

4.11.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.11.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.11.3. öz təşəbbüsü və İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.11.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.11.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.11.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.11.7. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.11.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.11.9. Agentlik işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.11.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə Nazirliklə razılaşdırmaqla qərarlar qəbul edir;

4.11.11. Agentliyin əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.11.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.11.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.11.14. Agentlikdə fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.11.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.11.16. müavinləri və struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsü aparır;

4.11.17. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.12. İdarə Heyətinin üzvləri:

4.12.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.12.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.12.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.12.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.12.5. İdarə Heyətinin qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.13. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

### 5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin nizamnamə fondu 10 565 947, 36 (on milyon beş yüz altmış beş min doqquz yüz qırx yeddi manat otuz altı qəpik) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən daxil olan icbari tibbi sığorta vəsaitindən, fəaliyyətindən əldə olunmuş gəlirdən, kreditlərdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Agentliyin idarə, filial və nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququ vardır.

5.5. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Bu Nizamnamənin 5.7-ci bəndi istisna olmaqla, Agentliyin məhsullarının (işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

5.7. Agentlik tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi xidmətlər zərfi çərçivəsində göstərilən tibbi xidmətlərin, habelə xidmətlər zərfi ilə əhatə olunmayan tibbi xidmətlərin tarifləri tənzimlənən qiymətlərə (tariflərə) aiddir.

5.8. Maliyyə ilinin sonuna icbari tibbi sığorta fondunun istifadə olunmamış vəsaitdən istifadə “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.

### 6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Agentlik hər il martın 31-dək əvvəlki ildə ölkənin icbari tibbi sığorta sistemi ilə bağlı vəziyyəti və inkişaf perspektivləri barədə hesabatı, habelə Agentliyin fəaliyyətinə dair illik hesabatı Nazirliyə təqdim edir.

### 7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

### 8. Agentliyin ləğvi və yenidən təşkili

Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Hörmüz boğazı sabitliyə yol açır

*Geosiyasi maneələr isə tam aradan qaldırılmayıb*



**Son günlər Hörmüz boğazında müşahidə olunan vəziyyət əvvəlki həftələrlə müqayisədə nisbi sabitlik mərhələsinə daxil olub və nəticə etibarilə dəniz nəqliyyatının hərəkəti üçün daha əlverişli şərait formalaşıb. İranın BMT-dəki daimi nümayəndəsi Əli Bəhreyni tərəfindən verilən açıqlamaya əsasən, Hörmüz boğazı ticarət gəmiləri üçün müvəqqəti olaraq tam və ödənişsiz açılıb. Bu qərar fevral ayının sonlarından etibarən təxminən 4 ay davam edən gəmiçilik böhranı kontekstində mühüm dönüş nöqtəsi kimi qiymətləndirilir.**

Bəhreynin bildirdiyinə görə, boğazın açıq qalması 60 günlük müddəti əhatə edəcək və bu dövrdə heç bir tranzit rüsumu tətbiq olunmayacaq. Bununla yanaşı, tərəflər (İran və ABŞ) mümkün risklərin idarə edilməsi və yaranacaq problemlərin operativ həlli məqsədilə birgə kommunikasiya mexanizminin yaradılması barədə razılığa gəliblər. Lakin qeyd edilir ki, 60 günlük müddətdən sonrakı rejim birbaşa tərəflər arasında aparılan danışıqların nəticəsindən asılı olacaq.

Qeyd edək ki, iyunun 18-də İran və ABŞ arasında imzalanmış "İslamabad Anlaşma Memorandumu" prosesin əsas hüquqi-siyasi çərçivəsini formalaşdırıb. Sənəd 28 fevraldan başlayan hərbi gərginliyin dayandırılmasını nəzərdə tutmaqla yanaşı, ABŞ-ın dəniz blokadasının aradan qaldırılması və Hörmüz boğazında gəmiçiliyin mərhələli şəkildə bərpası üçün yol xəritəsinin hazırlanmasını ehtiva edir. Ardınca, 21 iyun tarixində İsveçrədə keçirilən ilkin danışıqlar mərhələsində Qətər və Pakistanın birgə bəyanatına əsasən, tərəflər "müsbət irəliləyiş" əldə etdiklərini bildiriblər və 60 gün ərzində yekun razılaşmaya nail olmaq üçün yüksək səviyyəli siyasi koordinasiya komitəsinin yaradılması barədə razılığa gəliblər.

Eyni zamanda, enerji bazarları üzrə rəqəmlər göstərir ki, Hörmüz boğazından neft axını əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə bərpa olunub. İyunun 25-də ABŞ-ın Enerji Nazirliyinin nümayəndəsi Kris Raytın açıqlamasına görə, son 24 saat ərzində boğazdan təxminən 20 milyon barel neft daşınıb və ümumi axın münaqişədən əvvəlki səviyyəyə yaxınlaşır. Bununla belə, o, boğazın tam təhlükəsiz fəaliyyətə qayıtması üçün minalardan təmizləmə işlərinin hələ də davam etdirilməsinin vacibliyini vurğulayıb və bu prosesin bir neçə həftə çəkə biləcəyini qeyd edib.

Bununla paralel olaraq, CNN və "MarineTraffic"in son məlumatları göstərir ki, boğazda gəmi hərəkəti son 24 saat ərzində kəskin artaraq fevralın sonundan bəri ən yüksək həddə çatıb. Bu dinamika qlobal enerji bazarlarında dərhal öz əksini tapıb və neft qiymətlərində eniş meyillərini gücləndirib. Belə ki, "Brent" markalı neftin qiyməti ICE birjasında 1,14 dollar azalaraq 72,6 dollar, "Light" markalı neft isə NYMEX birjasında 0,91 dollar ucuzlaşaraq 69,43 dollar səviyyəsində qərarlaşıb.

Ümumilikdə, son 100 gündən artıq davam edən regional gərginlik dövründə neft qiymətlərində 75–126 dollar aralığında ciddi dalğalanmalar müşahidə olunub. Bu prosesdən Azərbaycan nefti də kənarda qalmayıb və "Azeri Light" markalı neftin qiyməti 3,38 dollar və ya 4,2 faiz azalaraq 76,38 dollar təşkil edib. Qısamüddətli perspektivdə yüksək qiymətlər Azərbaycanın neft gəlirləri üçün müsbət təsir yaratsa da, hazırkı eniş mərhələsi büdcə gəlirlərində əlavə artım imkanlarını məhdudlaşdıra bilər.

Analitik qiymətləndirmələrə görə, Hörmüz boğazının yenidən açılması qlobal enerji bazarlarında sabitlik üçün müsbət siqnal kimi qəbul edilir. Bununla belə, 60 günlük keçid dövründən sonrakı idarəetmə mexanizmi hələ də qeyri-müəyyən olaraq qalır və prosesin gələcək istiqaməti ABŞ–İran danışıqlarının nəticələrindən birbaşa asılıdır. İran tərəfinin açıqlamaları da göstərir ki, boğazın statusu siyasi razılaşmalara həssas şəkildə bağlı qalır və risk faktoru tam aradan qalxmayıb.

Xatırlatmaq lazımdır ki, iyunun 20-də İran silahlı qüvvələri ABŞ-ın İsraili effektiv şəkildə məhdudlaşdıra bilməməsini və memoranduma dair iddia olunan pozuntuları əsas gətirərək Hörmüz boğazını qısa müddətə bağlamışdı. Bu baxımdan, yekun siyasi razılaşmanın əldə olunmaması halında oxşar addımların təkrarlanması ehtimalı istisna edilmir. Buna görə də hazırkı mərhələdə boğaz açıq olsa da, geosiyasi risklər hələ də qalır.

Bu qeyri-müəyyənlik fonunda beynəlxalq enerji və logistika şirkətləri alternativ marşrutlara daha çox üstünlük verməyə başlayır. Azərbaycanın yerləşdiyi Orta Dəhliz kimi strateji nəqliyyat xətlərinin əhəmiyyəti daha da artır. Xüsusilə Çin–Avropa ticarətində daha təhlükəsiz və sabit logistik həllərə tələbatın yüksəlməsi bu tendensiyanı gücləndirir.

Eyni zamanda, Yaxın Şərqdə gərginliyin yenidən artması ehtimalı enerji təhlükəsizliyi məsələsini Avropa üçün daha aktual edir. Bu kontekstdə Azərbaycan qazına və enerji infrastrukturuna marağın artması gözlənilir. Azərbaycanın Avropanın etibarlı enerji tərəfdaşlarından birinə çevrilməsi də bu prosesin davamlı xarakter aldığını göstərir. Bununla paralel olaraq, Avropa İttifaqının Rusiya enerji resurslarından asılılığını azaltmaq siyasəti Azərbaycanla əməkdaşlığın strateji əhəmiyyətini daha da artırır. Bu çərçivədə 2022-ci ildə imzalanmış strateji enerji memorandumu Azərbaycan qazının Avropaya nəqlinin genişləndirilməsini hədəfləyir.

Hazırda Avropa üçün Cənub Qaz Dəhlizi, TANAP və TAP kimi layihələr alternativ enerji təminatının əsas sütunlarından biri hesab olunur. Bununla yanaşı, Bakı–Tbilisi–Ceyhan boru kəməri də Avropanın enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır.

Son illərdə yaşıl enerji, Xəzər regionunda külək enerjisi layihələri, Qara dəniz üzərindən elektrik ötürülməsi təşəbbüsləri və Orta Dəhliz üzrə logistika inteqrasiyası Azərbaycan–Avropa əməkdaşlığının yeni mərhələsini formalaşdırır.

*Musa BAĞIRLI*
*XQ*

# Azərbaycanın BTİ qurumlarında təmsilçilik təşəbbüsü




**Bu il noyabrın 9–27-də Qətərdə Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) növbəti Səlahiyyətli Konfransının keçirilməsi nəzərdə tutulur.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına əsasən, 4 ildən bir təşkil olunan məclisdə İttifaqın Baş katibi, Baş katibin müavini, büroların direktorları, o cümlədən qurumun Radio Tənzimləmə Komitəsinə və idarəedici orqanı olan Şuraya üzvlər seçilir.

Azərbaycan 2027–2030-cu illər üzrə BTİ Şurasına üzvlük üçün namizədliyini təqdim edib. Eyni zamanda, Azərbaycan Kosmik Agentliyinin (Azərkosmos) Radiotezliklərin idarəolunması şöbəsinin müdiri Sitarə Mehdiyevanın Radio Tənzimləmə Komitəsinin üzvlüyünə namizədliyi irəli sürülüb.

Ölkəmiz 2014, 2018 və 2022-ci illərdə keçirilmiş BTİ səlahiyyətli konfranslarında Şuraya üzv seçilib. Azərbaycanın Şurada təmsil olunması qurumun qərar qəbuletmə və idarəetmə proseslərində fəal iştirakına, milli maraqların müdafiəsinə və informasiya-kommunikasiya texnologiyaları sahəsində prioritetlərin təşviqinə mühüm töhfə verib.

Bununla yanaşı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndəsi 2018 və 2022-ci illərdə ardıcıl olaraq Radio Tənzimləmə Komitəsinin üzvü seçilib.

BTİ Konstitusiyasına əsasən, Şuranın üzvləri Səlahiyyətli Konfrans tərəfindən ədalətli coğrafi bölgü prinsipi nəzərə alınmaqla seçilir. Radio Tənzimləmə Komitəsinin üzvləri isə təşkilata üzv dövlətlərin irəli sürdüyü namizədlər arasından müəyyən edilir.

*XQ*

# Çindən yeni vaqonlar alınacaq

**AZCON Holding şirkətlərindən olan "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov Çin Xalq Respublikasına səfəri çərçivəsində bu ölkənin "CRRC Zhuzhou Locomotive Co., Ltd." şirkətində olub, şirkətin rəhbəri Van Çiaolin ilə görüşüb. ADY-dən verilən məlumata görə, görüşdə Azərbaycanda dəmir yolu ilə sərnişindaşımanın inkişafı və müasir hərəkət tərkibi parkının genişləndirilməsi müzakirə olunub. Qeyd edilib ki, dünyada hərəkət tərkiblərinin istehsalı üzrə aparıcı şirkətlərdən biri olan "CRRC Zhuzhou" ADY ilə əməkdaşlığın inkişafında maraqlıdır.**

ADY sədri Rövşən Rüstəmov bildirib ki, Azərbaycanda dəmir yolu nəqliyyatının modernləşdirilməsi sərnişinlərə daha rahat, təhlükəsiz, etibarlı və dayanıqlı xidmət göstərilməsi baxımından prioritet istiqamətlərdəndir: "ADY-nin hədəflərindən biri artan sərnişin tələbatına çevik cavab verən müasir hərəkət tərkibi parkı formalaşdırmaqdır. Yeni sərnişin qatarlarının alınması üzrə danışıqlar həm şəhərətrafı, həm də rayonlararası marşrutlarda xidmət keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır".



Görüşdə Azərbaycanın dəmir yollarında rayonlararası istiqamətlər üzrə istifadə olunacaq 4 ədəd yeni sərnişin qatarının ilə alınması bağlı danışıqlar aparılıb, "CRRC Zhuzhou" tərəfindən təqdim olunan qatarlara baxış keçirilib. Tərəflər hərəkət tərkiblərinin texniki parametrləri, enerji səmərəliliyi, süni intellektlə çalışan müasir təhlükəsizlik sistemləri, istismar dayanıqlılığı, ehtiyat hissələri ilə təminat, texniki xidmət və təlim imkanları üzrə fikir mübadiləsi aparıblar.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində 20 ədəd sərnişin qatarının alınması məsələsi də müzakirə olunub. Çin tərəfinin bu istiqamətdə təklifləri dinlənilib, layihənin texniki, kommersiya və icra mexanizmləri barədə fikir mübadiləsi aparılıb.

ADY nümayəndə heyəti həmçinin "CRRC Nanjing Puzhen Co." şirkətində olub, bu şirkətin rəhbəri Yan Qi ilə görüşüb. Bildirilib ki, "CRRC Nanjing Puzhen Co., Ltd." sərnişin vaqonları, elektrik qatarları və digər hərəkət tərkiblərinin istehsalı sahəsində geniş təcrübəyə malikdir. Şirkətin bu sahədə texnoloji imkanları ADY-nin sərnişindaşıma parkının modernləşdirilməsi üzrə gələcək layihələri üçün əməkdaşlıq perspektivlərini aktuallaşdırır.

Görüş zamanı 4 ədəd yeni sərnişin qatarının və 50 ədəd sərnişin vaqonunun alınması ilə bağlı texniki və kommersiya məsələləri geniş müzakirə olunub. Tərəflər qatar və vaqonların texniki xüsusiyyətləri, təhlükəsizlik sistemləri, sərnişin komfortu və texniki xidmət imkanları, ehtiyat hissələri ilə təminat, həmçinin personalın təlimi və texnologiya transferi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

*XQ*

# Azərbaycan–İsrail innovasiya dialoqu

**İnnovasiya sahəsində fəaliyyət göstərən Azərbaycan nümayəndə heyəti Şimon Peres Sülh və İnnovasiya Mərkəzini ziyarət edib. Səfər çərçivəsində nümayəndə heyətinə mərkəzin fəaliyyəti, İsrailin innovasiya ekosistemi, startap mədəniyyəti və yüksək texnologiyalar sahəsində əldə olunan uğurlar barədə ətraflı məlumat təqdim olunub. Bildirilib ki, Şimon Peres Sülh və İnnovasiya Mərkəzi İsrailin sabiq Prezidenti və Nobel Sülh Mükafatı laureatı Şimon Peresin irsini yaşatmaq məqsədilə yaradılıb.**



Mərkəz innovasiya, texnologiya, təhsil və sahibkarlığın inkişafını təşviq etməklə yanaşı, sülh və beynəlxalq əməkdaşlıq ideyalarının təşviqi istiqamətində də fəaliyyət göstərir.

Qeyd olunub ki, mərkəzdə İsrailin "Startap ölkəsi" modelini əks etdirən interaktiv ekspozisiyalar nümayiş etdirilir. Burada ölkənin elm, yüksək texnologiyalar, süni intellekt, kibertəhlükəsizlik, kənd təsərrüfatı, su idarəçiliyi və tibb sahələrində qazandığı nailiyyətlər ziyarətçilərə təqdim olunur.

Dialoq zamanı tərəflər innovasiya ekosistemlərinin inkişafı, startapların dəstəklənməsi, texnologiya transferi, elmi-tədqiqat sahəsində əməkdaşlıq, eləcə də innovativ həllərin kommersiyalaşdırılması istiqamətində əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Görüşdə gələcəkdə birgə layihələrin həyata keçirilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi və innovasiya mərkəzləri arasında əlaqələrin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti mərkəzin interaktiv sərgi zalları, innovasiya ekspozisiyaları və İsrailin texnoloji inkişaf yolunu əks etdirən nümayiş bölmələri ilə də yaxından tanış olub.

*XQ*

**Prezident İlham Əliyevin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı" aqrar sahədə keyfiyyətcə yeni inkişaf mərhələsinin əsas istiqamətlərini müəyyənləşdirən mühüm sənəddir. Yeni Dövlət Proqramı kənd təsərrüfatında məhsuldarlığın, gəlirliliyin və rəqabət qabiliyyətinin artırılmasını, emal imkanlarının və ixrac potensialının genişləndirilməsini, su və torpaq ehtiyatlarından daha səmərəli istifadə olunmasını, müasir suvarma texnologiyalarının tətbiq edilməsini, toxumçuluq və damazlıq bazasının gücləndirilməsini, eləcə də yüksək əlavə dəyər yaradan intensiv inkişaf modelinə keçidin sürətləndirilməsini nəzərdə tutur.**

# Aran günəşi, dağ havası və zəhmət Göygöldə bolluq göyərdir

*Əməkdaşımız ezamiyyətdən qayıdıb*



Sənəddə aqrar sahədə məhsuldarlığın və əlavə dəyərin yüksəldilməsi, müasir və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsi əsas hədəflər kimi müəyyənləşdirilib. Eyni zamanda, proqram çərçivəsində buğda istehsalında məhsuldarlığın artırılması, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, kənd təsərrüfatı texnikası parkının yenilənməsi, lazer hamarlama texnologiyalarının tətbiqinə xüsusi önəm verilməsi, saxlama və logistika infrastrukturunun gücləndirilməsi, intensiv bağçılıq və heyvandarlığın inkişafı üzrə kompleks layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

Fermerlər və sahibkarlar üçün nəzərdə tutulan dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi də proqramın əsas istiqamətlərindən biridir. Bura subsidiya və güzəştli maliyyələşdirmə modellərinin genişləndirilməsi, soyuducu anbar və taxıl silolarının yaradılmasına dəstək göstərilməsi, damazlıq və yem bazasının möhkəmləndirilməsi kimi tədbirlər daxildir. Bu yanaşma aqrar istehsalın təkcə həcminin deyil, həm də keyfiyyətinin, dayanıqlılığının və bazar rəqabətliliyinin artırılmasına xidmət edir.

## Dövlət dəstəyi fermerlərə güc verir

Son illər ölkəmizdə kənd təsərrüfatının inkişafına dövlət tərəfindən sistemli və çoxşaxəli dəstək göstərilir. Aqrar sahəyə müxtəlif istiqamətlər üzrə subsidiyaların ayrılması, güzəştli kredit və lizinq mexanizmlərinin tətbiqinin diqqətdə saxlanılması, texniki təminatın yaxşılaşdırılması, suvarma infrastrukturunun yenilənməsi kənd təsərrüfatı məhsullarının istehsal və ixrac imkanlarının genişlənməsinə ciddi təkan verib.

Konkret inkişaf hədəflərini stimullaşdırmağa yönələn subsidiya siyasəti bir tərəfdən istehsal xərclərinin müəyyən hissəsinin dövlət tərəfindən qarşılanmasına imkan yaradıb, digər tərəfdən isə müasir suvarma sistemlərinin tətbiqi hesabına su və torpaq resurslarından səmərəli istifadəyə, xarici bazarlarda rəqabətdavamlı məhsul istehsalının artmasına müsbət təsir göstərib. Nəticədə, aqrar sahədə çalışan insanların gəlirləri yüksəlib, kənd yerlərində məşğulluq genişlənib, əhalinin rifahı nəzərəçarpacaq dərəcədə artıb.

Bu baxımdan Göygöl rayonu dövlətin aqrar siyasətinin real nəticələrinin aydın müşahidə olunduğu bölgələrdən biridir. Son illər burada kənd təsərrüfatı istehsalının həcmi çoxalıb, intensiv və superintensiv bağçılıq sahələrinin yaradılması sürətlənib, müasir suvarma sistemlərinin tətbiqinin, əkin dövriyyəsinin səmərəliliyinin artırılması və fermerlərin dövlət dəstəyi mexanizmlərindən istifadəsinin genişləndirilməsi istiqamətində ardıcıl layihələr həyata keçirilib. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası ilə bu müsbət dinamikanın daha da güclənəcəyinə, kənd təsərrüfatı istehsalının davamlı şəkildə yüksələcəyinə və ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə böyük əminlik yaranıb.

**Göygöl Aqrar İnkişaf Mərkəzinin (AİM) direktoru Azər Hacıyev** söhbət



zamanı bildirdi ki, dövlətin aqrar siyasətinin əsas istiqamətlərindən biri bölgələrdə məşğulluq səviyyəsinin yüksəldilməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və fermer təsərrüfatlarının iqtisadi dayanıqlılığının gücləndirilməsidir. Onun sözlərinə görə, aqrar sahəyə subsidiyalar şəklində göstərilən dövlət dəstəyi bölgələrin sosial-iqtisadi inkişafını sürətləndirir, kənd yerlərində istehsal fəallığını artırır və yeni təsərrüfat istiqamətlərinin formalaşmasına imkan yaradır.

Azər Hacıyev qeyd etdi ki, Göygölün əlverişli aqroiqlim şəraiti kənd təsərrüfatının müxtəlif istiqamətlərinin, o cümlədən giləmeyvəçiliyin inkişafı üçün geniş imkanlar açır. Onun sözlərinə görə, bu sahəyə subsidiyaların artırılması rayonda moruq, böyürtkən və digər giləmeyvə bitkilərinin becərilməsinə ciddi maraq yaradır.

AİM-nin direktoru vurğuladı ki, aqrar sahəyə dövlət dəstəyi prosesinin tam elektronlaşdırılması, başqa sözlə, subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə verilməsi fermerlərin bu maliyyə imkanlarından istifadəsini xeyli asanlaşdırıb. Payızlıq və yazlıq əkinlərin, eləcə də çoxillik əkmələrin EKTİS-də vaxtında bəyan olunmasının vacibliyini önə çəkən Azər Hacıyev bildirdi ki, bu prosesdə fermerlərə hərtərəfli texniki dəstək göstərilməsi və onların subsidiyalardan yararlanması bu sahədəki mövcud vəziyyəti daha da yaxşılaşdırıb.

Onun sözlərinə görə, fermerlər kənd təsərrüfatı texnikası və müasir suvarma sistemləri alarkən həmin məhsulların gömrük dəyərinin 20 faizi həcmində ilkin ödəniş edirlər, məbləğin 40 faizi dövlət tərəfindən subsidiyalaşdırılır, qalan 40 faizi isə Aqrar Kredit və İnkişaf Agentliyi ilə tərəfdaşlıq edən bank və bank olmayan kredit təşkilatları tərəfindən kreditləşdirilir. Kreditin əsas hissəsi 60 ay ərzində fermerlər tərəfindən ödənilir, faiz yükünü isə dövlət öz üzərinə götürür. Analoji mexanizm müasir suvarma sistemlərinin alınmasına da şamil edilir. Damazlıq heyvan alışı zamanı isə dövlət dəstəyi 60 faizə yüksəlir.

Azər Hacıyev onu da diqqətə çatdırdı ki, rayonda bu dəstək mexanizmlərindən istifadə etməklə texnika və müasir suvarma sistemləri alan, böyük heyvandarlıq təsərrüfatları yaradan fermerlərin sayı artır. O, həmçinin kənd və qəsəbələrdə, eləcə də AİM-in inzibati binasında keçirilən görüşlərdə fermerlərə subsidiyalaşma, güzəştli kreditləşmə və EKTİS-də qeydiyyat prosedurları barədə ətraflı məlumat verildiyini, müvafiq elanların sistem üzərindən yerləşdirildiyini bildirdi.

## Torpaq canlı müəssisədir

Göygöl Aqrar İnkişaf Mərkəzinin məlumatına görə, rayonda 13 min hektar əkin təyinatlı torpaq sahəsi mövcuddur. Bunun 9 min hektarı suvarılan, 4 min hektarı isə dəmyə ərazilərdir. Eyni zamanda, 44 min 574 hektar dövlət, 30 min 381 hektar bələdiyyə və 16 min 723 hektar xüsusi mülkiyyətdə torpaq sahəsi var.

Cari təsərrüfat ilinin məhsulu üçün 5 min 303 hektar sahədə taxıl səpini aparılıb. Bunun 3 min 344 hektarı suvarılan, 1959 hektarı isə dəmyə sahələrdir. Əkin sahəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 446 hektar artıb. Ötən il 4 min 857 hektar taxıl sahəsindən 14 min 899 ton məhsul əldə olunub, orta məhsuldarlıq hər hektardan 30,6 sentner təşkil edib. Bu göstərici əvvəlki illə müqayisədə 4 sentner çoxdur. Son illərin müqayisəli təhlili də rayonda taxılçılıqda məhsuldarlığın artımının davamlı xarakter aldığını və bunun həm aqrotexniki tədbirlərin keyfiyyətinin yüksəlməsi, həm də dövlət dəstəyi mexanizmlərinin səmərəliliyi ilə bağlı olduğunu göstərir.

Rayonun Aşıqlı, Yeni Zod, Toğanalı, Çaykənd, Göyçəkənd, Qarabulaq, Sarısu, Mollacəlilli, Topalhəsənli, Tülallar, Zurnabad, Şəhriyar, Dozular və Pənahlılar inzibati ərazi dairələrini əhatə edən torpaq sahələri, eləcə də Göygöl şəhərinin bir hissəsi dəmyə ərazilərdir. Hacıməlik, Çaylı, Üçtəpə, Qızılqaya, Yeni Qızılca, Quşqara, Qırıqlı, Balçılı, Xaqani, Nadil və Əlimədədli inzibati ərazi dairələrinin torpaqları isə əsasən suvarılan ərazilər hesab olunur.

Göygöldə əkin sahələrinin suvarılması əsasən Gəncəçay, Kürəkçay, Qoşqarçay, Şəmkirçay su anbarı, eləcə də rayonun 20 kəndinin ərazisində mövcud olan subartezian quyuları vasitəsilə həyata keçirilir. Rayonda suvarmada həm ənənəvi, həm



də damcı suvarma sistemlərindən istifadə olunur. Müasir suvarma texnologiyalarının genişləndirilməsi isə su itkilərinin azaldılması, məhsuldarlığın yüksəldilməsi və iqlim dəyişikliklərinin təsirlərinə qarşı dayanıqlılığın artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

## Üzümçülük və meyvəçilik

Göygöl rayonunun əlverişli təbii-coğrafi şəraiti burada üzümçülüyün inkişafına əlverişli imkan yaradır. Bu təsərrüfat sahəsi həm də sakinlərin il boyu məşğulluğunun təmin edilməsində mühüm rol oynayır. Rayon ərazisində 718 hektar suvarılan üzüm bağı mövcuddur. Bunun 706 hektarı "Kaberne-Sovinyon", "Merlo", "Şardone", "Sirah", "Sovinyon blank", "Saperavi", "Mədrəsə", "Bolqar", "Bayanşirə" və "Kardinal" kimi texniki sortların, 11,5 hektarı isə "Təbriz" süfrə üzüm sortunun payına düşür. Ötən il üzüm bağlarından 4 min 632 ton məhsul toplanması da üzümçülüyün rayonda gəlirli və perspektivli sahə olaraq mövqeyini qoruduğunu göstərir.

Göygöldə meyvəçilik də dinamik inkişaf edir. Hazırda rayon ərazisində 799 hektar meyvə bağı var. İntensiv və superintensiv bağçılığa maraq getdikcə artır. Hazırda rayon ərazisində 350 hektar intensiv üsulla becərilən meyvə bağı mövcuddur. Bu bağlarda əsasən xarici ölkələrdən gətirilmiş şaftalının "Bablione", "Samanta", "Salami", "Plane Summer", "Plane Super", əriyin "Pricia", "Santa Rosa" sortları, həmçinin xurmanın "Rojo Brillante" sortu becərilir. Bununla yanaşı, rayonda 59 hektar sahədə müasir üsulla salınmış qoz bağı da mövcuddur. Meyvə bağlarının suvarılmasında əsasən ənənəvi və damcı suvarma sistemlərindən istifadə olunur.

Yüksək məhsuldarlıq əldə etmək məqsədilə suvarılan ərazilərdə kənd təsərrüfatı bitkilərinin əkini zamanı növbəli əkin sisteminin tətbiqinə üstünlük verilir. Bu model torpağın münbitliyinin qorunmasına, xəstəlik və zərərvericilərin yayılma təhlükəsinin azalmasına, məhsuldarlığın yüksəlməsinə şərait yaradır. Rayonda əsasən günəbaxan, qarğıdalı və tərəvəz bitkiləri növbəlilik prinsipi əsasında becərilir.

Bununla yanaşı, rayon ərazisində əkilmiş payızlıq taxıl sahələrində zərərvericilərə, xəstəliklərə və alaq otlarına qarşı mübarizə tədbirlərinin vaxtında və keyfiyyətlə aparılması da diqqət mərkəzində saxlanılır. Bu məqsədlə rayon Bitki Mühafizə və Fumiqasiya Mərkəzinin mütəxəssislərinin iştirakı ilə mütəmadi olaraq əkin sahələrinə baxış keçirilir. Taxıl sahələrində daha çox taxıl böcəyi, gəmiricilər, sarı pas xəstəliyi və alaq otlarına qarşı kimyəvi mübarizə tədbirləri görülür. Gəmiricilərə qarşı kimyəvi mübarizə isə dövlət vəsaiti hesabına aparılır ki, bu da fermerlərin xərclərinin azaldılması baxımından mühüm əhəmiyyət daşıyır.

Göygöldə aqrar sahənin inkişafı təkcə fərdi fermer təsərrüfatları ilə məhdudlaşmır. Rayonda iri təsərrüfat və emal subyektləri də fəaliyyət göstərir. Bunlar sırasında "Şirinaqro" QSC-nin meyvəçilik, "Azəraqrar Dövlət İstehsalat və Emal Birliyi" MMC-nin bitkiçilik və heyvandarlıq, "Aqri-Azərinvest" MMC-nin üzümçülük, "Göygöl" Şərab Zavodu ASC-nin üzümçülük və şərabçılıq, "Az-Ros Garden" QSC-nin isə meyvəçilik sahəsində fəaliyyəti xüsusi qeyd oluna bilər. Bu müəssisələr rayonda aqrar istehsalın sənaye əsaslı inkişafına, emal imkanlarının genişlənməsinə, məşğulluğun artmasına və məhsulların bazara çıxış imkanlarının güclənməsinə mühüm töhfə verir.

## Yüksəlişin astanasında

**Fermer Fuad Zalov** hesab edir ki, kənd təsərrüfatına marağın daha da artırıl-



ması və məhsul istehsalının genişləndirilməsi üçün subsidiya mexanizmləri təkcə əkin sahəsinin həcminə görə deyil, həm də məhsuldarlıq və istehsal göstəricilərinə əsasən təkmilləşdirilməlidir. Onun fikrincə, kiçik torpaq sahələrinə malik fermerlərin də həvəsləndirilməsi vacibdir. Bu baxımdan həyətyanı sahələrdə məhsul becərən ailə təsərrüfatlarına da maddi dəstək göstərilməsi məqsədəuyğun olardı. Bununla yanaşı, fermerlərin əkin işlərinə marağını daha da artırmaq üçün hər hektar əkin sahəsinə görə verilən subsidiyanın məbləğinin çoxaldılması da zəruri addımlardan biridir.

Fuad Zalovun sözlərinə görə, bu gün həm məhsul istehsalının artırılmasına, həm də fermerlərin rifahının yüksəldilməsinə ciddi ehtiyac var. Bunun üçün fermerlərin istehsal etdikləri məhsulun bazarlara çıxarılmasını stimullaşdırmaq məqsədilə satışa yönəldilən məhsulun müəyyən hissəsinə əlavə subsidiya mexanizminin tətbiqi nəzərdən keçirilə bilər. Eyni zamanda, müasir dövrdə orqanik məhsul istehsalının genişləndirilməsi də mühüm prioritetlərdəndir. Bu məqsədlə orqanik bağçılığa xüsusi dövlət dəstəyi göstərilməsi, kimyəvi vasitələrdən minimum istifadə edən, ekoloji təmiz məhsul yetişdirən təsərrüfatlar üçün ayrıca subsidiya mexanizminin yaradılması məqsədəuyğun olardı.

Fermerlərin üzləşdiyi əsas problemlərdən biri də məhsul itkisidir. Bu baxımdan iri istehsalçıların məhsullarının saxlanılması, itkilərin minimuma endirilməsi və satış imkanlarının genişləndirilməsi üçün anbarların, soyuducu kameraların və logistika infrastrukturunun yaradılmasına dövlət dəstəyi gücləndirilməlidir. Bununla yanaşı, sıradan çıxmış suvarma sistemlərinin bərpası, meyvə bağlarının genişləndirilməsi üçün tingçilik təsərrüfatlarının yaradılması da birbaşa subsidiya və maliyyə dəstəyi tələb edən istiqamətlərdəndir. Bütün bunlar kənd təsərrüfatında dayanıqlı artımın təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

**Fermer Rəfail Mustafayev** isə bildirir ki, iri fermer təsərrüfatlarında texnikadan



səmərəli istifadə və gübrənin vaxtında əldə olunması üçün əkin mövsümü başlanmazdan əvvəl ayrılacaq subsidiyanın müəyyən hissəsinin qabaqcadan ödənilməsi vacibdir. Onun fikrincə, identifikasiya edilmiş və Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyata alınmış hər baş iri və xırdabuynuzlu heyvana görə subsidiyanın verilməsi də diqqətdə saxlanılmalıdır. Bu, bir tərəfdən fermerlərə əlavə dəstək olar, digər tərəfdən isə heyvandarlıq təsərrüfatlarında yem təminatının yaxşılaşdırılmasına və məhsuldarlığın artmasına müsbət təsir göstərər.

Rəfail Mustafayevin qənaətinə görə, süd istehsalının artırılması məqsədilə fermerlərin emal müəssisələrinə və satış məntəqələrinə təhvil verdikləri hər litr süd üçün əlavə ödəniş mexanizminin tətbiqi də məqsədəuyğundur. Oxşar təşviq mexanizmi qoyunçuluq təsərrüfatlarında da tətbiq oluna bilər. Belə ki, yeni yem tədarükü məntəqələrinin yaradılması, həmin məntəqələrə təhvil verilən hər kiloqram yun üçün subsidiyanın və ya əlavə ödənişin verilməsi bu sahənin inkişafına ciddi təkan verə bilər.

Süni mayalanma fəaliyyətinin genişləndirilməsi, yüksək məhsuldar balaların alınmasının stimullaşdırılması məqsədilə hər sağlam buzova görə verilən subsidiyanın məbləğinin artırılması da vacib məsələlərdəndir. Eyni zamanda, yüksək məhsuldar cins heyvanlara marağın artırılması, onların bəslənməsi və saxlanma şəraitinin yaxşılaşdırılması üçün cins heyvanlardan alınan buzovlara görə də dövlət tərəfindən əlavə maddi dəstək göstərilməsi faydalı olardı.

Arıçılıq sahəsinin inkişafı da diqqətdə saxlanılmalıdır. Arı ailələrinin sayının və bal istehsalının artırılması üçün hər arı ailəsinə görə subsidiyanın verilməsi, eləcə də bal istehsalçılarına zəruri avadanlıqların alınması istiqamətində maliyyə dəstəyinin gücləndirilməsi məqsədəuyğundur. Bundan başqa, balıqçılıq və akvakultura sahəsində istehsalın artırılması üçün balıq yetişdirmə təsərrüfatlarının, o cümlədən süni göllərin yaradılması zamanı subsidiyalaşdırma prosedurlarının sadələşdirilməsi və bu sahəyə investisiya təşviqlərinin artırılması da vacib məsələlərdən biridir.

Beləliklə, bütün bunlar göstərir ki, Göygöl rayonunda kənd təsərrüfatının inkişafı artıq təkcə ənənəvi istehsalın davam etdirilməsi ilə məhdudlaşmır, daha çox məhsuldarlıq, texnoloji yenilənmə, ixracyönümlülük və əlavə dəyər yaradan istehsal modelinə keçid istiqamətində formalaşır. Prezident İlham Əliyevin təsdiq etdiyi 2026–2030-cu illər Dövlət Proqramı da məhz bu keçidin sürətləndirilməsinə xidmət edir.

Proqramın icrası nəticəsində rayonda suvarma infrastrukturunun daha da yaxşılaşdırılması, müasir texnika və texnologiyaların tətbiqinin genişlənməsi, toxumçuluq və damazlıq bazasının gücləndirilməsi, saxlama və emal imkanlarının artırılması, intensiv bağçılıq və heyvandarlığın inkişafı üçün əlavə imkanlar yaranacaq. Bu isə, öz növbəsində, kənd təsərrüfatı istehsalının həcmini və keyfiyyətini artırmaqla yanaşı, fermer gəlirlərinin yüksəlməsinə, kənd yerlərində məşğulluğun genişlənməsinə, ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə və qeyri-neft ixracının artımına xidmət edəcək.

Göygölün timsalında aydın görünür ki, dövlətin aqrar sahəyə göstərdiyi ardıcıl və məqsədyönlü dəstək kənd yerlərinin inkişafında, torpaqdan səmərəli istifadədə, müasir kənd təsərrüfatı modelinin formalaşmasında və regionların iqtisadi potensialının artırılmasında mühüm rol oynayır. Yeni Dövlət Proqramı isə bu inkişafın daha sistemli, daha dayanıqlı və daha yüksək nəticələrə hesablanmış mərhələsinin əsasını qoyur.

***Vaqif BAYRAMOV***
***XQ***

**Göygöl**

*Aqrar proqramın hədəfləri*

# Qubanın bağlarında bərəkət mövsümü

## *Meyvəçilik yenidən qazanclı məşğuliyyətə çevrilir*

**Yolumuz bağlar diyarı Quba rayonunadır. Məqsədimiz son illər ərzində bu bölgədə meyvəçilik sahəsində görülən işlər, əldə olunan uğurlar, aqrar proqramın qarşıya qoyduğu hədəflərlə bağlı bağban və fermerlərin qarşısında duran vəzifələrdən söz açmaqdır. Keçirdiyimiz görüş və söhbətlərdən hiss olunurdu ki, torpağı əkib-becərən əmək adamlarının da jurnalistlərin, qələm əhlinin, daha geniş mənada, ziyalıların mənəvi dəstəyinə ehtiyacı var.**



Bağbanlarla söhbət zamanı onların dilindən "mətbuat bizi bəzən unudur" kimi haqlı gileylər də eşitmək olurdu. Hörmətli oxucu, bu, başqa bir söhbətin mövzusudur və gələcək nömrələrimizdə bu haqda söz açacağıq.

Bu barədə Qubada meyvəçiliyin inkişafını mövzu seçməyimiz də təsadüfi deyil. Prezident İlham Əliyevin təşəbbüsü və sədrliyilə keçirilən müşavirədə dövlətimizin başçısı ölkədə kənd təsərrüfatının bundan sonra da sürətli inkişafının təmin edilməsi məqsədilə müvafiq qurumların rəhbərləri qarşısında mühüm vəzifələr irəli sürüb. Möhtərəm Prezidentin müşavirədki parlaq nitqində səslənən dəyərli fikirlər, tövsiyə və təkliflər ölkədə aqrar sektorun inkişafının keyfiyyət etibarı ilə daha yüksək səviyyəyə yüksəldilməsi üçün proqram xarakteri daşıyır. Bu sahədə qəbul olunan, 2026-2030-cu illər ərzində icrası planlaşdırılan Dövlət Proqramının uğurla həyata keçiriləcəyi də heç kəsdə zərrə qədər şübhə doğurmur.

Qeyd etmək lazımdır ki, aqrar müşavirənin ardınca Azərbaycanın bir çox rayonlarında, eləcə də Qubada şimal zonasına daxil olan rayonların rəhbər işçilərinin, aqrar sektorda çalışan təcrübəli mütəxəssis və qabaqcıl fermerlərin fəal iştirakı ilə zona müşavirəsi təşkil olunub. **Milli Məclisin Quba rayonundan seçilən deputatı, iqtisad elmləri doktoru Əlibala Məhərrəmzadə** dedi ki, aqrar sektorun inkişafı bu gün Azərbaycan dövlətinin prioritetlərindən biridir və ölkə rəhbərliyi bu istiqamətdə davamlı uğurların əldə olunmasında qərarlıdır.





Bu sahədə çalışan əksər əmək adamları da dövlətimizin, şəxsən Prezident İlham Əliyevin Azərbaycan kəndinin inkişaf və tərəqqisinə xüsusi və davamlı diqqət və qayğı göstərməsindən dərin məmnunluq hissi keçirmələrini fəxarətlə dilə gətirirlər. Ən başlıcası, onlar yüksək və pozitiv dinamika alan bu prosesin fəal iştirakçılarına çevrilirlər. Əlbəttə, böyük uğurlar davamlı, düşünülmüş səmərəli, əməli addımlar nəticəsində mümkün olur. Azərbaycanda bu istiqamətdə fəal siyasi iradə ortaya qoyulub və reallıq budur ki, cəmiyyətin böyük potensialı hərəkətə gətirilib.

Bu məqamda onu da deməliyəm ki, Quba Azərbaycanın təkcə təbii gözəlliyi ilə sayılıb-seçilən bölgələrindən deyil, bura həm də əməyə, torpağa qəlbən bağlı olan, əməksevər, işgüzar insanların yurdudur. **Quba Rayon Ağsaqallar Şurasının sədri, təcrübəli fermer İldırım Məmmədovla** söhbət zamanı ağsaqqalın dilindən eşitdiyim sözləri unutmaq mümkün deyil: "Qubalılar hər zaman Azərbaycan dövlətçiliyinə, ulu öndər Heydər Əliyevin milli dövlətçiliyimizin möhkəmlənməsinə, milli istiqlalımızın əbədi olmasına xidmət edən parlaq ideyalarına, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik daxili və xarici siyasət kursuna daim sadiq qalıblar və müstəqil ölkəmizin çiçəklənməsi naminə bundan sonra da əllərindən gələni edəcəklər".

Bəli, ölkəmizin gözəl və füsunkar guşələrindən olan Qubada bağbanların bağlarda böyük həvəslə qatıldıqları əmək prosesini müşahidə etmək, aqrar sektorda qazandıqları qələbələrdən söz açmaq xoşdur. "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşovun ezamiyyətə yola düşərkən dönə-dönə söylədiyi sözlər də yadımdadır:

– Qubanın aqrar sektordakı uğurlarını göstərmək üçün sizə mütləq insanlarla görüşüb onların arzu və diləklərini qələmə almaq lazım gələcək. Çalış qələmə alacağın reportajda rayonun əmək ritmi, bağbanların əhvali-ruhiyyəsi duyulsun!

...Beləcə, iyunun 23-də sübh tezdən Bakıdan Qubaya yola düşəndən məhz bu fikir və düşüncələrlə avtobusun pəncərəsindən Siyəzən və Şabran rayonunun ərazisinin bitdiyinin, artıq Qubanın kəndlərinin başlandığının fərqinə vardım. Əslində, Qubanın bağlar diyarı olması elə ilk andan hiss olunur. Belə ki, yolun hər iki tərəfində bir-birindən səliqəli meyvə bağları sıralanır, bəzən onları kiçik və nisbətən geniş otlaq əraziləri və ara-sıra artıq yetişdiyi sapsarı saralmış rəngindən bəlli olan taxıl zəmiləri əvəz edir, sonra isə yenə yamyaşıl bağlar başlayır. Demək olar ki, rayon mərkəzinədək daha çox alma, armud və gilas bağları bölgəyə təşrif buyuran insanları müşayiət edir.

Quba Rayon İcra Hakimiyyətində Bakıdan Qubanın uğurlarından yazmağa gələn "yaşlı jurnalisti" aşkar hiss olunan səmimiyyət və mehibanlıqla qarşıladırlar. Vaxt itirmədən işə keçirik. **Quba Rayon İcra Hakimiyyəti başçısı aparatının sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlili sektorunun baş məsləhətçisi Pərviz Zeynalov** rayonun sosial-iqtisadi göstəriciləri ilə bağlı bütün suallara ətraflı cavab verir. Məlum olur ki, hazırda rayonda 17 min hektardan çox köhnə və yeni salınmış meyvə bağları mövcuddur. Ötən il rayonda 155 min 726 ton məhsul istehsal olunub. Bu göstərici 2024-cü ildə olduğundan 6 min 176 ton və ya 4,1 faiz çoxdur. Üstəlik, rayonda meyvəçiliyin sürətli inkişafını davamlı olaraq təmin etmək üçün köhnə bağların yenilənməsi prosesi gedir. Pərviz müəllimin sözlərindən bəlli olur ki, son bir bir neçə ildə rayonda 2 min 40 hektar yeni bağ salınıb.

**Quba rayonunda ən uğurlu femerlərdən sayılan Bahadur Əhmədov** həyata 42 il əvvəl Bəhyə dağının ətəklərində, yaz-yay aylarında gur sulu Qaraçayın sağ sahillərində yerləşən İkinci Nügədi kəndində göz açıb. Onun başçılıq etdiyi fermer təsərrüfatı 20 hektar sahədə çeşidli meyvələr becərib yetişdirməklə məşğuldur. Hər il bu bağlardan bol məhsul toplamağın sirlərini yaxşı bilən Bahadur boy-buxunlu, simasından səmimiyyət və mehribanlıq yağan, deyib-gülməyi sevən, səmimi əmək adamıdır.

Bahadur Əhmədov İkinci Nügədi kənd orta məktəbində uzun illər əmək və fiziki təlim fənnindən dərs deyən Adəm müəllimin oğludur. Atası onu və qardaşını hələ uşaq yaşlarından halal əməyə dərin sevgi, hörmət ruhunda tərbiyə verərək böyüdüb. Onun rəhbəri olduğu fermer təsərrüfatındakı sahələrdə göz oxşayan barlı-bərəkətli meyvə, gilas və gavalı bağlarına baxaraq heyran qalmamaq qeyri-mümkündür.

O, bu bağlara ilk gündən meyil salıb, ilin bütün fəsillərində, demək olar ki, hər gün yağışa, qara, şaxtaya fikir vermədən, bağların, buradakı ağacların hər birinin "görüşü"nə gəlib. Alma, armud, gilas ağacları erkən yazda gül açanda dünyalar qədər sevinib, bağın barını-bəhərini artırmaq üçün hər bir bitkiyə ayrıca qayğı, qulluq göstərib, torpağın vaxtında suvarılmasına, sahələrin məqamında gübrələnməsinə fikir verib. İllər keçdikcə, nisbətən gənc olmasına rəğmən, rayonda ən səriştəli fermerlərdən biri kimi tanınıb, həmkarları arasında biliyi, səriştəsi ilə hörmət-izzət qazanıb. Amma heç vaxt atasının ona təlqin etdiyi kimi, özünü öyməyib, hər zaman biliklərini artırmağa çalışıb.

Bahadur həm də səmimi, mehriban həmsöhbətdir. İyun ayının 24-də saat 12 radələrində onunla bağda görüşən anlarda hava çox xoş idi. Əvvəlcə, fermerin təxminən 7-8 il əvvəl saldığı gilas bağlarını gəzdik. Günəşin hərarətini canına hopdurub budaqlardan sallanan iri gilasları görüb sevindim. Fermerin bağlarda builki əməyi də öz bəhrəsini verib. Meyvəçi qızlar isə böyük həvəslə məhsulu toplamaqla məşğul idilər.

Söhbət Qubada keçirilən zona müşavirəsindən düşdü. Bahadur Əhmədov fəxrlə dedi:

– Qubadakı zona müavirəsinin iştirakçısı olmuşam. Sağ olsunlar, toplantının sonunda biz fermerlərə arzu, təkliflərimizi bildirmək üçün şərait yaratdılar. Mən 2 təkliflə çıxış etdim. Birincisi, qeyd etdim ki, bəzən fermerlər sahələrdə zəruri tikinti işləri həyata keçirməli olurlar. Bu zaman həmin obyektlərə elektrik xətləri çəkmək lazım gəlir. Bununla bağlı hazırkı tariflər isə yüksəkdir. Bunun üçün fermerlərə müəyyən güzəştlər edilməlidir.

– Bəs ikinci təklifin nə ilə bağlı idi?

– Qoy hələ birinci təklifimlə bağlı fikrimi başa çatdırım. Təsəvvür edirsiniz, bu günlərdə möhtərəm Prezidentin bu məsələ ilə bağlı sərəncamı çıxıb. Sənəddə qeyd olunur ki, 2027-ci il yanvarın 1-dən bu məsələdə fermerlərə güzəştlər tətbiq ediləcək. Mən möhtərəm dövlət başçısına buna görə son dərəcə minnətdaram. Yaxın vaxtlarda biz öz fermer təsərrüfatımızda ayrıca iri meyvə soyuducu anbar inşa etdirmək istəyirik. Bu sərəncamdan sonra artıq bağlara elektrik xətlərinin çəkilməsi ilə bağlı xərclərimiz xeyli azalacaq.

Bahadur Əhmədov sonra növbəti sualımı gözləmədən ikinci təklifini də dedi:

– Bilirsinizmi, hazırkı qanunvericiliyə görə, sahələrə dolu düşən zaman fermerlərə müəyyən güzəştlər edilir. Bu il şimal zonasında hava çox yağıntılı keçib. Bizdə bağların örtüklənməsinə kəskin ehtiyac var. Müşavirədə xahiş etdim ki, yağışla bağlı da şimal zonasındakı fermerlərə subsidiyalar ayrılsın.

Bahadur Əhmədov ümud edir ki, müvafiq qurumlar bu məsələdə də fermerlərin çətinliklərini nəzərə alacaqlar və problem öz mübət həllini tapacaq.

Fermer bizimlə söhbətin sonunda möhtərəm Prezidentimizin rəhbərliyi ilə aqrar sektorda görülən işləri diqqətlə izlədiyini, ölkəmizin digər sahələrdə olduğu kimi, bu istiqamətdə də ciddi irəliləyişlər əldə edəcəyinə zərrə qədər şübhə etmədiyini əminliklə bildirdi:

– Prezident İlham Əliyev hansı işi irəli çəkirsə, orada uğur, qələbə qazanılıb. Dövlətimizin fermerlərə hərtərəfli və əməli dəstəyi imkanlarımızı daha da genişləndirir.

Bahadur Əhmədovdan hazırda ən böyük arzusunun nə olduğunu soruşdum. Sualım ürəyincə oldu:

– Qazandığımız uğurlarla dövlət başçısını razı salmaqdan böyük nə ola bilər? Mənim və aqrar sektorda çalışan bütün bağban və fermerlərin uğurları, ilk növbədə, dövlətimizin, şəxsən ölkə başçısının müdrik siyasətinin nəticəsində mümkün olub. Bu gün insanlar halal zəhmətlə ailələrini dolandırırlar. Buna görə, möhtərəm Prezidentə dərin minnətdarlığımı bildirmək istəyirəm.

***Məsaim ABDULLAYEV***
***XQ***

**Quba**



# Zəfər yolunun vüsal köçləri

## *Xankəndi, Xocalı və Ağdərəyə 180 nəfərdən ibarət 44 ailə də qayıtdı*



**İcrası uğurla davam etdirilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində dünən Xankəndi şəhərinə, Xocalı və Ağdərə rayonlarının bir sıra yaşayış məntəqələrinə növbəti köç gəlib. Daha 44 ailə məcburi köçkünlük həyatı ilə vidalaşaraq ata-baba yurdlarına dönüblər.**

Bu mərhələdə Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə 34 nəfərdən ibarət 8 ailə, Xocalı rayonunun Ballıca kəndinə 7 nəfər (2 ailə), Badara və Xanabad kəndlərinin hər birinə isə 5 nəfərdən ibarət olmaqla 2 ailə köçürülüb. Eyni zamanda, Ağdərə rayonunun Vəngli kəndinə 23 nəfər (4 ailə), Həsənrizə 53 nəfər (13 ailə) və Çıldıran kəndinə eyni sayda 13 ailə köç edib.

İndiyədək respublikanın müxtəlif bölgələrində, əsasən yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış vətəndaşlar doğma kənd və qəsəbələrində qarşılanaraq yeni mənzillərinin açarlarını təhvil alıblar.

Vətən həsrəti sona çatan sakinlər uzun illərdən sonra doğma yurdlarına qovuşmağın sevincini "Xalq qəzeti"nin oxucuları ilə bölüşüblər, hərtərəfli qayğı ilə əhatə olunduqlarına görə dövlət başçısına, torpaqlarımızı işğaldan azad edən qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər. Xankəndi şəhəri Kərkicahan qəsəbə sakini, Qarabağ müharibəsinin I qrup əlili, 76 yaşlı Vaqif Əsədov ailəsi ilə birlikdə uzun illər Gəncə Dövlət Regional Kollecin yataqxanasında məskunlaşdıqlarını, geri qayıdacaqları günə olan inamlarını bir gün olsa belə, itirmədiklərini dedi:

– Həyat yoldaşım, oğlum, gəlinim və 3 nəvəmlə bütün varlığımızla bağlı olduğumuz Kərkicahana qayıtdığım üçün çox xoşbəxtəm. Allaha şükürlər olsun, möhtərəm Prezidentimizin sayəsində ahıl yaşımda bu günləri görmək mənə qismət oldu. Sevincimizin həddi-hüdudu yoxdur. Gəlib çatanda üzümü dağalara tutub dedim ki, xoş gördük, əziz yurdumuz, biz də qayıtdıq!

Ailənin oğlu Səid Əsədov da təəssüratlarını paylaşdı:

– Bu elə bi möhtəşəm hissdir ki, ifadə etməkdə sözlər aciz qalır. Dövlətimiz var olsun, hər şəraiti olan beşotaqlı evlə təmin edilmişik, indi evə yerləşməklə məşğuluq. Daha bütün əziyyətli günlərimiz geridə qaldı, həyatımızda yeni mərhələ başlayır. Bundan sonra Kərkicahanın, Xankəndinin, ümumilikdə, Qarabağımızın inkişafı, çiçəklənməsi üçün əlimizdən gələni etməyə çalışacağıq. Allah belə qüruru və sevinci yaşamağı bütün arzulayanlara qismət etsin!

Qeyd edək ki, köç həyata keçirilən bütün yaşayış məntəqələrində sakinlərin rahat, təhlükəsiz şəkildə yaşamaları üçün hərtərəfli şərait yaradılıb, keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşdıqları ərazilər daimi içməli su, elektrik enerjisi, təbii qaz, yüksəksürətli rabitə xətti ilə təmin olunub.

Böyük Qayıdış çərçivəsində köç prosesi mərhələli şəkildə davam etdirilir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Ağdərə**

# Paytaxtda qanvermə aksiyası

**Bu il Məhərrəm ayının onuncu - Aşura günü iyunun 25-nə təsadüf edir. İslam tarixində xüsusi əhəmiyyətə malik olan Məhərrəm ayı hicri-qəməri təqviminin ilk ayıdır və müsəlmanlar üçün mənəvi dəyərlər, fədakarlıq, səbir və iman nümunələrinin xatırlandığı mühüm zaman kəsiyidir. Bu ay insanları öz mənəvi dünyalarına nəzər salmağa, xeyirxahlıq və mərhəmət hisslərini daha da gücləndirməyə çağırır.**



İslam dünyasının mühüm dini mərasimlərindən biri olan Aşura günü münasibətilə Dini Qrumlarla İş üzrə Dövlət Komitəsinin təşkil etdiyi qanvermə aksiyası ənənəvi hal alıb. Bu təşəbbüsün həyata keçirilməsində məqsəd Aşura ilə bağlı bəzi yanlış təsəvvür və adətlərin aradan qaldırılmasına, bu günün mahiyyətinin düzgün izahına, dini mərasimlərin xeyirxahlıq, yardımlaşma, insanpərvərlik dəyərləri əsasında təşviqinə töhfə vermək, sosial məsuliyyət hissini gücləndirməkdir.

Dünən Azərbaycan İlahiyyat İnstitutunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi, Qafqaz Müsəlmanları İdarəsi, Gənclər Fondu, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Respublika Qan Bankı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Mənəvi Dəyərlərin Təbliği Fondu, Bakı İlahiyyat Kolleci, Milli QHT Forumu, Qızıl Aypara Cəmiyyəti və Könüllü Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə qanvermə aksiyası keçirilib. Aksiyada dövlət rəsmiləri, qeyri-hökumət təşkilatlarının üzvləri, eləcə də müxtəlif dövlət qurumlarını təmsil edən 100-dək könüllü və ictimaiyyət nümayəndələri iştirak edib. Aksiya zamanı toplanan qan hemofiliya və talassemiya və digər xəstəliklərdən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

Aksiya iştirakçıları ölkəmizdə Məhərrəm ayında təşkil edilən könüllü qanvermə ənənəsinin əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, qanvermə aksiyası demək olar ki, respublikanın bütün bögələrini əhatə edir. Bir neçə ildir ki, bu siyahıya işğaldan azad olunmuş ərazilərimizdəki ibadət məkanları da daxil edilib. Ağdam Cümə məscidində və Şuşadakı məscidlərdə də qanvermə aksiyaları təşkil olunur. Aksiyada iştirak edənlərin sayının ilbəil artması insanların Aşuranın mahiyyətini daha düzgün dərk etməsinin göstəricisi və ölkədə aparılan maarifləndirmə işinin nəticəsidir.

***M.MUSTAFAYEV***
***XQ***

# Rəqəmsallaşma dövründə ana dilimizin saflığının qorunması daha önəmlidir

## *Beynəlxalq terminlər və onların qarşılıqları Azərbaycan dilinin potensial imkanları ilə uzlaşdırılmalıdır*

*(əvvəli 24 iyun tarixli sayımızda)*

**Cəmiyyətin düzgün termin seçiminə istiqamətləndirilməsi üçün hansı işlər görülür və Azərbaycan dilinin terminoloji bazasının zənginləşdirilməsi baxımından yeni terminlərin təsdiqi prosesi necə həyata keçirilir?**

**Akademik Nizami Cəfərov** – Cəmiyyətin düzgün termin seçiminə yönəldilməsi və yeni terminlərin təsdiqi prosesinə gəldikdə isə bir qanunauyğunluğu qeyd etmək istərdim. Beynəlxalq termin daim öz qlobal statusunda və ali məqamında dayanır. Potensial olaraq beynəlxalq terminlər bütün dillərə aiddir. Ehtiyac yarandıqda biz istənilən beynəlxalq termini dilimizdə istifadə edə bilərik. Hatta bu gün beynəlxalq terminlər lüğəti hazırlamaq fikrinə düşsək, dilimizdə işlənib-işlənməməsindən asılı olmayaraq bütün beynəlxalq terminləri dilimizin vahidi kimi lüğətə daxil etmək olar. Əgər hər hansı bir termin dilimizdə işlənmirsə, bu, sadəcə, hazırda ona ehtiyacın olmaması ilə bağlıdır, lakin sabah bu ehtiyac yarana bilər. Odur ki, "bu beynəlxalq termin dilimizdə var, o biri isə yoxdur" deyə kəskin bölgü aparmaq doğru deyil.









Bu problem vaxtilə I Türkoloji Qurultayda da gündəmə gətirilmişdi. İndi 100 illiyini qeyd etdiyimiz qurultayda terminologiya sahəsində məruzə edən böyük alim, professor Bəkir Çobanzadə belə bir mülahizə irəli sürmüşdü: biz çalışmalıyıq ki, orta məktəblərin aşağı siniflərində milli terminləri (yəni o dövrün ifadəsi ilə desək, Azərbaycan dialektindəki sözləri) işlədək. Yuxarı siniflərə doğru getdikcə isə tədricən ümumtürk terminologiyasını, ali məktəblərdə isə artıq beynəlxalq terminləri dövriyyəyə daxil edək.

Göründüyü kimi, hələ o dövrdə belə böyük alimlər dərk edirdilər ki, hər bir dildə terminologiya milli və beynəlmiləl səviyyədə mövcud olmalıdır və bu, qaçılmazdır. Lakin bu paralellikdə, istər-istəməz, beynəlxalq termin qalib gəlir. Çünki biz daha yüksək intellektual səviyyəyə çatdıqca, elmin də qlobal xarakterini nəzərə alsaq, beynəlxalq terminlər üstünlük təşkil edir.

Elm beynəlxalq xarakter daşıyır. Ona görə də biz bu sahədə istər-istəməz, get-gedə beynəlmiləlləşməni əsas meyar kimi götürməliyik.

**Professor Sayalı Sadıqova** – Termin yaradıcılığı prosesinin düzgün tənzimlənməsi dilin zənginləşmə prosesini, gələcək inkişaf perspektivlərini müəyyənləşdirir. Müxtəlif sahələrə aid anlayış və məfhumları adlandırmaq üçün dilin milli bazası ilə yanaşı, digər dillərdən terminlərin alınması yolu ilə tələbatın ödənilməsi əksər dünya dilləri üçün xarakterik haldır. İqtisadiyyatın, texnikanın, siyasi həyatın mürəkkəbləşməsi ilə meydana gələn, insanların təfəkküründə sözlərlə işarələnən yeni anlayışların adları milli dillərdə olmadıqda onu digər dillərdən almaq zərurəti yaranır. Belə yeni anlayışları adlandıran terminlərin yaranması üçün isə Azərbaycan dilinin müraciət etdiyi 3 əsas baza mövcuddur. Bunlardan biri dilin öz lüğət tərkibi, ikincisi, ümumtürk, üçüncüsü isə Avropa dilləri bazasıdır. Anlayışların adlandırılmasında alınmalar dilin kasıblığına dəlalət etmir, əksinə, onun dil kontaktları hesabına zənginləşməsinin göstəricisi kimi çıxış edir. Belə qarşılıqlı təsirlər dilləri məhdud milli çərçivədən çıxarır, xalqlar arasında əlaqələri artırır. Dillər arasında qarşılıqlı əlaqə təbii haldır və bu proses xalqlar arasında iqtisadi, siyasi, mədəni və digər əlaqələr əsasında meydana çıxır. Dünyada elə bir dilə rast gəlinmir ki, ancaq öz potensialı hesabına yaranan sözlərdən ibarət olsun. Bu faktorun əsasında dünya dillərində "dil əlaqəsi ənənəsi" dayanır, bu da bütün dünya dillərində mövcuddur.

Azərbaycan dilinin terminologiyasına daxil olan alınma terminlər dilimizin qrammatik qanunlarına uyğunlaşdırılır. Elmin, texnologiyanın son illərdəki inkişafı ilə bağlı Avropa dillərindən keçən terminlər Azərbaycan dilinin normalarına uyğunlaşdırılır.

**Professor Nadir Məmmədli** – Düzgün termin seçiminə istiqamətlənmə və terminoloji vahidliyin təmin edilməsi məqsədilə institutumuzda bir sıra elmi və təşkilati tədbirlər həyata keçirilir. Əvvəla, yeni terminlərin müəyyənləşdirilməsi və normalaşdırılması prosesi Terminologiya şöbəsində müvafiq sahə mütəxəssisləri, dilçi alimlər və terminoloqların iştirakı ilə aparılır. Yeni anlayış və ya termin meydana çıxdıqda onun mənası, işlənmə sahəsi, beynəlxalq təcrübədəki vəziyyəti, Azərbaycan dilinin leksik və sözyaratma imkanlarına uyğunluğu araşdırılır. Bundan sonra terminin olduğu kimi qəbul edilməsi, uyğunlaşdırılması və ya milli qarşılığının yaradılması barədə təklif hazırlanır. İkinci mərhələdə, lazım gəldikdə, terminlər elmi müzakirəyə çıxarılır. Bu müzakirələrdə aidiyyəti sahə üzrə mütəxəssislərin rəyi öyrənilir, müxtəlif variantlar müqayisə edilir və ən məqsədəuyğun forma müəyyənləşdirilir. Çünki termin yalnız dil vahidi deyil, həm də konkret elm və ya peşə sahəsinin anlayış sisteminin tərkib hissəsidir.

Təcrübə göstərir ki, ən uğurlu terminlər həm elmi cəhətdən dəqiq, həm də sadə və anlaşıqlı olanlardır. Buna görə də terminologiya siyasətinin əsas məqsədi yalnız yeni terminin təsdiqi deyil, onların elmi əsaslı, sistemli və ictimai praktikada işlək olmasını təmin etməkdir.

**Professor Tofiq Əbdülhəsənli** – Elmi-texniki yeniliklərlə bağlı dilimizə daxil olan yeni terminlərin əksəriyyətinin xarici dillərdən birbaşa götürülməsi qlobal prosesdir. Bunun qarşısını almaq qeyri-mümkündür. Vaxtilə Azərbaycan dilinə yeni gələn terminlər, əsasən, rus dili vasitəsilə keçirdisə, müstəqillik dövründə bu proses istiqamətini dəyişmişdir. Hazırda daha çox ingilis dili vasitəsilə dilimizə yeni terminlər daxil olur. Bu prosesi qloballaşma dövrünün dil təzahürlərindən biri kimi səciyyələndirmək mümkündür. Virtuallaşma, sosial media Avropa mənşəli terminlərin dilimizə gəlişini aktivləşdirir. Elmi-texniki innovasiyalar, süni intellekt, rəqəmsallaşma isə bu prosesi daha da sürətləndirir. Yaşadığımız dövrdə texnologiyanın sürəti inkişafı nəticəsində dünya miqyasında yeni terminlər formalaşır və müxtəlif dillərə keçir. Ona görə də terminoloji mühiti konkret bir çərçivəyə salmaq qeyri-mümkündür.

Əgər dilimizə termin daxil olursa, ilk növbədə, dilimizin ümumi strukturuna uyğunlaşdırılmalı, leksik-qrammatik xüsusiyyətlərini qəbul etməlidir. Yəni kor-koranə bütün terminləri dilə tətbiq etmək olmaz. Belə olarsa, milli dilin saflığı pozular, ümumi terminyaratma prosesində xaotik vəziyyət baş verər. Bunun üçün nəzarət mexanizmi olmalıdır. Təəssüf ki, bəzi insanlar özlərini müasir göstərmək xətrinə dilə biganə yanaşır və hələ dilimizdə sabitləşməmiş, normaya salınmamış terminləri süni şəkildə ana dilimizdə işlədirlər. Bu isə sonradan qarşısıalınmaz prosesə çevrilir.

**Müasir dünyanın sürətli inkişaf tələblərinə uyğun olaraq yaranan çoxsaylı terminlərin uyğunlaşdırılaraq gündəlik istifadəyə daxil edilməsi zamanı mövcud mexanizmlərlə dilimizin saflığı necə qorunur?**

**Akademik Nizami Cəfərov** – Müasir dövrün digər bir özəlliyi də ondan ibarətdir ki, artıq cəmiyyətdə intellektual səviyyə ümumiləşib və ziyalılıq imkanı potensial olaraq bütün insanlara məxsusdur. Məhz bu səbəbdən, insanlar beynəlxalq terminlərdən fəal şəkildə istifadə etməyə çalışırlar. Çünki informasiya mənbələri, eləcə də mövcud kommunikasiya və informasiya sistemləri mahiyyəti etibarilə qlobal səciyyə daşıyır. Beləliklə, biz beynəlxalq aləmlə və bütövlükdə dünya birliyi ilə daha sıx bağlanır, qlobal terminologiyaya daha çox meyl edirik.

Ona görə də dilimizin saflığının qorunmasında hər iki istiqamət mütləq nəzərə alınmalıdır. Bir tərəfdən beynəlxalq terminlərin işlənməsi birinci şərt kimi qəbul edilməli, digər tərəfdən isə dildə onların milli qarşılıqlarının tapılmasına ciddi səy göstərilməlidir.

**Professor Sayalı Sadıqova** – Müasir dövrdə terminlərin bir dildən başqa dilə keçməsi prosesində səciyyəvi cəhət onların birbaşa ingilis dilindən qəbul edilməsidir. Elm və texnikanın sürətli inkişafı yeni terminlərin yaranmasına səbəb olur. Bu terminlərin müəyyən hissəsinin müxtəlif dillərdə qarşılıqları yaranır. Lakin mənbə dildən olduğu kimi alınaraq işlənən beynəlxalq terminlər üstünlük təşkil edir. Məsələn noutbuk, laptop, audiobuk, peycer, taymer, şreder, plotter, skayner, printer, tüner, toner və s. terminlər ingilis dilindən Azərbaycan dilinə keçmişdir. Məlumdur ki, cəmiyyət inkişaf etdikcə əldə edilən elmi-texniki nailiyyətlər, gündən-günə artan güclü informasiya axını, xalqlar və millətlərarası genişlənən beynəlxalq əlaqələr dil əlaqələrinin də qarşılıqlı inkişafını zəruriləşdirir.

Ayrı-ayrı dövlətlərin diplomatik əlaqələri məhdud region çərçivədə qapanıb qalmır, dünya miqyasına çıxır. Məhz bu səbəbdən beynəlxalq münasibətlər sistemində istifadə olunan ortaq terminlər sistemi yaranmışdır. Məsələn, sammit, lobbi, servitut, spiker, sekulyarizm, moderator, ombudsman və s.

Avropa mənşəli terminlərin dilimizdə mənimsəmə mərhələlərini bir-birindən fərqli xüsusiyyətlərinə görə fonetik, qrammatik, semantik baxımdan fərqləndirmək olar. Yalnız son mərhələdə tam adaptasiya getdiyini və terminin dilin müxtəlif üslublarında geniş şəkildə işlənə bildiyini, eləcə də törəmə mənalar yaratmağa qadir olduğunu dil faktları təsdiq edir. Məsələn, ingilis dilindən Azərbaycan dilinə blogger-bloger, bobsleigh-bobsley, bodybuildinq-bodibildinq, spaider-spayder, prerequisite-prerekvizit, planchette-planşet, notebook-notbuk, concept-konsept, clearing-klirinq, clearing-klirinq, sandwich-sendviç, roaming-rouminq, fourchet-tefurşet formasında dilə daxil olmuşdur.

**Professor Nadir Məmmədli** – Qloballaşma və rəqəmsallaşma şəraitində dilin saflığının qorunması dil siyasətinin əsas istiqamətlərindən biri olaraq qalır. Lakin dilin saflığı anlayışı bu gün dilin xarici təsirlərdən tam təcrid olunması kimi deyil, onun daxili inkişaf qanunauyğunluqlarının, milli xüsusiyyətlərinin və normativ sisteminin qorunması kimi başa düşülür. Dilimizin saflığının qorunması, ilk növbədə, yeni söz və terminlərin qəbulunda elmi meyarlara əməl olunmasını tələb edir. Azərbaycan dilinin leksik və sözyaratma imkanları ilə ifadə oluna bilən anlayışlar üçün milli qarşılıqların yaradılması tövsiyə olunur. Bununla yanaşı, beynəlxalq elmi və texnoloji dövriyyədə geniş işlənən terminlər zərurət yarandıqda dilimizin fonetik və qrammatik normalarına uyğunlaşdırılaraq qəbul edilir.

Dilimizin saflığının qorunmasında təhsil müəssisələrinin, kütləvi informasiya vasitələrinin, nəşriyyatların və elmi qurumların üzərinə böyük məsuliyyət düşür. Xüsusilə rəqəmsal mühitdə dil normalarına əməl olunması, keyfiyyətli lüğətlərin və dil resurslarının hazırlanması, yeni terminlərin elmi əsaslarla normalaşdırılması mühüm vəzifələrdəndir.

Dil canlı və daim inkişaf edən sistemdir. Ona görə də dilin saflığının qorunması inkişafın qarşısını almaq kimi deyil, yeniliklə milli dil ənənələri arasında tarazlığın qorunması kimi dəyərləndirmək daha doğru olar. Əsas məqsəd Azərbaycan dilinin həm müasir elmi-texnoloji tələblərə cavab verməsi, həm də öz milli kimliyini, zəngin ifadə imkanlarını və dil sistemini, struktur bütövlüyünü qoruyub saxlamasıdır.

**Professor Tofiq Əbdülhəsənli** – Rəqəmsallaşma və süni intellekt dövründə gündəlik istifadədə, ədəbi dildə həddindən artıq əcnəbi terminlərin işlədilməsi yolverilməzdir. Bunun qarşısını almaq üçün Terminologiya Komissiyası iş aparmalı, nəzarət mexanizmi müəyyənləşdirməli və müvafiq rəy verməlidir. Terminoloji lüğətlərdə yeni gələn terminlər öz əksini tapmalıdır. Həmin terminlərin semantikalarının verilməsi mühüm şərtlərdən biridir. Yeni milli terminlərin yaradılması dilçiliyimizin ən aktual, prioritet məsələlərindən birinə çevrilməlidir. Dildə terminoloji zənginləşmənin əsas üsulları söz yaradıcılığı, alınmalar, kalka, terminləşmə, termin birləşmələri və ixtisarlar hesab olunur. Alınma terminlərin Azərbaycan dilinə uyğunlaşdırılması fonetik cəhətdən uyğunlaşdırma, kalkalaşma, terminoloji standartlaşma, milli dilin söz ehtiyatı hesabına sinonim variantların tapılması formalarında aparılır. Xüsusilə, alınma terminlərin fonetik cəhətdən Azərbaycan dilinə uyğunlaşdırılması, onların dilimizin fonetik normaları əsasında düzgün yazılışının təsbit olunması, orfoqrafiyalarının müəyyənləşdirilməsi, terminlərin unifikasiyası, yəni standartlaşması əsas məsələlərdəndir.

**Sizcə, qarşılığı olan sözlərdən daha çox beynəlxalq terminlərə üstünlük verilməsi dilin zənginləşməsidir, yoxsa ana dilinə etnasızlıq? Həmçinin milli terminlərdən istifadə cəmiyyətin öhdəsinə buraxılmalı, ya da hansısa tədbirlər görülməlidir?**

**Akademik Nizami Cəfərov** – Hesab edirəm ki, burada dilin zənginləşməsi anlayışı nisbi xarakter daşıyır. Beynəlxalq terminlər insanın hansı dildə danışmasından asılı olmayaraq, qlobal təfəkkürün tərkib hissəsi kimi mövcuddur. Bu baxımdan, beynəlxalq terminologiya potensial olaraq milli dilə heç bir ziyan vurmur. Əsas məsələ dildə elə bir balans və tarazlıq yaratmaqdır ki, həm beynəlxalq terminlərin işlənmə imkanları qorunsun, həm də dilin daxili terminoloji potensialı inkişaf etsin. Bunun üçün isə dili daşıyan xalq intellektual baxımdan bilikli olmalıdır. Cəmiyyətin elmi-mədəni səviyyəsi yüksəldikcə, milli sözləri ən azı öz miqyaslarında termin səviyyəsinə qaldırmağı bacaracaq, beynəlxalq terminlərlə öz dil təfəkkürləri arasında sağlam müqayisələr apara biləcəklər. Əks halda, beynəlxalq terminlər ən bəsit təzahürlərdə belə dilin inkişafına ciddi şəkildə maneə törədəcək.

Bu gün Azərbaycan dilinin qarşısında belə bir kəskin təhlükə yoxdur. Dövlət dilimiz haqqında qəbul olunmuş rəsmi qərarlar, qanunvericilik aktları və sənədlər, eləcə də Prezidentin ana dilinin qorunması və inkişafı ilə bağlı hər zaman böyük həssaslıqla irəli sürdüyü mülahizələr və göstərdiyi ali qayğı çox ciddi amillərdir. Bütün bunlar milli dil şüurumuza müsbət təsir göstərir, Azərbaycan dilində beynəlxalq terminlərlə milli terminlər arasındakı lazımi elmi-mədəni tarazlığın qorunub saxlanmasına çox böyük kömək edir.

**Professor Sayalı Sadıqova** – Dil dünya sivilizasiyasının, ictimai həyatın əksi olan müxtəlif elm sahələrini birləşdirdiyi kimi, ayrı-ayrı dillərin fonetik, leksik, qrammatik xüsusiyyətlərini də birləşdirir. Ona görə də alınma və beynəlmiləl termin axını alınmaların tənzimlənməsi, dilimizin tələblərinə uyğunlaşdırılması kimi aktual problemləri meydana çıxarır.

Tarixi-mədəni əlaqələr və dövlətlərarası münasibətlər, elmi-texniki tərəqqi və elmi bilik sahələrinin inkişafı ilə bağlı Azərbaycan dili leksikasında terminlərin xüsusi çəkisinin artması müşahidə edilir. Elmlərin inteqrasiyası, elmi dilin, informasiyaların asanlıqla başa düşülməsi üçün vahid terminoloji bazaya üstünlük verilməlidir. Terminoloji fondun yaradılması üçün müxtəlif sahələrə aid terminoloji lüğətlərin tərtibi vacibdir. Müstəqillik illərində elmin, texnikanın müxtəlif sahələri ilə bağlı 200-ə yaxın terminoloji lüğət nəşr olunmuşdur. Lakin elmi-texniki tərəqqi, ictimai-siyasi həyatın inkişafı terminoloji sistemlərin fasiləsiz olaraq dəyişməsinə və inkişafına təsir göstərir. Ona görə də terminologiyada baş verən dəyişikliklər diqqətlə izlənilir və inkişafı düzgün istiqamətləndirilir.

Bununla yanaşı, son dövrlər müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi narahatlıq doğurur. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir.

Heç şübhəsiz, Azərbaycan mədəniyyəti, elmi inkişaf etdikcə, müstəqil dövlətimiz möhkəmləndikcə Azərbaycan dili daha da zənginləşir, daha müasir, daha qlobal, analitik düşüncənin dilinə çevrilir. Dünya azərbaycanlılarının ümumi ünsiyyət vasitəsi, Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin lokal tarixi və müasir nüfuzunun qorunub saxlanması milli-ictimai ehtiyac, mənəvi-mədəni borcumuzdur.

**Professor Nadir Məmmədli** – Əgər beynəlxalq termin yeni anlayışı daha dəqiq ifadə edir, elm və texnologiya sahəsində ünsiyyəti asanlaşdırırsa, onun işlədilməsi dilə etinasızlıq deyil, təbii inkişafının və zənginləşməsinin göstəricisidir. Azərbaycan dili tarixən ərəb, fars, rus və Avropa mənşəli çoxlu sözləri mənimsəmiş, onları öz fonetik və qrammatik sisteminə uyğunlaşdıraraq milli leksikonun bir hissəsinə çevirmişdir. Lakin Azərbaycan dilində artıq oturuşmuş, məna baxımından tam adekvat qarşılıq mövcud olduğu halda, yalnız xarici sözə daha müasir və ya uyğun göründüyü üçün üstünlük verilməsi müəyyən mənada ana dilinin imkanlarının lazımi səviyyədə qiymətləndirilməməsi kimi qəbul edilə bilər. Məsələn, "əks əlaqə" əvəzinə "feedback", "məlumat toplanması, təhlil" əvəzinə "monitorinq", "kütləvi informasiya vasitələri əvəzinə "mediya" qəbul olunsa da, "event" əvəzinə "tədbir", "content" əvəzinə "məzmun" sözlərinin işlədilməsi həm dil, həm də ünsiyyət baxımından daha məqsədəuyğun görünür. Əsas məsələ terminin mənşəyi deyil, onun zəruriliyi və funksional dəyəridir. Dilçilik baxımından nə ifrat purizm (bütün alınma sözlərə qarşı çıxmaq), nə də hədsiz alınmaçılıq (qarşılığı olduğu halda xarici sözə üstünlük vermək) səmərəli yanaşma hesab olunur. Ona görə də məncə, qarşılığı olan sözlərdən imtina edib beynəlxalq terminlərə həddindən artıq üstünlük verilməsi bəzi hallarda ana dilinin ifadə imkanlarına etinasızlığın əlaməti sayıla bilər. Lakin beynəlxalq terminlərin elmi, texniki və ya kommunikativ zərurətdən doğan istifadəsi dilin zənginləşməsi və inkişafı prosesinin təbii tərkib hissəsidir. Əsas meyar milli dilin imkanları ilə beynəlxalq elmi-kommunikativ tələblər arasında tarazlığın qorunmasıdır.

**Professor Tofiq Əbdülhəsənli** – Bəzi terminlərin Azərbaycan dilində qarşılığı ola-ola əcnəbi terminlərin işlədilməsi dilin milli sistemini zədələyir. Dildə əlavə "leksik-semantik yüklənmə" yaradır, dövlət dilinin normalarını pozur. Normalaşma terminoloji zənginləşmədə əsas məsələlərdən biridir. Buna görə də alınma terminlərin yersiz istifadəsinə qarşı, birinci növbədə, ictimai qınaq olmalıdır. İkinci tərəfdən, bu məsələyə məsul olan şəxslər, müvafiq dövlət qurumları və dilçi-mütəxəssislər, terminoloqlarla birgə alınma terminlərin dilimizə məxsus adekvat variantlarını hazırlamalıyıq. Kütləvi informasiya vasitələrində alınma terminlərin düzgün işlədilməsinə nəzarət gücləndirilməlidir. Çünki dilimizin qorunması strateji əhəmiyyət daşıyır. Cənab Prezidentin də dəfələrlə xatırlatdığı kimi, "milləti millət edən dildir. Biz danışdığımız dil ulu babalarımızən danışdığı dildir. Düzdür, sovet dövründə bəzi sözlər dilimizə daxil olmuşdur. Müstəqillik dövründə biz dilimizi təmizliyə bildik. Mən beynəlxaql leksikondan gələn sözləri nəzərdə tutmuram. Heç bir dilin kölgəsində bizim dilimiz ola bilməz. Necə ola bilər ki biz dilimizi qoruya bilməyək?"

Qloballaşma şəraitində Azərbaycan dilinin bütün gəlmə terminləri əvəz edəcək potensialı yoxdur. Bu, bütün dillərdə belədir. Yəni terminlər daha çox adlandırdıqları proses və əşyaları bizə hazır şəkildə təqdim edir. Bu gün Azərbaycan dilinin terminoloji bazası zənginləşdirilməli, inkişaf etdirilməlidir. Əgər alınma terminin Azərbaycan dilində qarşılığı tapılmırsa, o zaman dilimizin fonetik normalarına uyğunlaşdırılmalı, onun vahid orfoqrafik forması təsbit olunmalıdır.

Terminləşmə prosesi dilin praktiki tərəfidir. Buna görə də terminalma prosesində terminlərin işləklik səviyyəsi müəyyənləşdirilməlidir. Qloballaşmanın sürətlənməsi dilimizdə terminoloji təhlükələr də yaradır. Bu təhlükənin qarşısını almaq üçün vaxtında tədbirlər görülməlidir, yoxsa gələcəkdə Azərbaycan dili yad dillərin kütləvi təsirinə məruz qalacaq. Artıq həmin proses baş verməkdədir. İstər internetlə, istərsə də texnoloji innovasiyalarla bağlı sürətli termin axınını nizamlamaq üçün müvafiq qurumlar birgə fəaliyyət göstərməli, dövlət proqramları hazırlanmalı və onların tətbiqi mexanizmləri qurulmalıdır. Çünki ana dilinin saflığının qorunmasında birbaşa olaraq terminalma prosesi önəmli rol oynayır.

*Hazırladı:*
*XQ-nin Analitik Mərkəzi*

*Arif Heydərov – 100*

# Unudulmaz daxili işlər naziri

**Görkəmli dövlət xadimi, general-leytenant Arif Heydərovun anadan olmasından 100 il ötür. Vaxtsız, faciəli ölümündən isə 48 il keçir. Cəmi 52 il yaşadı. Ürəklərdə xoş, unudulmaz, parlaq xatirəsi qaldı. Mərhum generalı yaxından tanıyanlar, silahdaşları, qədirbilən xalqımız onu heç vaxt unutmur, haqqında xoş sözlər danışır, əziz xatirəsini ehtiramla yad edirlər.**



Mənim də həyatımda, daxili işlər orqanlarında fəaliyyətimdə, rəhbər vəzifəyə irəli çəkilməyimdə bu böyük, əvəzsiz insanın müstəsna rolu olub. Ordu sıralarında həqiqi hərbi xidmətimi başa vurduqdan sonra Litva Respublikasının Kaunas şəhərində milis məktəbini bitirib Rusiyanın Kirov vilayətinin daxili işlər idarəsində işə düzəlmişdim. Əvvəl sahə müvəkkili, sonra əməliyyat işinə təyin olunmuşdum. Nümunəvi xidmətimə görə 24 yaşımda bölmə rəisi vəzifəsinə irəli çəkildim. Keçmiş SSRİ DİN-in ali məktəbini də müvəffəqiyyətlə bitirdim.

Xidmət dövründə xeyli uğurlarım olub. Dəfələrlə vilayət daxili işlər idarəsi və nazirlik tərəfindən mükafatlandırılmışam. Haqqımda "Peşəyə məhəbbət" adlı povest yazılıb, mətbuatda çoxlu məqalələr dərc olunub.

Tale elə gətirdi ki, bir dəfə Moskvada ittifaqlar evinin sütunlu salonunda keçirilən yubiley tədbirində iştirak etdim. Rəyasət heyətində SSRİ DİN-in rəhbərləri və müttəfiq respublikaların daxili işlər nazirləri əyləmişdilər. Azərbaycanlı nazir, general-leytenant Arif Heydərov da onların arasında idi.

Mükafatların təqdimat mərasimində adım çəkildi, SSRİ DİN-in rəhbərliyi tərəfindən mükafatlandırıldım. Fasilə zamanı bir polkovnik-leytenant mənə yaxınlaşdı. Azərbaycan daxili işlər nazirinin köməkçisi olduğunu və nazir Arif Heydərovun məni görmək istədiyini dedi. Yaxınlaşıb hərbi təzimlə özümü təqdim etdim. Əl verib mənimlə görüşdü, kimliyimlə, rus dilini harada öyrənməyimlə bağlı suallar verdi. Təəccüblə dedi ki, bu yaşda məsul vəzifəyə irəli çəkilmisənsə, görünür, yaxşı işçisən. Sonra xidmətimi Azərbaycanda davam etmək üçün Vətənə gəlməyimi məsləhət bildi. Yüksək etimada görə təşəkkür edərək işlədiyim idarənin rəhbərliyinin məndən inciyəcəyini, narazı qalacağını dedim. Cənab nazir bunu özünün həll edəcəyini, – dedi. Arif Heydərov ittifaq miqyasında çox böyük hörmət, nüfuz sahibi idi. Vaxtından əvvəl general-leytenant rütbəsinə layiq görülmüşdü.

Fasilədə Kirov Vilayəti Daxili İşlər İdarəsinin rəisini yanına çağırıb, mənimlə bağlı fikrini dedi. O da bildirdi ki, möhtərəm general, siz hansı qərarı qəbul etsəniz, biz ona razıyıq. Yerindəcə raport yazıb, təqdim etdim. Beləliklə, unudulmaz generalın yüksək qayğısı sayəsində Vətənə qayıtdım. Onun əmri ilə respublika DİN aparatında məsul vəzifəyə təyin olundum.

General Arif Heydərov təcrübəli, müdrik rəhbər, alicənab, xoşxasiyyətli, xeyirxah insan idi. Düzlüyü, ədaləti özünə meyar seçmişdi. Şəxsi heyətə qarşı tələbkar, həssas və qayğıkeş idi. Bir dəfə məni yanına çağırıb dedi ki, Gəncə şəhərində 5 milis əməkdaşı haqqında cinayət işi qaldırılıb, məsələ Mərkəzi Komitənin bürosunda müzakirə ediləcək.

Respublika rəhbərliyindən tapşırıblar ki, Gəncəyə son dərəcə məsuliyyətli, təcrübəli, əqidəli, işgüzar bir kadr göndərək. Düşünürəm ki, səni təyin etsək, işlərin öhdəsindən gələcəksən. Əlbəttə, nazirin sözü, əmri icra olunmalı idi. Dərhal razılıq verdim. Gəncə Şəhər Daxili İşlər İdarəsində rəhbər vəzifəyə təyin olundum. Cənab nazirin yüksək etimadını layiqincə doğrultmaq üçün var qüvvəmlə çalışır, haqqın, ədalətin tərəfində duraraq qanunun aliliyini qoruyurdum.

1978-ci il iyun ayının 29-da görkəmli dövlət xadimi, Ulu öndərin sədaqətli dostu, sadiq silahdaşı, general Arif Heydərov kabinetində faciəli şəkildə qətlə yetirildi. Son dərəcə ağrılı, gözlənilməz hadisə bütün Azərbaycanı sarsıtdı. Ən çox kədərlənənlərdən biri xalqımızın müdrik rəhbəri Heydər Əliyev idi. Dostunun cənazəsini çiyninə alaraq izdihamın önündə getdi.

Arif Heydərovu Ulu öndərlə uzun illərin səmimi, sədaqətli dostluğu bağlayırdı. Ümummilli lider bu dostluğu çox yüksək qiymətləndirirdi: "Arif Heydərov mənim üçün sevimli bir insan idi... Arif Heydərov mənim iş yoldaşım, dostum olubdur, tutduğum yüksək vəzifələrdə mənim silahdaşım olubdur. Mən ona çox inanırdım, etibar edirdim, onun fəaliyyətini çox yüksək qiymətləndirirdim. Ona görə də mən Azərbaycanda rəhbər olarkən o, mənim əsas dayaqlarımdan biri idi. Deyə bilərəm ki, əvvəl dövlət təhlükəsizliyi orqanlarında olduğu kimi, Azərbaycanın Daxili İşlər Nazirliyinə rəhbərlik etdiyi dövrdə – 8 il müddətində də çox fədakarcasına çalışdı, çox işlər gördü".

Yaxşı xatırlayıram, mərhum general Arif Heydərovun DİN-ə rəhbərliyi dövründə cinayətkarlığa qarşı mübarizədə Azərbaycan müttəfiq respublikalar arasında ən yüksək göstəricilərə malik idi. Buna görə nazir Arif Heydərova general-leytenant rütbəsi verilmişdi. Müttəfiq respublikaların nazirləri arasında yalnız Arif Heydərov Sov. İKP qurultayına nümayəndə seçilmişdi. Həmçinin o, Azərbaycan KP MK-nın üzvü, respublika Ali Sovetinin deputatı, Azərbaycan KP qurultaylarının nümayəndəsi olmuşdur. Rus, alman, ingilis, türk, fars dillərini mükəmməl bilirdi. Səmərəli fəaliyyətinə görə "Qırmızı Bayraq", "Şərəf nişanı" ordenləri və bir çox medallarla təltif olunmuşdur.

Görkəmli dövlət xadimi, böyük və əvəzsiz insan Arif Heydərovun 70 illik yubileyi respublikamızda qeyd olunanda Astara Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işləyirdim. Qərara aldıq ki, Astarada da yubiley tədbiri keçirək. Mərhum generalın həyat yoldaşı Adilə xanım, oğlu Maqsud, onunla bir yerdə işləmiş həmkarları tədbirdə iştirak etdilər. Astara sərhəd-keçid məntəqəsində general Arif Heydərovun adını daşıyan komendantlığa gedən şəhərin mərkəzi küçəsinə onun adı verildi.

Arif Heydərov kimi böyük şəxsiyyətlər heç vaxt unudulmamalı, yaddan çıxmamalıdır. İndiyə kimi onun mehriban siması, tələbkar baxışları, xoş təbəssümü gözlərim önündədir. Bütün ömrünü canından artıq sevdiyi doğma Azərbaycana, xalqına həsr etmiş mərhum general Arif Heydərovun zəngin və keşməkeşli ömür yolu bugünkü və gələcək nəsillərə əsl örnəkdir.

***İbrahim QULİYEV,***
***hüquq elmləri doktoru, professor,***
***Əməkdar müəllim***

# İnanc əxlaqı kamilləşdirir

## *Həqiqət isə insanı azadlığa qovuşdurur*

**İnsan hüquqlarının əsas tərkib hissələrindən olan vicdan və dini etiqad azadlığı müasir demokratik cəmiyyətlərin fundamental prinsipləri sırasındadır. Hər bir insanın öz inancını sərbəst şəkildə seçmək, dəyişmək və ya heç bir dini etiqada sahib olmamaq hüququ var. Bu hüquq fərdin şəxsi seçim azadlığının ayrılmaz hissəsi hesab olunur və beynəlxalq hüquq normaları ilə qorunur.**

Azərbaycan da dünyəvi dövlət kimi vətəndaşlarının dini etiqad azadlığını təmin edir. Ölkəmizdə insanlar dini mənsubiyyətindən, inanclarından asılı olmayaraq qanun qarşısında bərabərdirlər. Əsas məqsəd cəmiyyətdə dini dözümlülüyün, qarşılıqlı hörmətin və dünyəvi hüquq qaydalarının qorunmasını təmin etməkdir.

Son dövrlər isə valideynlərin övladlarının dini seçimlərinə müdaxiləsi, onların müəyyən etiqada məcbur edilməsi məsələsi cəmiyyətdə müzakirə olunan mövzulardandır. Bu vəziyyət dini tərbiyə ilə fərdin seçim azadlığı arasında sərhədin harada başladığı sualını yenidən gündəmə gətirir.





**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov bildirdi ki, Azərbaycan müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadığı məkandır:**

– Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə və nümunəvi dövlət-din münasibətləri modelinə malik olan ölkəmizdə fərqli sivilizasiyaların qovuşduğu çoxkonfessiyalı cəmiyyət formalaşıb. Bu gün də dini tolerantlıq cəmiyyətin əsas dəyərlərindən biridir.

Müasir dünyada demokratik cəmiyyətlərin ayrılmaz tərkib hissəsi hesab edilən vicdan və dini etiqad azadlığı Azərbaycanda da qanunvericiliklə qorunur. Ölkəmizdə hər bir vətəndaşın istədiyi dinə etiqad etmək, dini etiqadını dəyişmək və ya heç bir dinə mənsub olmamaq hüququ mövcuddur. Dövlətin əsas prinsipi dini mənsubiyyətə görə ayrı-seçkiliyə yol verməmək, eyni zamanda, dini fəaliyyətin dünyəvi qanunlara uyğun həyata keçirilməsini təmin etməkdir.

**Millət vəkili əlavə etdi ki, "Dini etiqad azadlığı haqqında" Qanuna əsasən, hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir:**

– Qanunda qeyd olunur ki, şəxsin dini etiqadını ifadə etməsinə, ibadətlərdə, dini ayin və mərasimlərdə iştirakına, dini biliklər əldə etməsinə maneə törədilə bilməz. Eyni zamanda heç kəs öz dini etiqadını nümayiş etdirməyə, dini mərasimləri yerinə yetirməyə və ya dini tədbirlərdə iştirak etməyə məcbur edilə bilməz.

Qanunvericilik dini etiqad azadlığının sərhədlərini də müəyyənləşdirir. Belə ki, dini etiqadın və ya dini həyat tərzinin zor tətbiq etməklə, hədələmə yolu ilə yaxud irqi, milli, dini və sosial ədavət yaratmaq məqsədilə təbliğ olunması yolverilməzdir. İnsan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd olan dini cərəyanların yayılması və təbliği də qadağan edilir. Dini azadlıqların təmin olunması məsələsi uşaqların hüquqları kontekstində də xüsusi əhəmiyyət daşıyır.

**Bu ilin mart ayında qəbul edilmiş "Uşaq hüquqları haqqında" qanun layihəsində azyaşlıların hüquq və azadlıqlarının müdafiəsinə xüsusi diqqət ayrıldığını deyən Ceyhun Məmmədov qeyd etdi ki, 63 maddədən ibarət qanun layihəsinə əsasən, nəzərdə tutulmuş hüquq və azadlıqlar irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, əqidəsindən, sağlamlıq imkanlarından və digər amillərdən asılı olmayaraq hər bir uşağa şamil edilir:**

– Uşaqlar da dini mənsubiyyətindən asılı olmayaraq bərabər hüquqlara malikdirlər. Onların dini baxışlarına hörmətlə yanaşılması, ayrı-seçkiliyə məruz qalmaması və təhlükəsiz mühitdə böyüməsi dövlətin prioritet istiqamətlərindəndir.

Ailə uşağın dünyagörüşünün formalaşmasında əsas rol oynasa da, dini tərbiyə ilə dini məcburiyyət arasında ciddi fərq var . Valideynlər övladlarına öz dini dəyərlərini aşılaya, onları dini ənənələrlə tanış edə bilərlər. Lakin uşağın iradəsini nəzərə almadan ona təzyiq göstərilməsi, müəyyən dini davranışlara məcbur edilməsi həm insan hüquqları, həm də vicdan azadlığı prinsipləri baxımından qəbul edilmir.

Qloballaşan dünyada fərqli dini və mədəni baxışların qarşılıqlı təsirinin artdığı dövrdə dini etiqad azadlığının qorunması aktualdır. Azərbaycanın qanunvericiliyi və dövlət siyasəti isə dini müxtəlifliyin qorunmasını, tolerant mühitin möhkəmləndirilməsini və hər bir vətəndaşın, o cümlədən uşaqların fundamental hüquqlarının təmin edilməsini əsas məqsədlərdən biri kimi müəyyənləşdirir.

***Ləman TƏHMƏZ***
***XQ***

*Təqvim yada salır*

**"LOQOS" Psixoloji və Nitq İnkişafı Mərkəzinin baş psixoloqu, professor Elmira Mirzəyeva ilə ömrünün 75-ci ilinin tamamında müsahib olduq. Ötən illərdə yüzlərlə insana kömək əli uzadan tanınmış praktik psixoloq bildirdi: "Bir də doğulsaydım, yenə yaşadığım həyatı seçərdim".**

# Psixoloji yardım mənəvi yaraların məlhəmidir



**– Elmira xanım, bəs 75 yaşın tamamında yaşadığınız həyata necə dəyər verərdiniz?**

– İnsanın 3 yaş meyarı var: birincisi, onun pasport yaşıdır - bu, bir faktdır və onu qəbul etməkdən başqa çarəmiz yoxdur. Növbəti fizioloji, yəni orqanizmin, səhhətin vəziyyəti ilə əlaqədar olan, sonuncusu isə insanın psixoloji yaşıdır. Psixoloji cəhətdən neçə yaşım olduğunu bilmirəm, amma, pasportumda olan yaşı qəbul edirəm. Necə ki, gürcü müğənnisi Vaxtanq Kikabidze deyirdi: "Mənim illərim mənim sərvətimdir". Mən də hesab edirəm ki, 75 yaş mənim ən dəyərli sərvətimdir.

"LOQOS" - Psixoloji və Nitq İnkişafı Mərkəzi hər zaman ilklərə imza atan psixoloji mərkəzdir. Xaricdə olanda, oradakı gözəl mərkəzləri görəndə arzulayırdım ki, ölkəmizdə də belə bir mərkəz olsun. Şükür ki, mərkəzin rəhbəri, psixoloq Təranə Paşayevanın səyləri nəticəsində bu gün belə bir qurum ölkəmizdə də var. Mərkəz fəaliyyətə başlayanda ilk vaxtlar klinik psixoloq kadrına ciddi ehtiyac var idi.

O zaman Təranə xanım Rusiya Federasiyasının V.M.Bexterev adına Psixiatriya və Nevrologiya üzrə Milli Tibbi Tədqiqat Mərkəzinin ikinci ali təhsil verən yenidən hazırlanma şöbəsi ilə müqavilə bağlayaraq onları ölkəmizə dəvət etdi. 2 il ərzində 30 nəfərdən çox psixoloq klinik psixoloq ixtisasına yiyələndi.

Bu gün ölkədə tanınan bir çox klinik psixoloqlar məhz "LOQOS"un yetirmələridir. Mənim bu mərkəzə sevgim, hörmətim, Təranə xanım başda olmaqla bütün kollektivə olan bağlılığım o qədər böyükdür ki, heç bir başqa məkanda özümü bu qədər rahat və xoşbəxt hiss edə bilməzdim. İnsanların karına gəlməkdən doğulan rahatlıq hissi yaşa baxmır…

**– İxtisasca yaxşı müəllimsiniz; öyrənməyi və öyrətməyi sevirsiniz, üstəlik, Elmira Mirzəyeva ölkədə tanınmış psixoloqdur. Peşənizi dəyişmək fikri necə yarandı?**

– İxtisasımı dəyişmək istəyi elə müəllim işlədiyim dövrdə yarandı. Bunun da kökündə məktəb müəllimlərinin uşaq psixologiyasını, sosial psixologiyanı və konfliktologiyanı dərindən bilməmələri dayanırdı. İnsanı fiziki olaraq öldürəndə buna görə hüquqi cəza kəsilir. Amma əfsuslar olsun ki, bir uşağı, bir insanı ruhən öldürəndə, onun qəlbinə toxunanda biz böyüklərin bəzən heç xəbəri olmur, yəni əməlimizin törətdiyi fəsadların fərqinə varmırıq. Bax, belə bir qərar vermək fikri məndə o dövrdən formalaşdı.

şəkərli diabetdən əziyyət çəkən uşaqlara qayğı layihəsini Lənkəranda həyata keçirdik. O qədər uğurlu nəticələr aldıq ki, ikinci il həmin layihəni Gəncə şəhərində davam etdik.

Amma məni qocaldan, bəlkə də ömrümdən illər alan digər bir layihə oldu. Əlimi ürəyimin üstünə qoyaraq vicdanla deyə bilərəm ki, mən ölkədə Birinci Qarabağ müharibəsindən başlayaraq bu günə qədər şəhid, məcburi köçkün, qazi və itkin düşmüş şəxslərin ailələrinə aramsız dəstək göstərən yeganə psixoloqam. O mürəkkəb həyatdan ağır zərbə almış insanlar bu gün də məni arayıb-axtarır, dərdlərini bölüşürlər.

Mən, psixologiya üzrə elmlər doktoru, professorlar Əbdül Əlizadənin, İsa Məmmədovun yetirməsiyəm. Əbdül müəllim hər zaman mənə deyərdi: "Elmira qızım, sizdə üç doktorluq dissertasiyasının materialı var, müdafiə edin". Mən isə cavab verərdim ki, "Əbdül müəllim, ölkəmizdə 1 milyon məcburi köçkün, minlərlə şəhid ailəsi var, bu günə qədər taleyi bilinməyən 4 mindən artıq itkinimiz var. Canlı insanların mənə ehtiyacı olan bir dövrdə istəyirsiniz ki, mən ölü kağızların üzərində işləyim? Mən bunu bacarmıram".

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini Sankt-Peterburq şəhərində, Beynəlxalq Fundamental Təhsil Universitetində müdafiə etdim.

**– Dünyaca məşhur professor Şamil Taşayevin adını tez-tez çəkirsiniz. Professor Taşayev dünya səviyyəli bir alim idi və onunla əlaqə qurmaq bəlkə də əlçatmaz görünürdü. Necə oldu ki, onu Azərbaycana dəvət etdiniz?**

– Şamil müəllim haqqında danışmazdan öncə İsa müəllim haqqında demək istəyirəm. İstəyirəm bugünkü gənc psixoloqlarımız bilsinlər ki, Azərbaycanda praktik psixologiyanın inkişafında psixologiya elmləri doktoru İsa Məmmədovun böyük rolu olub. O ki qaldı Şamil müəllimə, onun insan beyni sahəsində dünya üzrə 8 ixtirası var. Mən onunla beynəlxalq konfransların birində tanış oldum, yaxınlaşıb Bakıya gəlməsini təklif etdim. O isə təklifimi məmnuniyyətlə qəbul etdi. Şamil müəllimin Bakıya 12 işgüzar səfəri olub, onlardan beşi məhz "LOQOS"un dəvəti ilə baş tutub.



**– Söhbətlərimizin birində belə ifadə işlətmişdiniz: "Psixiatrın qəbulunda gülməkdənsə, psixoloqun kabinetində ağlamaq daha yaxşıdır, daha faydalıdır". Bu, nə deməkdir?**

– Bu, mənim sevimli ifadəmdir. Hər birimiz həyatımız boyu müəyyən itkilərlə, haqsızlıqlar, ədalətsizliklər və konfliktlərlə rastlaşırıq. Bu, ailədə də ola bilər, cəmiyyətdə də, iş yerində də. İnsan emosional gərginliyini azaltmaq üçün müəyyən metodlardan istifadə etməlidir. Hər dəfə təbiətə gedəndə təklif edirdim ki, qışqıraq, hərəkətli, hərarətli olaq, relaksasiya məşğələləri keçək və s. Əfsuslar olsun ki, biz hazırda aktiv yox, reaktiv bir dövrdə yaşayırıq və hər zaman təbiətə getmək, orada relaks məşğələləri keçmək imkanımız olmur. İnsan bəzən o qədər gərginlik yaşayır ki, nəinki qışqırmaq, hətta hayqırmaq istəyir.

Bu zaman, təbii ki, biz psixoloqlar onların köməyinə çatırıq. İnsan emosional gərginliyi azaltmaq üçün psixoloqun yanına gəlir. Həyatda müəyyən bir düyün yarana bilər: insan incidilər, haqsızlıq edilər, yaxınını itirər və ya uğursuz sevgi yaşayar. Təbii ki, bunu hər zaman yaxınlarına danışa bilmir. Psixoloqun yanına gəlib o düyünü çözmək ən düzgün çıxış yoludur. Onu da qeyd edim ki, psixoloq müraciət edən şəxsin əvəzinə heç bir qərar verə bilməz. Psixoloq, sadəcə, yaranmış problemli situasiyanı təhlil edərək insana müəyyən yollar göstərə bilər. Amma pasientin bu yollardan hansını seçməsi onun şəxsi işidir, biz bura müdaxilə edə bilmərik. Bircə onu deyim ki, psixoloji yardım mənəvi yaraların, ruhi sarsıntıların ən yaxşı məlhəmidir.

**– Peşənizlə bağlı çoxsaylı layihələrə imza atmısınız, xüsusən də Qarabağ müharibələri dövründə gecə-gündüz çalışmısınız. Qısaca yada salmaq istərdiniz?**

– Ölkəmizdə həm dövlət səviyyəsində, həm BMT, həm də Heydər Əliyev Fondu çərçivəsində 50-dən artıq layihə həyata keçirmişəm. Amma onlardan ikisini xüsusi qeyd etmək istəyirəm. Heydər Əliyev Fondunun

**– 50 il öncə ölkəmizdə psixoloq, psixologiya, sanki ikinci dərəcəli anlayış idi. İndi isə psixoloqlar, psixoloji mərkəzlər xeyli çoxalıb.**

– Mərkəzlərin və mütəxəssislərin artması müsbət haldır. Amma istərdik ki, o mərkəzlərdə peşəkar, ali təhsilli və işlədiyi sahəyə uyğun sertifikatlar qazanmış mütəxəssislər çalışsın. Valideynlər mərkəz və mütəxəssis seçimi edəndə o mərkəzin uğurları ilə, gördükləri işlərlə və mütəxəssisin ali təhsili, işinin nəticələri ilə maraqlansınlar. Psixoloji mərkəzi biznes mərkəzinə çevirməsinlər. Ölkədə ehtiyac duyulan mövzularda təmənnasız maarifləndirmə işləri aparsınlar, xüsusən də regionlarda. Psixoloji xidmət mənəvi yaraları sağaldır.

**– Həmişə qaynar həyatın içində, insanlar arasında olan Elmira Mirzəyevanın son dövrlər bağ mühitinə çəkilib.**

– Bu kənardan baxanlara bəlkə də uzaqlaşma kimi görünə bilər, əslində isə hazırda "LOQOS"da öz işimdəyəm, eyni zamanda Beynəlxalq Fundamental Təhsil Universitetinin professoruyam, aspirantlarım, dissertantlarım var və onlarla distant (onlayn) şəkildə işləyirəm. Yəni tərki-dünya olmamışam; qonaqlarım da gəlir, sevdiklərim də. Mən də gördüyünüz kimi şəhərə gəlirəm. Amma iş həddindən artıq çoxdur, bu mənim elmi fəaliyyətimlə, yaradıcılığımla bağlıdır, bununla yanaşı torpaqla, təbiətlə təmasa ehtiyac duyuram.

***Söhbəti qələmə aldı:***
***Rəhilə GÜLGÜN,***
***yazıçı-publisist***




Beynəlxalq həyat

# Marko Rubionun Bəhreyn "kəşfiyyat"ı

## *ABŞ Dövlət katibi Körfəz ölkələrinin dəstəyini almaq üçün yollar axtarır*



**ABŞ Dövlət katibi Marko Rubionun Bəhreynə səfərində əsas məqsədi skeptik əhvali-ruhiyyədə olan Körfəzin ərəb müttəfiqlərini Donald Tramp administrasiyasının İranla ilkin razılaşmasının məqsədəuyğunluğuna inandırmağa çalışmaq idi. Bu barədə məlumat verən "Reuters" agentliyi onu da nəzərə çatdırıb ki, M.Rubio sülh müqaviləsini Körfəzin ərəb liderlərinə təqdim etmək missiyasının həssas olduğunu da etiraf edib. Çünki onlar həddindən artıq yumşaldılan güzəştlərin Tehranı gücləndirəcəyindən, habelə regional təhlükəsizlik balansını və neft daşımalarının istiqamətini dəyişdirəcəyindən ehtiyat edirlər.**

Məlumatda daha sonra qeyd olunur ki, Rubio Bəhreynin paytaxtı və ABŞ Hərbi Dəniz Qüvvələrinin Beşinci Donanmasının qərargahının yerləşdiyi Manamada, həmçinin Səudiyyə Ərəbistanı, Qətər, Oman, Birləşmiş Ərəb Əmirlikləri və Küveytin də daxil olduğu Körfəz Əməkdaşlıq Şurasının nümayəndələri ilə görüşüb. Bu, dövlət katibi Marko Rubionun ABŞ ilə İran arasında münaqişəyə son qoymaq üçün çərçivə sazişinin bağlanmasından sonra bölgəyə ilk yüksəksəviyyəli diplomatik missiyadır.



Agentlik qeyd edir ki, Rubio BƏƏ və Küveytə əvvəlki səfərləri zamanı müttəfiqləri ABŞ/İsrail – İran müharibəsi zamanı bir neçə Körfəz dövlətinə qarşı hücumlar başlatmış Tehran üçün təklif olunan razılaşmanın o qədər də əlverişli olmadığına inandırmağa çalışmışdı. O zaman Rubio Küveytdə jurnalistlərə bildirmişdi: "Biz regiondakı uzunmüddətli müttəfiqlərimizin təhlükəsizliyini pozan heç bir addım atmayacağıq".

ABŞ Dövlət katibi Bəhreynə rəsmi səfəri zamanı Körfəz ölkələrinin xarici işlər nazirləri ilə görüşündə Vaşinqtonun bu məsələ ilə bağlı qəti mövqeyini vurğulayıb: "Biz razılığa gəlmək istəyirik, amma onun nəyin bahasına olursa-olsun, kor-koranə həyata keçirilməsini istəmirik. Bizə yaxşı, real, yoxlanıla və icra edilə bilən razılaşma lazımdır. Danışıqlar zamanı və ya sonra əldə edilən hər hansı bir razılaşmanın tərəflər tərəfindən qeyd-şərtsiz yerinə yetirilməsi vacibdir".

Rubio ABŞ-ın İranla danışıqlardan müsbət nəticə gözlədiyini deyib, lakin Tehranın alternativ addımının onun istədiyi nəticəni verməyəcəyi ilə bağlı xəbərdarlıq edib. O, Hörmüz boğazı məsələsinə də toxunub: "Beynəlxalq su yolları heç bir dövlətə məxsus deyil. Bu, müasir dünya düzəninin əsas prinsiplərindən biridir. Bu olmasaydı, dünya xaosa düçar olardı. Əgər beynəlxalq su yolundan, sadəcə, müəyyən dövlətin ərazisi yaxınlığından keçdiyi üçün istifadəyə görə ödəniş alına biləcəyi fikrini qəbul etsək, belə bir təcrübə tez bir zamanda bütün dünyaya yayılacaq".

M.Rubio bildirib ki, regional müttəfiqlərdən hər hansı bərpa fonduna töhfə vermələrini xahiş etməyəcək, hərçənd İranla anlaşma memorandumunda həmin ölkələrin bu xərclərin bir hissəsini öz öhdələrinə götürmələri nəzərdə tutulub. O, İranla razılaşmanın uğuruna ümid etdiyini bildirib: "Biz buna hazırıq, xüsusən də əgər İran öz ideologiyasını başqa ölkələrə ixrac etməyə çalışan inqilabi hərəkat olmaqdansa, indi xalqının rifahını düşünən milli dövlətə çevrilməkdə maraqlı olduğunu qərara alarsa". O, Vaşinqtonun razılaşmanın işləməsini istədiyini, lakin saziş çərçivəsində qəbul edilən istənilən qərarın ABŞ-ın müttəfiqlərinin və tərəfdaşlarının maraqlarını nəzərə almasını təmin edəcəyini bildirib: "Biz sülhə açığıq, lakin heç bir şəkildə bizim təhlükəsizliyimizə və rifahımıza, yaxud Fars körfəzi regionundakı dost və müttəfiqlərimizin təhlükəsizliyinə və rifahına xələl gətirməyən davamlı, real sülhə açığıq".

Qərb mediası ABŞ Dövlət katibi Marko Rubionun Körfəz ölkələrinə səfərini "minnət turnesi" epiteti ilə qiymətləndirib. Amma Rubionun özü Körfəz Əməkdaşlıq Şurası ölkələrinin xarici işlər nazirləri ilə görüşdən sonra keçirilən mətbuat konfransında bu səfərini "çox məhsuldar" adlandırıb.

***XQ***

# "Lənkəran Sərnişin" ATSC-nin 2025-ci il dekabrın 31-nə balans hesabatı

manatla

| AKTİVLƏR | ilin əvvəlinə | ilin sonuna |
|---|---|---|
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6,376. | 510. |
| **Pul vəsaitləri və sair qısamüddətli maliyyə aktivlərinin cəmi (6.1.+6.2.)** | **6,376.** | **510.** |
| Qısamüddətli debitor borcları | 3,701. | 4,984. |
| - Alıcılar və sifarişçilərlə hesablaşmalar | 3,701. | 4,984. |
| Sair qısamüddətli aktivlər | 51,407. | 75,081. |
| - Keçmiş illərin zərəri | 50,000. | 50,000 |
| - Hesabat ilində mənfəət/zərər | 1,407. | 25,081. |
| **Ehtiyatlar, debitor borclar və sair aktivlərin cəmi (7.1.+7.2.+7.3.)** | **55.108.** | **80,065.** |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR (6.+7.)** | **61,484.** | **80,575.** |
| Torpaq, tikili və avadanlıqlar | 305,910. | 305,910. |
| **Cəmi uzunmüddətli aktivlər (8.1.+8.2.+8.3.)** | **305,910.** | **305,910.** |
| **CƏMİ AKTİVLƏR (7.+8.)** | **367,394.** | **386785.** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Nizamnamə kapitalı | 280,272. | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 10,064. | 10,064. |
| **CƏMİ KAPİTAL (10.1.+10.2.)** | **290,336.** | **290,336.** |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| - DSMF-yə hesablaşmalar üzrə | 47,685. | 48,515. |
| Qısamüddətli kreditor borcları | | 47,635. |
| - Malsatan və podratçılarla hesablaşmalar üzrə | 364. | 364. |
| - Əmək ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar | 29,373. | 33,471. |
| - Müxtəlif debitor və kreditorlarla, təsisçilərlə hesablaşmalar üzrə | | 13,800. |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR (11.1.+11.2.)** | **77,058.** | **96,149.** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR (10.+11.)** | **367,394.** | **386,485.** |

## Mənfəət və zərər haqqında hesabat

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 630,354. | 687,496. |
| Sair əməliyyat xərcləri (mənfəətdən vergi hesablanarkən nəzərə alınmayan xərclər) | 628,947. | 711,170. |
| Vergiqoyulmadan əvvəl mənfəət (zərər) | 1,407. | -23,674. |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 1,407. | 23,674. |

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | ilin əvvəlinə | ilin sonuna |
|---|---|---|
| **Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 1,407. | -23,674. |
| Satılmış məhsulların istehsal xərcləri | 628,947. | 711,170. |
| Qısamüddətli debitor borcları - artma və ya azalma | *+3,701.* | *+1,283* |
| Sair qısamüddətli aktivlər - artma və ya azalma | *+750.* | *-5,866* |
| Qısamüddətli kreditor borcları - artma və ya azalma | *-61,575.* | *+19,091.* |
| Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri | 630,354. | 711,170. |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma | | **-5,866.** |
| İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri | 40. | 6,376. |
| İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri | 6,376. | 510. |

## Kapitalda dəyişikliklər haqqında hesabat

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Kapitalın cəmi |
|---|---|---|---|
| **2025-ci il yanvarın 1-nə qalıq** | **280,272.** | **10,064.** | **290,336.** |
| **2025-ci il dekabrın 31-nə qalıq** | **288,272.** | **10,064.** | **290,336.** |

## AUDİTORUN HESABATI

### *"Lənkəran Sərnişin" ATSC-nin idarə heyətinə*

***RƏY***

Mən, ***"Lənkəran Sərnişin" ATSC-nin*** 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətinin hesabatından, məcmu gəlirlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Məncə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

***Rəy üçün əsaslar***

Mən, auditi beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən, Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun cəmiyyətdən asılı deyiləm və mən, digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik, maliyyə hesabatlarının IFRS-ə (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik, cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

***"LŞ Audit" MMC-nin direktoru-Auditor F.Ə.Hüseynov***

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

# QƏRAR

**№ 3-27/3-7-3/2026**

**Bakı şəhəri** **8 iyun 2026-cı il**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 16 dekabr tarixli KQ-14/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların nomenklaturu"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 16 dekabr tarixli KQ-14/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların nomenklaturu"nda dəyişiklik təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**

*Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2026-cı il 8 iyun tarixli 3-27/3-7-3/2026 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 16 dekabr tarixli KQ-14/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların nomenklaturu"nda edilmiş dəyişiklik:

4.1.2-ci yarımbənddə "446.100 MHs" sözləri "446.200 MHs" sözləri ilə əvəz edilsin.

# "Azərelektroterm" ASC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Azərelektroterm" ASC-nin nizamnaməsinə əsasən, səhmdarların növbəti illik ümumi yığıncağının məsafədən (onlayn qaydada) keçirilməsi 14 avqust 2026-cı il saat 11.00-da nəzərdə tutulmuşdur.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2025-ci il üzrə illik maliyyə hesabatının təsdiq edilməsi.

**2.** Cəmiyyətin baş direktorunun vəzifədən azad edilməsi və yeni baş direktorun seçilməsi.

**3.** Cəmiyyətin nizamnaməsinə dəyişiklik edilməsi.

**4.** Cəmiyyətin direktorlar şurasının sədrinin və üzvlərinin seçilməsi.

Qiyabi keçirilən ümumi yığıncağın gündəliyinin materiallarını və əlavə məlumatları "Azərelektroterm" ASC-dən Bakı şəhəri, Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi (keçmiş 1222-ci küçə) 12 nömrəli ünvandan əldə etmək olar.

Whatsapp – (010) 228-80-95.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 111 (31080) 26 iyun 2026-cı il, cümə

## İDMAN

### Cüdoçularımız Çin turnirində



**İyunun 25-də Çinin Sindao şəhərində cüdo üzrə Qran-Pri turnirinin püşkatma mərasimi keçirilib. Püşkatmanın nəticələrinə görə idmançılarımızın ilk rəqibləri bəlli olub.**

Los-Anceles Olimpiadasına lisenziya xalları verən yarışda Azərbaycan 10 çəki dərəcəsində 17 cüdoçu ilə (11 kişi, 6 qadın) təmsil olunacaq. Turnirdə 57 ölkədən 500 idmançı mübarizə aparacaq.

26-28 iyun tarixlərində keçiriləcək Sindao Qran-Prisində Azərbaycan Cüdo Federasiyasının Hakimlər Komitəsinin üzvü, "A" kateqoriyalı beynəlxalq hakim Nazim Umbayev də ədalət təmsilçiləri arasında yer alacaq.

### Aydın Süleymanlı: "Mən arzuma çatdım"



**Honkonqda keçirilən rapid və blits üzrə komandalararası Dünya çempionatında iştirak edən "Odlar yurdu" komandasının şahmatçısı Aydın Süleymanlı Azərbaycan Şahmat Federasiyasının mətbuat xidmətinə açıqlama verib.**

Beynəlxalq qrossmeyster komandamızın çıxışı barədə bunları deyib: "Reytinqə görə yarışda 16-cı komanda olmağımıza baxmayaraq pis təsir bağışlamadıq. Həm rapid, həm də blitsdə gözləniləndən daha yaxşı çıxış etdik. Rapid yarışında güclü heyətə malik "WR Chess" komandasına qalib gəldik. Blitsdə qrupdan çıxdıq, amma Özbəkistanla mübarizədə bəxt tərəfimizdə olmadı. İkinci oyunda 2,5–3,5 hesabıyla uduzduq, halbuki qələbə qazana bilərdik. Ümumilikdə, nəticəni qənaətbəxş hesab edirəm".

Azərbaycan millisinin üzvü FIDE reytinqində birinci yerin sahibi Maqnus Karlsenlə oyunu heç vaxt unutmayacağını bildirib: "Turnirdən əvvəl kapitanımız Rauf Məmmədovla danışanda birinci lövhədə oynamaq istəyimi söylədim. Çünki dünya çempionu Maqnus Karlsenə qarşı mübarizə aparmaq istəyirdim. Fikrimcə, hər bir şahmatçının arzusudur ki, Karlsenə qarşı oynasın. Mən arzuma çatdım, hətta qalib də gəldim. Maqnus çox böyük şahmatçıdır, ona qalib gəlmək asan deyil. Əvvəllər mən də belə düşünürdüm, lakin qələbə qazanmağı bacardım".

Qeyd edək ki, Aydın Süleymanlı 2-5 iyul tarixlərində Amerika Birləşmiş Ştatlarında keçiriləcək rapid və blits turnirində iştirak edəcək.

### "Gələcəyə doğru 2026" turniri



**Azərbaycan Üzgüçülük Federasiyasının (ASF) təşkilatçılığı ilə Bakı Su İdmanı Sarayında suya tullanma üzrə "Gələcəyə doğru 2026" turniri baş tutub.**

Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışda ümumilikdə 23 idmançı 7 kateqoriya üzrə çıxış edib.

Turnirin keçirilməsində əsas məqsəd ölkəmizdə suya tullanma idman növünə olan marağın artırılması, kütləviliyin təmin edilməsi və bu sahədə gələcək vəd edən istedadlı idmançıların aşkar olunmasıdır.

Mükafatçılara ASF tərəfindən medallar, diplomlar və sertifikatlar təqdim olunub.

***Qabil YUSİFOĞLU***
***XQ***

## "BAKI NEFT MƏDƏN AVADANLIQLARI" Açıq Səhmdar Cəmiyyəti 31.12.2025-ci il tarixə Maliyyə Hesabatı

*manatla*

| AKTİVLƏR | 2025 | 2024 |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar | 386.674 | 327.714 |
| Qeyri-maddi aktivlər | ***386.674*** | ***327.714*** |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| *Qısamüddətli aktivlər* | 467.267 | 409.834 |
| Ehtiyatlar | 212.476 | 502.488 |
| Qısa müddətli debitor borcları | 50.118 | 107.266 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 947.575 | 955.022 |
| Gələcək dövrün xərcləri | 26.684 | 24.431 |
| Sair qısamüddətli aktivlər | ***1.704.120*** | ***1.999.041*** |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **2.090.795** | **2.326.755** |
| **CƏMİ AKTİVLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapital | 765.876 | 765.876 |
| Kapital ehtiyatları | 427.896 | 503.892 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 414.936 | 263.325 |
| **CƏMİ KAPİTAL** | **1.608.708** | **1.533.093** |
| **ÖHDƏLİKLƏR** | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 69.999 | 110.000 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 180.092 | 213.034 |
| Qısamüddətli kreditor borcları | 203.658 | 411.711 |
| Sair qısamüddətli öhdəliklər | 2.034 | 1.221 |
| Dividendlər üzrə təsisçilərə borclar | 26.304 | 57.696 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | ***482.087*** | ***793.662*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **482.087** | **793.662** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **2.090.795** | **2.326.755** |
| **MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI** *(xərclərin funksiyaları üzrə)* | | |
| Əsas əməliyyat gəliri | 3.088.289 | 2.710.010 |
| Satışın maya dəyəri | (2.494.834) | (2.319.148) |
| **Ümumi mənfəət** | **593.454** | **390.862** |
| Digər əməliyyat gəlirləri | | |
| Ümumi və administrativ xərclər | (74.668) | (61.706) |
| Kommersiya xərcləri | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | **518.787** | **329.156** |
| Maliyyə xərcləri | | |
| **Vergi tutmadan əvvəl mənfəət (zərər)** | **518.787** | **329.156** |
| Mənfəət vergisi | (103.757) | (65.831) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **415.029** | **263.325** |
| İştirak edən səhmlərin sayı | 382.938 | 382.938 |
| Hər səhm üzrə mənfəət | **1,08** | **0,69** |
| **PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI** | | |
| Hesabat dövründə mənfəət /zərər | 518.787 | 329.156 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər (amortizasiya) | 63.441 | 38.760 |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| • Ehtiyatlar üzrə (artım)/azalma | **(57.434)** | **87.417** |
| • Əməliyyat debitor borclarında və gələcək dövrün xərclərində (artım)/azalma | **297.459** | **(510.451)** |
| • Sair qısamüddətli aktivlərdə (artım)/azalma | (2.253) | (12.464) |
| • Cari vergi öhdəliklərində artım/(azalma) | (32.941) | 170.813 |
| • Əməliyyat kreditor borclarında artım/(azalma) | (208.053) | 173.318 |
| • Sair qısamüddətli öhdəliklərdə artım/(azalma) | 813 | 419 |
| • Ödənilmiş mənfəət vergisi | (103.757) | (65.831) |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | **476.062** | **211.137** |
| Uzunmüddətli maddi və qeyri-maddi aktivlərin əldə edilməsi | (122.400) | |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | **(122.400)** | - |
| Verilmiş dividend | (294.717) | (225.262) |
| Banklardan kredit şəklində alınmış məbləğlərin ödənilməsi | (40.000) | 110.000 |
| Kapital ehtiyatlarına düzəlişlər | (76.092) | |
| Kapital ehtiyatlarından istifadə | | (93) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **(410.809)** | **(115.355)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **107.265** | **11.483** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **50.118** | **107.265** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI**

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2023-cü il tarixə qalıq** | **765.876** | **503.985** | **128.796** | **1.398.657** |
| 2024-cü il üzrə xalis mənfəət | | | 263.325 | 263.325 |
| Elan olunmuş dividend | | | (128.797) | (128.797) |
| Kapital ehtiyatlarından istifadə | | | (93) | (93) |
| **31 dekabr 2024-cü il tarixə qalıq** | **765.876** | **503.985** | **263.232** | **1.533.093** |
| 2025-ci il üzrə xalis mənfəət | | | 415.029 | 415.029 |
| Elan olunmuş dividend | | | (263.325) | (263.325) |
| Kapital ehtiyatlarından istifadə | | (76.089) | | (76.089) |
| **31 dekabr 2025-ci il tarixə qalıq** | **765.876** | **427.896** | **414.936** | **1.608.708** |

## "BAKI NEFT MƏDƏN AVADANLIQLARI" ASC-nin İdarə Heyətinə

***RƏY***

Mən **"BAKI NEFT MƏDƏN AVADANLIQLARI"** ASC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Məncə, əlavə edilmiş maliyyə hesabatları ASC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır.

Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

***Rəy üçün əsaslar***

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq ASC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik ASC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

***Sərbəst auditor: K.Ə.Alıyev***

*Dünya çempionatı – 2026*

# Meksika: 3 oyunda 3 qələbə

**Dünya çempionatı–2026-nın qrup mərhələsinin 3-cü turunun ilk oyun günündə 3 qrupda komandaların vəziyyətinə aydınlıq gətirildi. A qrupunda keçirilən qarşılaşmalar Meksikanın dominantlığı və CAR-ın tarixi uğuru ilə yadda qaldı. Çexiya – Meksika görüşündə ev sahibi qrup mərhələsini 100 faizlik nəticə (3 oyundan 9 xal) və qol buraxmadan tamamladı. Matçın ilk yarısı bərabər keçsə də, 2-ci hissədə təzyiqi artıran "El Tri" Mateo Çavezin 55-ci dəqiqədəki qolu ilə hesabı açdı. Cəmi 6 dəqiqə sonra Julian Kinyones fərqi ikiyə çatdırdı. Uzatma dəqiqələrində, daha dəqiq desək, 90+4-cü dəqiqədə Alvaro Fidalqonun vurduğu qol Çexiya yığmasını turnirdən tamamilə kənarlaşdırdı. 3 oyundan cəmi 1 xal toplayan çexlər mundiladakı çıxışlarını başa vurdu.**

Həmin qrupda günün ən böyük sürprizlərindən biri Cənubi Afrika Respublikası yığmasının Cənubi Koreyanı turnirdən kənarlaşdırması oldu. Thapelo Masekonun 63-cü dəqiqədə vurduğu yeganə qol CAR-a qızıl dəyərində 3 xal qazandırdı. Bununla da CAR komandası öz tarixində ilk dəfə Dünya çempionatında qrup mərhələsini adlayaraq pley-offa vəsiqə qazandı.

B qrupunda İsveçrə 20 yaşlı gənc ulduzu Johan Manzambinin möhtəşəm oyunu sayəsində Kanada üzərində qələbə qazandı–2:1. Manzambi Ruben Varqasın ikinci hissənin əvvəlində (Varqas ikinci hissənin 39-cu saniyəsində qol vuraraq son 16 ilin ən tez vurulan ikinci hissə qoluna imza atdı) vurduğu qolun ötürməsini verdi, 56-cı dəqiqədə isə özü fərqləndi. Kanadalı Promise David 75-ci dəqiqədə fərqi azaltsa da, İsveçrə qrup liderliyini qoruyub saxladı.

Bosniya və Herseqovina – Qətər matçında bosniyalılar 18 yaşlı vinger Kerim Alajbeqoviçin 29-cu dəqiqədə uzaq məsafədən vurduğu gözəl qolla önə keçdi. Bu qolla Alajbeqoviç Dünya çempionatları tarixində cərimə meydançasından kənardan qol vuran ən gənc futbolçu oldu (18 yaş 276 gün). Daha sonra 34-cü dəqiqdə Edin Cekonun ötürməsindən sonra qətərli Mahmud Abunada topu öz qapısına göndərdi. Qətər əfsanəsi Həsən Əl-Heydos 42-ci dəqiqədə fərqi azaltsa da, son nöqtəni 80-ci dəqiqədə bosniyalı Ermin Mahmiç qoydu–3:1.

Beləliklə B qrupunda İsveçrə qrup lideri (7 xal) olaraq növbəti mərhələyə birbaşa vəsiqə qazandı. Qrup 2-si (4 xal, +5 top fərqi) kimi Kanada rəsmən son 32 komanda arasında qaldı. Bosniya və Herseqovina 4 xalla qrup 3-sü oldu. Turnirin reqlamentinə əsasən, 12 qrupdan ən yaxşı nəticə göstərən 8 qrup üçüncüsü pley-offa vəsiqə qazanacaq. Bosniyanın 4 xalı və -1 top fərqi olduğu üçün onların pley-offa adlamaq şansı çox yüksəkdir, lakin digər qrupların oyunları bitmədən bu, tam rəsmiləşməyib.



C qrupunda maraqla gözlənilən Şotlandiya– Braziliya qarşılaşmasında "sambaçılar" britaniyalıları darmadağın edərək qrup 1-cisi oldu–0:3. Vinisius Junior matçda dubl etdi (6 və 47-ci dəqiqələr). Bu qollarla Vinisius Junior, Romario, Ronaldo və Rivaldo kimi əfsanələrin ardınca Dünya çempionatının qrup mərhələsinin hər üç oyununda qol vuran 5-ci braziliyalı kimi tarixə düşdü. Oyunun 60-cı dəqiqəsində Bruno Qimaraesin ötürməsindən sonra Mateus Kunya topu yaxın küncdən tora daxil edərək qarşılaşmada Braziliyanın 3-cü qoluna imza atıb. Matçın sonlarında zədədən qayıdan veteran ulduz Neymarın meydana daxil olması braziliyalı azarkeşlər tərəfindən böyük coşğu ilə qarşılandı.

Bu qrupda Mərakeş – Haiti oyunu Şimali Amerika təmsilçisinin sensasiyalı şəkildə önə keçməsi ilə başladı. Mərakeşin qapıçısı Bononun 10-cu dəqiqədə böyük səhvi avtoqolla nəticələndi.

Lakin Əşrəf Hakimi (39) və İsmayıl Saibarinin (45+1) qolları ilə Mərakeş vəziyyəti xeyrinə dəyişdi. Haitili Vilson İsidor (43) hesabı bərabərləşdirsə də (2–2), ikinci hissədə Süfyan Rahimi (78) və Gessime Yassinenin (89) qolları afrikalılara parlaq qələbə qazandırdı. Bu qrupun nəticələrinə görə, Braziliya millisi 3 oyundan 7 xal toplayaraq qrup lideri kimi pley-offa vəsiqə qazandı.

Mərakeş yığması 3 oyundan 6 xalla qrup ikincisi kimi rəsmən 1/16 finala yüksəldi. Şotlandiya qrupda 3 xalla 3-cü yeri tutdu. Xal və top fərqi göstəriciləri digər qrupların üçüncülərindən zəif olduğu üçün rəsmən ələndi. Haiti komandası isə qrupda 3 oyuna xal qazana bilmədi (0 xal) və mundialda iştirakını başa vurdu.

Bəs pley-offa vəsiqə qazanan komandalar reqlamentə əsasən necə qarşılaşacaqlar?

Meksika (A qrupunun 1-cisi) 1/16 finalda C, E, F, H və ya I qruplarının ən yaxşı 3-cü yeri tutan komandalarından biri ilə qarşılaşacaq. Matç 30 iyunda Mexiko şəhərində keçiriləcək.

İsveçrə (B qrupunun 1-cisi) növbəti mərhələdə E, F, G, I və ya J qruplarında 3-cü yeri tutan ən yaxşı yığmalardan biri ilə üz-üzə gələcək. Oyun 2 iyulda Kanadanın Vankuver şəhərində baş tutacaq.

Braziliyanın (C qrupunun 1-cisi) rəqibi tam dəqiq qrup mövqeyinə əsaslanır. "Sambaçılar" F qrupunun 2-cisi (Niderland, Yaponiya və ya İsveç üçlüyündən biri) ilə qarşılaşacaq. Matç 29 iyunda Hyustonda keçiriləcək.

Cənubi Afrika Respublikası (A qrupunun 2-cisi) reqlamentə əsasən birbaşa B qrupunun 2-cisi ilə qarşılaşır. Bu o deməkdir ki, pley-offun ilk rəsmi cütlüklərindən biri CAR – Kanada matçı olacaq. Oyun 28 iyunda Los-Ancelesdə baş tutacaq.

Kanadanın (B qrupunun 2-cisi) rəqibi isə CAR (Cənubi Afrika Respublikası) yığmasıdır.

Mərakeş (C qrupunun 2-cisi) F qrupunun qalibi ilə qarşılaşacaq. F qrupunda hazırda liderlik uğrunda gərgin mübarizə aparan Niderland və ya Yaponiya Mərakeşin rəqibi olacaq. Oyun 29 iyunda Monterreydə keçiriləcək.

DÇ-2026-da bu gün qrup mərhələsinin 3-cü turunun 2-ci oyun günündə D, E və F qruplarında rəsmi olaraq 6 qarşılaşma keçirilib. Oyunlar Bakı vaxtı ilə iyunun 25-dən 26-na keçən gecə baş tutub. E qrupunda saat 00:00-da Kürasao – Kot-dİvuar, Ekvador – Almaniya, F qrupunda saat 03:00-da Yaponiya – İsveç, Tunis – Niderland, D qrupunda isə saat 06:00-da Türkiyə – ABŞ, Paraqvay – Avstraliya oyunları ilə qaliblər müəyyənləşib.

***Q.YUSİFOĞLU***
***XQ***

## HAVA

### Paytaxtda əsasən yağmursuz, rayonlarda yağış, dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə yağış yağacağı gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 19-23°, gündüz 26-31° isti olacağı ehtimal edilir.**

Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-22°, gündüz 28-33° isti, dağlarda gecə 9-14°, gündüz 17-22°, bəzi yerlərdə 24-26° isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

***✓ 2007-ci ildə Orucov Nail Dadaş oğluna bələdiyyə tərəfindən verilmiş Bakı şəhəri Qaradağ rayon Korgöz qəsəbəsində yerləşən torpağın 17 saylı sənədi itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

AMEA-nın Naxçıvan Bölməsinin kollektivi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə əzizi

**İBRAHİM HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3168**
**SİFARİŞ 814**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Tahir AYDINOĞLU**
**Çapa imzalanmışdır 00:00**